*Azərbaycan təhlükəsizlik orqanlarının 80-ci illiyinə həsr olunur.*

**Araz Qurbanov**

# Səssiz müharibə

**Məsləhətçi:** İsmayıl BAĞIROV

**Redaktor:** Fuad İsgəndərov

Araz Əhmədağa oğlu QURBANOV: «Səssiz müharibə». Bakı, Gənclik nəşriyyatı,1999-cu il

Jurnalist Araz Qurbanovun «Səssiz müharibə» kitabı son illər baş vermiş real hadisələr əsasında yazılmışdır. Kitabda İran İslam Respublikası və Azərbaycan arasında mehriban qonşuluq münasibətlərinə xələl gətirmək istəyən məkrli qüvvələrin milli dövlətçiliyimizə qarşı yönəldilən kəşfiyyat-pozuculuq fəaliyyətindən, xarici xüsusi xidmət orqanlarının ölkəmizdəki casus şəbəkələrinin ifşa edilməsində Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin apardığı qətiyyətli mübarizədən bəhs olunur.

Müəllif «Səssiz müharibə» kitabı vasitəsilə bir daha oxucuları dövlət müstəqilliyimizin möhkəmləndirilməsində, onun qorunmasında fəal iştirak etməyə, ayıq-sayıq olmağa çağırır.

Q 4702060204 / M653(07) - 99 Qrifli nəşr

ISBN 5-8020-1457-1

**Az**
**© Gənclik, 1999**

## ÖN SÖZ

«Əüzü billəhi-minəş-şeytanir-rəhim» - Allah bizi şeytanın şərindən qorusun! Tarix boyu bütün dövlətlərdə casusluq etmək, fitnə-fəsad salmaq «şeytan əməli», «şeytan şəri» sayılıb. İndi də belədir. Odur ki, bu xəbərdarlıq nə «şpionofobiya» - casusdan qorxmaq azarından, nə də sovetlər dövründə olduğu kimi, hər əcnəbiyə «agent» gözü ilə baxmaq «sayıqlığından» irəli gəlir.

Ürəyiaçıq, qonaqpərvər xalq olduğumuzla fəxr edirik. Azərbaycana xoşməramlı əcnəbilər gəlmişlər və bundan sonra da gələcəklər. Aralarında müəssisə açıb binəsiblərə iş, çörək verənlər, beynəlxalq təşkilatların xətti ilə yardım göstərənlər, ali məktəblərimizdə təhsil alanlar, ailə qurub həmişəlik kökatanlar da var. Belələrinin əksəriyyəti Azərbaycanın qanunları ilə yaşayır, işləyir. Amma bəzən «xoş məram» pərdəsi altında müəyyən incə mətləblər də gizlədilir: Ölkə əhalisini etiqadlara parçalayıb qarşıdurma yaratmaq, Azərbaycanı asılı vəziyyətə salmaq sevdasına düşənlər arzularını gerçəkləşdirmək üçün ən çirkin üsullara, xüsusilə casusluğa əl atmaqdan çəkinmirlər.

Vətənə xəyanətdə - İranın xeyrinə casusluqda ittiham olunan Azərbaycan İslam Partiyası liderlərinin fəaliyyəti

haqqında yazdığım «Səssiz müharibə» sərlövhəli məqalə mətbuatda dərc edildikdən az sonra müxtəlif fikirlər, bəzən isə əks-rəylər doğurdu. Belə rəylərin müəllifləri nədənsə, casuslar, onların himayədarları barədə susub yazıda açıqlanan faktlara görə jurnalisti «dövlətlərimiz arasındakı mehriban münasibətlərə xələl gətirməkdə», «imperialist ölkələrə xidmətdə» ittiham edirdilər. Yəni, elə məsələlər var ki, müxbir onların üzərindən tam sükutla keçməli, susub əhəmiyyət verməməli idi! Belə çıxır ki, «münasibətlərə xələl gətirən» yalnız jurnalistlərdir və ölkəmizdə dini zəmində dövlət çevrilişi, vətəndaş müharibəsi törətmək məqsədilə casus şəbəkəsi, silahlı dəstələr yaradan, cəbhə bölgələrində hərbi hissələrin dislokasiyasını öyrənib bu barədə məlumatı dərhal Ermənistana çatdıran, dünya görüşü formalaşmamış yeniyetmələri «dini təhsil» adı ilə İrana apararaq oradakı təlim mərkəzlərində - «məktəblərdə» təxribatçılara çevirən İİR-in xüsusi xidmət orqanları sudan quru çıxmalıdırlar! Əslinə qalsa, İranın məxfi xidmətlərini - «Ettelaat» və «Sepahe-pazdarane-enqolabe-eslami»nin məqsədini başa düşürük: Qonşunu ipə-sapa yatan görmək istəyirlər. Amma unudurlar ki, bu istək onlarındır, bizim yox! Odur ki, zərurəti görüb «Səssiz müharibə»dəki mövzunu yeni olaylarla zənginləşdirməyi qərara aldım.

Səksəninci illərin sonunda cərəyan edən milli təkamül dövrünə, bu dövrü müşayiət edən «dastan romantizmi» çağına bir də qayıdaq: Laxlamaqda olan SSRİ-nin möhkəmləndirilməsi üçün yeganə çıxış yolunu «parçalanaq, sonra birləşərik» prinsipində görən Moskva bu prosesi sürətləndirmək, son nəticədə, «sarsılmaz ittifaqın» zəruriliyini sübuta yetirmək üçün Qarabağın düşməndən azad olunması ruhunda köklənmiş xalqın kütləvi psixoz vəziyyətindən, tarıma çəkilmiş əsəblərindən, nə gizlədək, həm də o dövrdə siyasi səviyyəmizin aşağı olmasından məharətlə istifadə edirdi. Azərbaycan əhalisini SSRİ qanunlarının pozulmasına şir-

niklәndirәrәk sonrakı cәza aksiyalarına bәri başdan bәraәt qazandırmaq, digәr respublikalara ibrәt dәrsi vermәk üçün Kremlin vә Lubyankanın kabinetlәrindә hazırlanmış mәkrli plan işә salındı. Bu planın icrasında ağırlığın bir hissәsi imperiyapәrәst «imperiya düşmәnlәrinin» - cildini dәyişmiş bәzi meydan qәhrәmanlarının üzәrinә düşdü. Onların barmaq işarәsi ilә xalq «әndazәdәn» çıxır, kütlәvi itaәtsizlik göstәrir, bir vaxtlar SSRİ-nin qüdrәti rәmzlәrindәn olan sәrhәdlәri dağıdırdı. Bu sәtirlәrin müәllifi dә şahiddir ki, sәrhәd qurğularının sökülmәsindә sovet әsgәr vә zabitlәri qollarını çırmalayıb üsyankar әhaliyә neçә «tәmәnnasız» kömәk edirdilәr. Bu «kömәyin» әsl mahiyyәtini isә Yanvar faciәsindә anladıq. Odur ki, qoy, heç kәs hәmin dövrdә «Araz niskilinin» aradan götürülmәsini şәstlә öz adına çıxarmasın! Sәrhәdlәri onlar deyil, xalq deyil, Moskva sökdürürdü...

Ölkәnin siyasi hәyatında düşüncәnin, mәntiqin emosiya qarşısında gerilәdiyi hәmin xaos dövrünün qeyri-müәyyәnliyi Azәrbaycanın hüdudlarının mühafizәsinә dә öz zәrәrli tәsirini göstәrmişdi. Әvvәllәr fövqәladә hadisә olan sәrhәd pozuntusu adilәşib, gündәlik hal almışdı. Qәsdәnmi, bilmәdәnmi Moskvaya kömәk edәn «azadlıq aşiqlәrinin» fitvası ilә «qardaşı-qardaşdan ayıran» sәrhәd qurğuları dağıdılmış, tikanlı mәftillәr qırılmış, neytral zolaqlar «Savalan hәsrәtli» sövdәgәrlәrin alver yerinә çevrilmişdi. O taylı - bu taylı danasını itirәndәn tutmuş aradüzәldәnәdәk, alverçidәn fәrariyәdәk hәr kәs xalqın әn nәcib arzusunun mәnasızlaşdırılması, dәyәrinin ucuzlaşdırılıb heçә endirilmәsi üçün nә bacardısa, onu da etdi. İrandan paqonlarını әba altında gizlәdәn «mollaların» ixracı mәnәvi dәyәrlәrimizi bayağılaşdırdı, saf etiqadı xurafata, siyasi vasitәyә çevirdi.

O vaxt da, indi dә sәrhәdi pozub bu tәrәfә keçәnlәr arasında casuslar az deyil...

## «Sülhməramlı» casuslar

***«Allah sizə ancaq sizinlə din yolunda vuruşan, sizi yurdunuzdan çıxardan və çıxartmağa kömək edən kimsələrlə dostluq etməyi qadağan edər. Onlarla dostluq edənlər əsl zalimlərdir».***

***Qurani-Kərim, «əl-Mumtəhinə» surəsi.***

- A bala, gör, o doxtur kimi gəzir? Bayaqdan maşınla buraları hərlənir.

- Dünən də gəlmişdilər. Vallah, bir söz demirlər, yəqin xəstənin adresini axtarırlar.

- Yazıq neyləsin?! Buranın adresindən mən baş çıxarmıram, o ki qaldı, nabələd adam ola...

«Təcili yardım» maşını bir daha asta-asta məhəllənin başına fırlanıb skamyadakı qadınların yanından ötdü. Sürücünün böyründə əyləşmiş ağ xalatlı «doxtur» hədsiz maraq və sual dolu baxışlarını ona zilləmiş «köhnə tanışlarına» ötəri nəzər salıb qımışdı: Məhəllənin «Simsiz teleqrafları» cəmi iki gündür ki, onu buralarda görürlər. Halbuki heç kəsə demədən, heç kəsdən soruşmadan ünvanını axtardığı «xəstə» az qala bir aydır ki, «həkimlərin» dincliyini əlindən alıb. Onun axtarışına mikrorayonlardan, Dərnəgüldən, «Xutor»dan başlamışdılar. Sonra tələnin ilgəyi daraldı, daraldı və ən nəhayət, Naxçıvani küçəsindəki kiçik bir məhəlləyə sığışdı. Görəsən, «xəstə» bu beton binaların hansındadır?...

***

...«Cəlal» pəncərənin pərdəsini ehtiyatla aralayıb həyətə boylandı. Bu tərəfdə də sakitlikdir. Narahat olmağa dəyməz. Məhəllə uşaqları hay-küylə top dalınca qaçışır, qonşu qadınlar yenə də baş-başa verib kimisə «quru yuyub yaş sərirdilər». Saatına baxdı və kresloya yayılıb mürgüləyən Musəvini dümsüklədi, farsca: «Vaxtdır!» - dedi. Yataq otağına keçdilər. Çarpayının altında, dolabda gizlədilmiş radiostansiya, şifrələmə kompüteri çıxarılıb yazı masasının üstünə qoyuldu. «Cəlal» cihazları divar boyu uzanan kabellərə qoşub qulaqcığı taxdı. Əlləri bu dəfə də əsəbilikdən titrəyirdi. Neçə aydır ki, efirdə çıxıb «Əkbər»lə, «Arsen»lə, «Abbas»la və daha kimlərlə radiorabitə yaratsa da, hələ də daxilindəki həyəcanı boğa bilmirdi. Xof, səksəkə içində idi: «Bunun axırı yaxşı olmayacaq!» Radioötürücünün düymələrini basıb mikrofonu qabağa çəkdi...

***

...Tutqun şüşəli «RAF»ın içərisində, elektron cihazların əhatəsində əyləşmiş başqa bir «həkim» isə yorğunluqdan qızarmış gözlərini pelenqatorun şkalasından ayırmadan sürücüyə aramsız komanda verirdi: «Sağa, ...irəli, ...sola, ...bir də sola...». Dəqiqələr, saatlar keçirdi. Məhəllənin enişli-yoxuşlu sökük küçələri ilə asta-asta irəliləyən «təcili yardım» maşını tini burulub növbəti binanın qarşısından keçəndə operator ani olaraq duruxdu. Qulaqcığı başına sıxıb qeyri-ixtiyari səsini qaldırdı: «Saxla!» Sürücü dərhal əyləci basdı. Qulaqcıqdan gələn boğuq səslə get-gedə şiddətlənirdi. Sanki kimsə uzaqdan havaya aramsız atəş açırdı. «Tapmışıq, buradadır!.».

***

***İSTİNTAQ MATERİALINDAN: «1992-ci il mayın 12-də MTN-in rabitə xidməti naməlum əlaqə kanalı***

***aşkar etmişdir. Qısa dalğada Bakıda «Cəlal», Tehranda «Əkbər» çağırış kodları arasındakı radioəlaqə kanalı öz texniki əlamətlərinə görə İran İslam Respublikası xüsusi xidmət orqanlarının radio şəbəkəsinə aiddir. Radiomüşahidələr nəticəsində məlum olmuşdur ki, həmin mənbədən Kabul və Pişəvərdəki «Kamal», «Xosem», «Hüseyn», Dəməşqdəki «Yusif», «Abbas», Beyrutdakı «Arsen»(!), Aşqabaddakı «Camal» və digər radiooperatorlarla da müntəzəm əlaqə saxlanılır. Rabitə kanalı kodlaşdırılmışdır və telefon rejimində aparılır. Mayın 26-da «Cəlal» əlaqə seansları zamanı xüsusi avadanlıq tətbiq etmiş və efirdə sınaqlar keçirmişdir... Operativ axtarış tədbirləri və radiopelenq vasitəsilə Bakıdakı radiooperatorun - «Cəlal»ın ünvanı müəyyənləşdirilmişdir: Naxçıvani kuçəsi, bina 38 A, mənzil 36».***

***ƏMƏLİYYAT MƏLUMATINDAN: «27 may 1992-ci il. «Elektrik sayğaclarını yoxlamaq» bəhanəsi ilə qonşularla apardığım söhbət zamanı onlar həmin mənzildə İran ticarət şirkəti nümayəndələrinin yaşadığını söyləmişlər. Lakin müvafiq tədbirlər nəticəsində orada İran İslam Respublikasının hərbi müşahidəçilər qrupunun məskunlaşdığı məlum olmuşdur. Qrupun rəhbəri İranın xüsusi xidmət orqanının əməkdaşı "Cəlal" ləqəbli Əzim İmdadidir».***

O ilin ümumi mənzərəsini bir də xatırlayaq: Azərbaycan özünün ağır, mürəkkəb çağını yaşayırdı. Hərbi və siyasi böhran içərisində idi. Hakimiyyət uğrunda gedən mübarizə daha da kəskinləşmiş, "demokrat" – "partokrat" qarşıdurması kulminasiya həddinə çatmışdı. Ölkə siyasi partlayış ərəfəsində idi. Daxili çəkişmələrdən məharətlə istifadə edən düşmən isə sürətlə irəliləyərək şəhər və kəndlərimizi tapdağı altına alırdı. Qısası, həm siyasət meydanında, həm də səngərdə mənafe mübarizəsi ge-

dirdi. Və bu mübarizədə Azərbaycanı öz mənafe dairəsində görmək istəyən dövlətlər də iştirak edirdilər...

Məhz belə bir vaxtda – 1992-ci il aprelin 7-də İran İslam Respublikasının növbəti sülhməramlı missiyası Bakıya gəldi. General Hacı Mansur Həqiqətpurun başçılıq etdiyi nümayəndə heyətinin «əsas məqsədi» münaqişəni dinc yolla nizamlamaq, tərəfləri danışıq stolu arxasında əyləşdirmək idi. Rəsmi danışıqlarda, görüşlərdə bildirilirdi ki, İran onunla həmsərhəd dövlətlər arasında hər cür qarşıdurmanın kəskinləşməsində, müharibənin geniş miqyas almasında qətiyyən maraqlı deyil və yaranmış vəziyyət Tehranın da qayğılarını artırır. «Əsas məqsəd» ifadəsini eyhamla çəkməyimizin səbəbi var və bu, İranın sülhməramlı missiyasının fəaliyyətini şübhə altına almaq cəhdindən irəli gəlmir. Təəssüflər olsun ki, İran nümayəndələrinin «xoş məram» prinsipinin arxasında çirkli məqsəd də gizlədilmişdi. Daha dəqiq desək, nümayəndə heyətinin tərkibindəki «hərbi müşahidəçilər» qrupunun casusluq fəaliyyəti son nəticədə bütün missiyanın adına, məramına ləkə gətirdi. Həmin bədnam qrupun təşkilatçısı general Hacı Mansur, icraçı rəhbəri isə Əzim İmdadi idi...

***İSTİNTAQ MATERİALİNDAN: «Hacı Mansur Həqiqətpur İran İslam Respublikasının ən səlahiyyətli hərbi təşkilatı olan «Sənahe-pazdarane-enqolabe-eslami»nin (İslam İnqilabının Müdafiə Korpusunun) generalıdır. Azərbaycan Respublikası ərazisində hərbi kəşfiyyat xarakterli əməliyyatların, casus şəbəkələri yaradılmasının əsas təşkilatçılarındandır və bir sıra əməliyyatların bilavasitə rəhbəri olmuşdur. SSRİ dağıldıqdan sonra Azərbaycanda dini zəmində dövlət çevrilişi planını reallaşdırmaq, «islami dövlət» qurmaq üzrə ixtisaslaşıb...».***

«Əzim İmdadi, ləqəblərindən biri «Cəlal»dır. 1960-cı ildə anadan olub. Peşəkar kəşfiyyatçı, «Sepah»ın za-

bitidir. Azərbaycan Respublikasında hərbi və siyasi münaqişələr üzrə mütəxəssisdir. «Hezbollah»ın üzvü kimi bəzi Şərq ölkələrində müxtəlif əməliyyatların icrasında fəal iştirak edib».

***

Beləliklə, sülhməramlı missiyanın tərkibində olan «Sepah» casusları – Əzim İmdadi, Cəlal Tahiri, Mircavad Musəvi və İsmayıl Əsğər Leskukolayi Azərbaycanda öz çirkin əməllərini həyata keçirməyə başladılar.



İran kəşfiyyatçısı Məhəmməd Rza Əsədbegi (sağda) Bakıda olarkən

Məqalələrdəki hadisələrin gedişinə bəri başdan aydınlıq gətirmək üçün bir qədər də «Sepah»ın özündən danışaq: Bilavasitə ölkənin ali dini rəhbəri ayətullah Xameneyiyə tabe olan bu təşkilat qeyri-məhdud səlahiyyətləri və nüfuzu baxımından İranın Təhlükəsizlik və İnformasiya Nazirliyindən üstündür. Əsas fəaliyyət sahələrinə islam inqilabının ixracı, hərbi kəşfiyyat və islam rejiminin mühafizəsi daxildir.

General Hacı Mansurun və onun «hərbi müşahidəçilərinin» Azərbaycanda malik olduqları imtiyazlara öz generallarımız da həsəd apara bilərdilər. Ölkə rəhbərliyinin, müdafiə və daxili işlər nazirliklərinin «sadəlövhlüyü» sayəsində göz görə-görə kəşfiyyat xarakterli məlumatların toplanması ilə məşğul olan İran casusları külli-ixtiyar sahibi idilər. İstədikləri vaxt cəbhə bölgələrinə, hərbi hissələrə aparılır, əməliyyat planları, məxfi materiallarla tanış edilir, ölkə ərazisində maneəsiz hərəkətləri üçün saxta sənədlərlə təmin olunurdular. Məsələn, İran diplomatı Cəlal Tahiri cibində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının leytenantı Nazir Əliyevin adına vəsiqə gəzdirirdi. Müdafiə Nazirliyinin «QAZ-31» markalı avtomobili gecə-gündüz Hacı Mansurun qulluğunda idi. «Cəlal» qrupunun üzvləri bu baxımdan da öz generallarından geri qalmırdılar. Fərq burasında idi ki, diqqəti yayındırmaq məqsədilə casuslar üçün dövlət nişanlı avtomobillər deyil, yerli vətəndaşların şəxsi maşınları icarəyə götürülmüşdü. Əzim İmdadi və həmkarları «Datsun» markalı D-36-119 nömrəli və «Niva» markalı J 01-57 AZ nömrəli avtomobillərdə heç kəsdə şübhə oyatmadan istədikləri istiqamətdə sərbəst hərəkət edə bilirdilər. Sözün qısası, Milli Ordunun strateji və taktiki planlarının sirr qapıları «xoşməramlı» İran casuslarının üzünə taybatay açılmışdı. Hətta «hərbi müşahidəçilər» döyüş bölgələrindən geri döndükdən az sonra

həmin mövqelərdə baş verən faciəli hadisələr, təxribatlar da ölkə rəhbərliyini qəflət yuxusundan ayıltmamışdı. «Cəlal» qrupunun üzvləri Qabağın dağlıq hissəsindəki mövqelərlə ətraflı tanış olub Bakıya qayıtdıqdan, kəşfiyyat xarakterli məlumatı «Əkbər»ə, «Arsen»ə ötürdükdən az keçməmiş Ermənistan silahlı qüvvələrinin qəflətən hərəkətə başlayıb, hücum və müdafiə taktikalarında düzəliş etmələri heç də təsadüfdən irəli gəlmirdi. Sadəcə olaraq, kimsə onları vaxtında xəbərdar edə bilirdi! Nəticədə, ya həmin mövqələrin zəif müdafiə olunan istiqamətlərindən qabaqlayıcı hücumlar edərək onları asanlıqla ələ keçirir, ya da sərrast artilleriya zərbələri endirirdilər. «Hərbi müşahidəçilərin» «qardaş töhfələri» bununla kifayətlənmirdi: Alınan məlumata görə, «Cəlal»ın Yerevanda və Xankəndidə də radiooperatorları vardı...

Hacı Mansur Azərbaycanda çox ləngimədi. İşləri yoluna qoyub «hərbi müşahidəçiləri» təlimatlandırdıqdan sonra Tehrana qayıtdı. Daha onun Bakıda qalmasına ehtiyac da yox idi. «Cəlal» tapşırıqların icrası ilə bağlı bütün hesabatları və sorğuları radioötürücü ilə birbaşa onun adına - «Əkbər»ə göndərəcəkdi. «Əkbər» (Hacı Mansur) ilə İmdadinin qrupu arasında əlaqə yaratmaq isə nümayəndə heyətinin tərkibində Bakıya gəlmiş başqa bir peşəkar casusa - «Sepah»ın Ərdəbil şəhəri üzrə nümayəndəsi Məhəmməd Rza Əsədbegiyə həvalə olunmuşdu. Əsədbeginin adı Azərbaycan dindarlarına yaxşı tanışdır: İslam Partiyası liderlərini Tehrana aparıb «Sepah»ın konspirasiya mənzilində Hacı Mansur Həqiqətpurla tanış edən də o idi...

«Cəlal» Naxçıvani küçəsindəki mənzildən müntəzəm olaraq efirə çıxır və qapalı rabitə şəbəkəsinə qoşulurdu. Bu şəbəkə İran xüsusi xidmət orqanlarının dünyanın müxtəlif guşələrində, o cümlədən Ermənistanda yerləşdirilmiş onlarca radiooperatorunu əhatə edirdi. Bakı

məntəqəsi üçün efir yalnız saat 17-dək açıq qalırdı. Səbəbi? İş burasındadır ki, axşamlar Bakı televiziya qülləsi daha gərgin rejimdə işlədiyindən «Cəlal»ın rabitəsi üçün elektron maneə yaradırdı.

Belə bir sual ortaya çıxır: Həmişə öz qonaqpərvərliyi ilə seçilən İran səfirliyi, görəsən, hansı səbəb üzündən yüksək rütbəli məmurlar üçün şəhərin mərkəzində deyil, gözdən-könüldən uzaq olan məhəllədə mənzil seçmişdir? Və heç bir rahatlığı olmayan təmirsiz, soyuq mənzilin üstünlükləri nə idi?

Diplomatik nümayəndəlik casusların yerləşdirilməsi üçün yaşayış yeri seçəndə məsələyə tamamilə başqa parametrlərlə yanaşmışdı. Əvvəlcə, mənzilin çatışmazlıqları barədə: Dəbdəbəli həyata, hər cür rahatlığa öyrəşmiş əcnəbilərin firavan yaşayışı üçün burada qətiyyən şərait yox idi. Mebel sınıq-salxaqdır, pəncərələr pərdə əvəzinə mələfə, köhnə adyal ilə tutulub. Ən nəhayət, qızdırıcılar işləmir, binaya su fasilələrlə verilir və işıq tez-tez kəsilir. Amma «Sepah»ın nöqteyi-nəzərindən yanaşsaq, bu ünvanın böyük məziyyətlərinin də şahidi olarıq. Əlbəttə, mötəbər casus qrupunun şübhələrdən, «bədnəzərdən» uzaqda məskunlaşdırılması, təbii ki, konspirasiya məqsədi də daşıyırdı. Digər tərəfdən, məhz 38 «A» nömrəli binanı seçmələri heç də təsadüfü deyildi. Yalnız ciddi-cəhdlə aparılan axtarışdan sonra barmaqlarını bu binanın, bu mənzilin üstünə qoymuşdular. Onmərtəbəli dəmir-beton «göydələn» ətrafındakı digər tikililərdən xeyli yüksəkdir. Deməli, onun damında quraşdırılacaq radioantena üçün heç bir təbii maneə olmayacaqdı...

Antena uzun metal şüvüllərin üzərində quraşdırılmışdı və uzaqdan baxan üçün paltar zivəsindən seçilmirdi. Almaniyada istehsal olunmuş kabel binanın damındakı ventilyasiya şaxtasının çıxışından düz mənzilin içərisi-

nədək uzanırdı. Yaponiyada hazırlanmış radioötürücü, şifrələmə kompüteri dolabın içində və çarpayının altında yerləşdirilmişdi. Kiçik dizel generatoru, tənzimləyici və akkumulyatorlar üçün isə eyvanda yer ayrılmışdı. Əgər kabeldə və ya antenada bir balaca nasazlıq yaranarsa və ya kimsə «maraqlanıb» ona toxunarsa, yataq otağındakı qızdırıcının borusuna bərkidilmiş xüsusi indikator-lampa yanıb-sönərək «həyəcan» siqnalı verəcəkdi.

Şifrələyici kompüter tətbiq olunduqdan sonra qrupun efirə çıxması xeyli asanlaşmış və öz anlamlarında radioqramın tam məxfiliyi təmin olunmuşdu. Belə ki, məxfi kod yığıldıqdan sonra diktorun oxuduğu mətn əvvəlcə kompüterin yaddaşına köçürülür və on-on beş dəqiqəlik «radiosöhbət» boğuq tapança atəşini xatırladan 0.5 saniyəlik siqnala «yerləşdirilirdi». «Əkbər», «Arsen», «Abbas» və başqaları öz növbələrində, bu siqnalı tutub öz şifrələmə cihazları ilə açdıqdan sonra «Cəlal»ın səsi ilə oxunan məlumatla tanış ola bilirdilər...



İran casuslarının mənzilində aşkar olunmuş radioötürücü

«Hərbi müşahidəçilər» təkcə kəşfiyyat xarakterli məlumatın toplanıb ötürülməsi ilə kifayətlənmirdilər. Əslinə qalsa, bütün bunlar «Ettelaat»ın – İranın İnformasiya və Təhlükəsizlik Nazirliyinin səlahiyyətinə aid məsələ idi. Lakin məhz Hacı Mansurun rəhbərliyi ilə «Sepah» nümayəndələrinin Azərbaycana nüfuz etdirilməsi ideoloji vakkum içərisində çırpınan, iranlı mütəxəssislərin fikrincə, «müqəddəratını özü təyin etməyə qadir olmayan» xalqın yolunu tamamilə başqa bir istiqamətə yönəltmək məqsədi daşıyırdı: Azərbaycanın başı üzərində dini zəmində dövlət çevrilişi kabusu dolaşır və bunun üçün hələ 80-cı illərin axırlarından mərhələ-mərhələ hazırlıq görülürdü. Odur ki, İranın bəzi dairələri tərəfindən sıravi azərbaycanlıya zorən təlqin olunan «islam təəssübkeşliyi» anlayışının kökünü «xristian ermənilərin təcavüzünə məruz qalmış müsəlman bacı-qardaşlara təmənnasız yardımda» axtarmaq sadəlövhlükdən savayı bir şey deyildir. Qonşusunu güclü, sözükeçən dövlət görmək istəməyən İranın mürtəce dairələrinin niyyəti Azərbaycanı zəiflədib burada iransayağı islam dövləti qurmaq, özündən asılı vəziyyətə salmaq, nəticədə, öz daxili problemlərini də bu yolla həll etmək olmuşdu və təəssüf ki, bu təhlükə hələ də qüvvəsində qalmaqdadır. Yeri gəlmişkən, «Sepah»ın, o cümlədən Hacı Mansurun və Məhəmməd Rza Əsədbeginin Azərbaycan İslam Partiyası ilə sıx əməkdaşlığı, onun liderlərini casusluğa cəlb etməsi də ilk növbədə bu çirkin niyyətdən irəli gəlmişdi.

Hələ 90-cı illərin əvvəllərində İranın xüsusi xidmət orqanları Azərbaycan ərazisində rəsmi Tehranın siyasi və iqtisadi mövqeyini möhkəmləndirmək, «islami dövlət» quruculuğu üçün sosial baza yaratmaq, ölkədə məzhəb ədavəti salmaq, siyasi təmayüllü dini təbliğatı gücləndirmək üçün 50 milyon dollar vəsait ayırmışdı. Müştərək müəssisələrin açılması, yalnız şiə məzhəbli Azərbaycan

vətəndaşları üçün məscidlərin inşası, ali və orta məktəblərdə «islami təbliğatın» («İslamın təbliği» anlayışı ilə qarışdırmamalı!) aparılması, İran İslam Respublikasının dövlət modelinin üstünlüklərindən bəhs edən kitabların yayılması, bəzi «üzüyumşaq» vəzifə sahiblərinin və jurnalistlərin şirnikləndirilib ələ alınması, guya Azərbaycanın bir vaxtlar İranın əzəli torpaqları olması barədə televiziya verilişlərinin efirə çıxarılması və s. məhz bu fonddan maliyyələşdirilirdi. Həmin kampaniyada «Sepah»ın vasitəçilərindən biri Abşeron üzrə Azərbaycan İslam Partiyasının Ali Şurasının sədri Hacı Əlikram Əliyev olmuşdu. Əzim İmdadinin - «Cəlal»ın Bakıdan göndərdiyi bəzi radioqramların mətni və İrandan alınmış cavablar dediklərimizə sübutdur:

***«Cəlal»: - İslam Partiyası üzləşdiyi bəzi məhdudiyyətlər üzündən ölkədə öz qüdrətini nümayiş etdirə bilmir».***

***«Əkbər»: - Partiyanın yaradılmasına icazə olmadıqda 200 nəfər yerli adamla xarici ölkə səfirliklərindən birinin, Xarici İşlər Nazirliyinin və məscidin qarşısında mitinq keçirilməlidir».***

***«Cəlal»: - «Azərbaycandakı parlament seçkilərinin yaxınlaşdığını nəzərə alaraq, seçkilərdə iştirak etmək üçün İslam Partiyasının proqramı tərtib edilməli və istiqamətləndirilməlidir. Nəzərdə tutulmuş adamların seçkilərdə qələbəsi üçün vəsait ayırmağa ehtiyac var».***

***«Cəlal»: - «Əkrəmlə (Hacı Əlikram) Əbül (Əbülfəz Elçibəy) görüşmüşlər. Əkrəm demişdir ki, vəzifələrin başını açıb sovurmusan, bizə heç nə qalmayıb».***

***«Əkbər»: - «Azərbaycan mətbuatında Salman Rüşdini pisləyən yazılar getməlidir. Bunun üçün jurnalistlərə pul ayrılmalıdır».***

***«Cəlal»: - Azərbaycana iki əməliyyat-informasiya qrupu göndərilməlidir. Hər biri beş nəfərdən ibarət***

***yerli qrupun təcili olaraq İranda təlimə başlaması üçün şərait yaradılmalıdır. Qazızadə (Rəhim Qazıyev) ilə əlaqə düzəlib. Amma Azərbaycan hökumətində kim kiminlə dostdur, düşməndir, bilinmir».***

Tehranda əyləşib sifarişlərini göndərən «Əkbər»in – Hacı Mansurun bir radioqramı və az sonra baş vermiş bir hadisə onların İslam Partiyası ilə nə dərəcədə yaxınlaşmasına əyani sübutdur: «Qüds günü» münasibətilə Təzəpir məscidində 200 nəfərdən ibarət mitinq keçirilməli, Amerika, İsrail, Türkiyə dövlətləri pislənməli, ayətullah Xomeyninin Salman Rüşdi haqqında çıxardığı ölüm fitvasının icrası tələb olunmalıdır! Mitinqdə İsrailin bayrağı yandırılmalıdır». Necə tapşırılmışdısa, elə də oldu. 1993-cü il fevralın 14-də Təzəpir məscidinə izdiham toplaşdı. Aralarında İran diplomatları, jurnalistləri, «Cəlal»ın adamları da vardı. İsrail və Amerikaya lənət oxunduqdan, Tehran televiziyası üçün pozuq fars dilində mərsiyələr deyildikdən sonra üzərində Davud peyğəmbərin ulduzu olan ağ-mavi bayraq yandırıldı. Ermənistana humanitar yardım çatdırılması üçün guya Türkiyənin əlverişli şərait yaratması pisləndi. Sonra qətnamə hazırlandı. AİP rəhbərlərinin imzaladıqları həmin qətnamənin surəti sonralar axtarış zamanı İran casuslarının mənzilində tapılmışdı.

Əlbəttə, «Sepah» ipə-sapa yatmayan Azərbaycanda islam inqilabının, daha dəqiq desək, din pərdəsi altında dövlət çevrilişinin baş tutmaması üçün fəaliyyətini özünün müsəlman dünyası qarşısında «müqəddəs borclarından» biri sayırdı. Bəs, bu «ali məqsədi» gerçəkləşdirmək üçün icraçılar kim olacaqdı?

***İSTİNTAQ MATERİALINDAN: «Müşahidə obyekti - «Cəlal» Qarabağda döyüş təcrübəsi keçmiş gənclərin guya İranda «dini təhsil almaq» üçün seçilməsinə şəxsən özü rəhbərlik edir. Onun sözlərinə əsasən, bu məsələ müdafiə naziri Rəhim Qazıyev və***

***Xüsusi Təyinatlı Milis Dəstəsinin komandiri Rövşən Cavadovla razılaşdırılıb. İndiyədək hər biri 10-12 nəfərdən ibarət 10 qrup toplanıb İrana göndərilib. Alınan məlumata görə, onlar İranın xüsusi xidmət orqanlarına məxsus təlim-məşq bazalarında kəşfiyyat və əks-kəşfiyyat üzrə hazırlıq keçirlər».***

Yəqin ki, oxucuların bir qismi narazı qalıb məqalə müəllifini qınayacaqlar: «Sepah»ın bu hərəkətinin nəyi pisdir? Bəlkə onlar erməni işğalçıları ilə mübarizə aparmaq üçün peşəkar döyüşçülər hazırlamaq istəyirmişlər? Vallah, billah elə deyil. Və müəllifin bu yazı vasitəsilə hər hansı bir nəcib məqsədə qara yaxmaq, əsassız tərəfkeşlik etmək fikri də yoxdur. Odur ki, bu məsələnin «subyektiv» şərhindən çəkinib obyektiv söz demək üçün İranda «təhsil» alıb qayıtmış sabiq XTMD üzvlərinə müraciət etdik.

***Namiq MƏMMƏDOV: «1992-ci ildə qaçaq yolla İran İslam Respublikasında hərbi hazırlıq keçmək üçün gedənlərdən biri də mənəm. Bakıda «PAZ» markalı avtobusa əyləşib əvvəlcə Cəlilabada yola düşdük. Sərhəd kəndlərinin birində bizi iki qaçaqmalçı qarşıladı və gizli cığırla İrana keçirdi. Orada «Mersedes» markalı avtobus bizi gözləyirdi. Təqribən on saat yol getdik. Kərəc şəhəri yaxınlığında vaxtilə İran şahının villası olan imarətin həyətinə daxil olduq. Saçımızı dibindən qırxıb üzərinə nömrə yazılmış hərbi paltar geyindirdilər. Mənim nömrəm 3133 idi.***

***Sübh tezdən məcburən namaz qılıb sonra təlimlərə başlayırdıq. Kəşfiyyat dərslərində adamları pulla ələ almaq, məscidlərdə, stadionda, ümumiyyətlə, izdihamlı yerlərdə təbliğat aparmağın üsullarını öyrədirdilər. Deyirdilər ki, geri qayıtdıqdan sonra Azərbaycanda islam cümhuriyyəti qurmaq üçün ətrafımıza xeyli adam toplamalıyıq.***

***İrana gəldiyimiz ikinci gün bizi «söhbət» adı ilə***

*bir-bir dindirdilər. Tapşırmışdılar ki, heç bir suala doğru cavab verməyək. Haqqımızda hər şeyi dəqiq bilsələr də, hər birimiz üçün «rəvayət» uydurmuşdular. Azərbaycana qayıtdıqdan sonra bu «rəvayət» əsasında fəaliyyət göstərməli idik. Mənə öyrətmişdilər ki, guya adım Əlövsət, familiyam isə Həsənovdur. Füzuli rayonunda, Horadiz qəsəbəsində doğulmuşam və hazırda Bakıda yataqxanada yaşayıram. Şuşa ətrafında qanlı döyüşlər gedəndə sözü bir yerə qoyub geri qayıtmaq qərarına gəldik. Qərarımızı eşidən kimi İran generalları kazarmamıza gəldilər. İranda qalmağı təkid etdilər. Sözümüzdən dönmədik. Bu zaman bildirdilər ki,harada yaşayıb-işləməyimizdən asılı olmayaraq bizə daim nəzarət edəcəklər...».*

*Vaqif HÜSEYNOV: «İranda adımızla deyil, nömrə ilə çağırılırdıq. Mən 3135-ci idim. Müəllimlərimiz yüksək rütbəli hərbçilər idi. İranlı əsgərlərlə və mülki şəxslərlə ünsiyyətdə olmaq bizə qadağan edilmişdi. Kəşfiyyat və əks-kəşfiyyat məşqlərində bizə dövlət çevrilişini necə həyata keçirməyi başa salırdılar. Bakıda Prezident iqamətgahını, Milli Məclisi, Milli Təhlükəsizlik, Daxili İşlər və Müdafiə nazirliklərinin binalarını, teleşirkəti və s. zəbt etməyin yolları da öyrədilirdi. Məşğələlərin birində dövlət obyektlərini mühafizə edən polis işçilərini pul vasitəsilə ələ almaq, onların nəzarətindən yayınmaq üsullarından dərs keçəndə hamımız etiraz etdik. Bildirdik ki, biz də polis işçiləriyik! Sonra həmin məşğələ ləğv olundu...».*

*Xalıqverdi MƏMMƏDOV: «Onların hər hansı bir fikrinə etiraz edəndə zindana salıb işgəncə verirdilər. Bizə təlqin edirdilər ki, məqsədimiz islam bayrağı altında birləşmək, dinimizi yaymaq, buna mane olanları isə aradan götürməkdir. Bir dəfə qiyam etdik, əmrlərinə tabe olmadıq. Bildirdik ki, biz İrana hərbi*

***təlim keçməyə gəlmişik. Güldülər: «Təlimi Naxçıvanda da keçə bilərdiniz. Siz buraya başqa məqsədlə gəlmisiniz. Səfəriniz Rəhim Qazıyev və Rövşən Cavadovla razılaşdırılıb». Dini və əks-kəşfiyyat dərslərini Höcət adlı zabit, idman və hərbi məşğələləri isə Tağı Abbasi, Hüseyn və Mövsüm adlı zabitlər keçirdilər. Poliqonda olanda Pakistandan, Əfqanıstandan və Fələstindən gəlmiş «kursantları» da gördük. Dərs vaxtı müəllimlərimiz deyirdilər ki, qələbədən (?) sonra Azərbaycanda hər birimizi yaxşı vəzifə gözləyəcək. Amma bir şərtlə: Gərək onların dediklərinə əməl edək.***

***Azərbaycana qayıdarkən dönə-dönə tapşırmışdılar ki, İrandakı məşğələlərimiz barədə heç kəsə danışmayaq: «Lazım gəldikdə özümüz axtarıb tapacağıq. Sizin vəzifəniz bizim adamların tapşırıqlarını yerinə yetirməkdir». Poliqonda bizə dərs demiş Tağı Abbasi sonralar iki dəfə Azərbaycanda peyda olmuşdu. O, Müşfiq adlı yoldaşımızı tapıb onunla görüşmüşdü. Müşfiq də bizimlə İranda «dini məşğələ» keçənlər arasında idi. Lakin bu görüşdən az sonra o, Qarabağ uğrunda gedən döyüşlərdə müəmmalı surətdə həlak oldu...».***

***İSTİNTAQ MATERİALINDAN: «Azərbaycandan göndərilmiş gənclərin təlim keçdiyi məntəqənin yaxınlığındakı digər bazada Ermənistandan və Qarabağdan gəlmiş erməni yaraqlıları xüsusi hazırlıq keçirlər...».***

«Cəlal»ın qrupu yaxalandıqdan sonra istintaqa ifadə vermiş Rövşən Cavadov etiraf etmişdi ki, həqiqətən polis işçilərini İrana təlim keçmək üçün göndərmişdi. Lakin onların dövlət çevrilişinə cəhd məqsədilə hazırlıq keçməsini yalnız qruplar geri qayıdandan sonra bilib. Sabiq prezident Əbülfəz Elçibəy isə nə müdafiə, nə də daxili işlər nazirliklərinin xətti ilə İrana qruplar göndərilməsi barədə sərəncam vermədiyini söyləyib. Elə isə, siz deyin,

120 polis işçisinin dövlətdən «xəbərsiz» qaçaq yolla İrana aparıb onlara xüsusi təlim keçməkdə «Sepah»ın məqsədi nə idi?

Məqalənin əsas «qəhrəmanı» - «Cəlal»ın Azərbacan «macəraları» üzərinə qayıdaq. İmdadi həqiqətən də, fövqəladə nüfuza malik idi. İranın Azərbaycandakı səfirliyinin bütün əməkdaşları, hətta rütbə və vəzifəcə ondan üstün olanlar «Cəlal»dan oddan qorxan kimi çəkinir, ehtiyatla davranır, bütün istəklərinə «Bəçeşm!» - deyib əməl edirdilər. Heç kəsin onun Bakıda nə ilə məşğul olduğunu soruşmağa haqqı yox idi. Bu iltifata yalnız səfirliyin müşaviri Rəhimian layiq görülmüşdü. Diplomatik korpusun əməkdaşları içərisindən «Cəlal» yalnız onunla məsləhətləşir və bütün söhbətlər bağlı qapı arxasında aparılırdı. Rəhimianın tapşırığı ilə səfirliyin işçiləri İmdadinin bir sözünü iki eləmirdilər. Hətta çox zaman onun şıltaqlığı İranın dəmir «islami əxlaq» normalarını da aşıb keçirdi. Lakin əslinə qalsa, göz yumulan bu «həddaşmanın» arxasında da müəyyən incə mətləblər dururdu.

Döyüş bölgələrinə aramsız səfərlərdən yorulan «Cəlal» günlərin birində Qəçrəşdə dincəlmək fikrinə düşdü. «Baş üstə!» - dedilər. Sonra İmdadi əlavə etdi ki, istirahətə tək getmək istəmir, çünki darıxacaq. Onu müşayiət edənlər arasında iki cavan xanım da olsa, «islami əxlaq»a elə bir sarsıdıcı zərbə dəyməz. Təbiidir ki, «Sepah» zabitinin bu dəruni arzusu ürəyində qalmadı...

Qəçrəşdə İmdadi içkiyə əl vurmadı: «Bizə haram buyrulub!» - dedi. Amma digər haram məsələyə - zinakarlığa meylini və rəğbətini gizlətmədi. Quzu kababının üstündən şampan şərabı qurtumlayan gözəl xanımların əhatəsində oturub başına yığışanlara şəriətdən, iransayağı evlənmək qaydasından, siğənin üstünlüklərindən bir xeyli moizə oxudu. Və ən nəhayət, gəldi əsas mətləb üstünə. Məlum oldu ki, ona təcili bir rus xanımı da

gərəkdir! Süfrə arxasında oturanların tikəsi əlində qaldı. Bir çəlimsiz İmdadiyə, bir də sağında-solunda əyləşmiş təzə-tər xanımlara baxdılar. İmdadi bu baxışların mənasını dərhal anladı: «Ağlınıza başqa fikir gəlməsin, o qadın mənə iş üçün lazımdır». Rus xanımı İmdadi ilə Yerevana getməli və «müəyyən məxfi işlərdə» ona kömək etməlidir. Bunun üçün isə Tehranlı «şeyx Nəsrullah» əvvəlcə onu özü ilə Moskvaya aparacaq, təlimatlandıracaq və başqa ad yazılmış saxta pasport düzəltdirəcəkdir. «Cəlal» onu da əlavə etdi ki, əvvəllər özü də saxta sənədlər gəzdirib. Tez-tez «Əvəz» və «Əmir» adlarından istifadə edib. Bu xahişdən sonra İmdadi ürəklənib şəxsi arzusunu da bildirdi: Əgər imkan düşsə, Bakıdakı evində ona qulluq etmək üçün bir xanım da tapılsa, pis olmaz.

«Cəlal»ın sözü yerə düşmədi. Sarışın gözəl ağayi İmdadiyə «rus dilini» öyrədirdi. Casusun Puşkin, Tolstoy dilini hansı aspektdə mənimsədiyini öyrənmək üçün yaxalandığı zaman mənzilindən çıxan «məşğələ dəftərindəki» qeydlərə diqqət yetirmək kifayətdir. İmdadi əcnəbi dilə belə yiyələnirdi: «У menya denqi yes», «Tı menya lubiş?», «Ya inostranes, ya tebya lublu...».

***

«Bar» yetişmiş, «məhsul yığımı» vaxtı çatmışdı. Casusları həbs etmək Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi üçün elə bir problem deyildi. Onların cinayət əməllərini sübuta yetirmək də çətinlik törətməyəcəkdi. Xeyli dəlil, sübut toplanmış, videofoto çəkilişlər aparılmışdı. Lakin bütün bunlar onların cinayətlərini sübut etmək üçün kifayət deyildi. Əks təqdirdə dövlətlərarası münasibətlərdə sərinlik yaranar, «böhtana məruz qalan» casuslar isə cəzasız qala bilərdilər. Nəticədə Azərbaycan tərəfi bütün dəlillərinə baxmayaraq, İran hökumətindən rəsmi üzr istəməli olacaqdı. Odur ki,

«Cəlal» və onun qrupu yalnız və yalnız cinayət başında yaxalanmalı idi. Casuslardan xəbərsiz mənzilin daxili planından, otaqlarda mebelin düzülüş qaydasından tutmuş, qapının kilidinə, pəncərələrin rəzələrinədək hər şey dəqiqliklə öyrənildi. Və nəhayət, «N» saatı gəlib yetişdi...

24 fevral 1993-cü il. Dünən Moskvada «Rusiya Federasiyası Silahlı Qüvvələri» günü atəşfəşanlıqla qeyd olunub. Bakı isə növbəti həyəcanlı və qayğılı günlərinin birini yaşayıb. Naxçıvani küçəsindəki sakit məhəllə yenə də öz qapalı aləmindədir. Günortaüstü də olsa da, küçədə əl-ayaq çəkilib. İliyə işləyən qış küləyi sakinləri təkidlə evlərinə qovur. Paltosunun yaxalığını qaldırıb isti mənzillərinə tələsənlərin heç birinin ağlına da gəlməzdi ki, bir azdan sonra burada baş verəcək hadisə onların məhəllələrini məşhurlaşdırıb, məxfi yazışmalarda diplomatik sənədlərdə hallandıracaqdır. Təbii ki, o vaxt bunu bilməzdilər. Və çox güman ki, əksəriyyəti bu sətirləri oxuduqdan sonra altı il əvvəl dörd iranlı qonşularının qəflətən peyda olduqları kimi «yoxa çıxmasının»da əsl səbəbini anlayacaqlar...

Saat 11:30. Əməliyyat qrupunun hər bir üzvü sakinlərdə şübhə oyatmadan tədricən öz yerini tutur. «Cəlal»ın efirə çıxacağı vaxta isə lap az qalıb. Saatın hər iki əqrəbi 12-nin üstündə dayananda ratsiyadan «dispetçerin» amiranə səsi eşidilir: ««Cəlal» efirdədir, başlayın!»

Günlərlə hazırlanan əməliyyat bir neçə saniyə ərzində başa çatdı. İldırım sürəti ilə qapıdan, eyvandan, pəncərədən mənzilə soxulan hücum qrupu içəridəkilərə qımıldanmağa belə imkan vermədi. Heyrətdən gözləri az qala hədəqədən çıxan İmdadi nə ratsiyanın arxasından qalxa, nə də qulaqcığı başından çıxara bildi. Alt paltarında idi. Videolentə də bu görkəmdə düşdü. Yalnız qollarına qandal vurulanda handan-hana özünə gəlib dili dolaşa-dolaşa mızıldandı: «Ağa, siz haradan gəldiniz!?» Sifəti maskalı əməliyyat işçisi neçə ay ərzində damla-

damla yığılan qəzəbini gizlətmədi. Acıqla: «Sən gəzdiyin yerdən, Qarabağdan!» - dedi...

Az sonra yaxalananların və hal şahidlərinin – qonşuların iştirakı ilə mənzildə axtarış aparıldı, içəridə baş verənlər videolentə köçürüldü. Bu zaman əslən azərbaycanlı olan İmdadi qəflətən ana dilini «unutdu» və farsca danışmağa başladı. Köhnə üsuldur, səfirlik əməkdaşları gələnədək vaxtı uzatmağa çalışırdı. Lakin casusların belə fırıldağa əl atacağını qabaqcadan duyan DTX öz «tədarükünü» çoxdan görmüşdü. Qapının arxasında gözləyən tərcüməçi içəri daxil oldu...

Dolabın, şkafın qapıları açıldı və radiostansiyanın əsas və yardımçı blokları üzə çıxarıldı. «Bunlar nədir?» sualına «Cəlal» fars dilində cavab verir:

- Səfirliyin radiosudur, İrana məlumat göndərirdik...

Dəhlizdəki səfər çantasından, «diplomat»dan hərbi kompaslar, radiostansiya üçün ehtiyat hissələri, təmir ləvazimatı və ... birdəfəlik şprislər (?) aşkar olunur. Bir azdan növbə çarpayının altında düzəldilmiş gizli saxlanca çatır. MTN əməkdaşları İmdadinin həyəcan dolu baxışları altında onun içərisindəkiləri bir-bir çıxarıb döşəməyə düzürlər. Çirkli corabların arasından Xomeyninin, Rəfsəncaninin, Xameneyinin portretləri, kimə nə qədər rüşvət verildiyi qeyd olunan cib kitabçası, radioqram mətnləri yazılmış vərəqələr, şəffaf papirusun üzərində karandaşla çəkilmiş cəbhə bölgəsinin xəritəsi üzə çıxır. Xəritədə yaşayış məntəqələrindən savayı, Azərbaycan Ordusunun mövqeləri, hərbi hissələr, strateji yüksəkliklər, yollar və s. böyük dəqiqliklə göstərilmişdir.

- Xəritə kimindir? – deyə «Cəlal»dan soruşurlar.

- Hamısını bizim səfirlik gətirib. Xəritə də onlarındır. Bu gün gəlib aparacaqlar...

Casus ləvazimatı bir-bir tapılıb dəhlizdə qalaqlandıqca, İmdadinin nəfəsi daraldı və qəflətən «dili açıldı».

Azərbaycanca hay çəkdi:

- Gedin səfiri çağırın, Rövşən müəllimə zəng vurun!...

Məlum səbəblərə görə, əməliyyatın gedişinin təfərrüatına varmırıq. Fakt isə budur: Azərbaycanın ziddinə casusluq edən qrupun iki üzvü Əzim İmdadi və Mircavad Musəvi kəşfiyyat xarakterli məlumatı «Əkbər»ə ötürərkən həbs olundular. Az sonra dəstənin digər üzvləri – Məhəmməd Xuşiyar, Cəlal Tahiri və İsmayıl Əsğər Leskukolayi də yaxalandılar. Təkcə bir müddət əvvəl İrana qaçan Məhəmməd Rza Əsədbegi məsuliyyətdən yayına bildi.

Casusların yaşadıqları mənzildə axtarış zamanı aşkar olunan xüsusi avadanlıq Azərbaycana yalnız diplomatik yük kimi gətirilə bilərdi. Lakin «ən yaxşı müdafiə hücumdur» deyən İranın Bakıdakı diplomatik nümayəndəliyinin «Cəlal» qrupunun əməllərinə görə üzrxahlıq etmək fikri yox idi. Casusların yaxalanması xəbəri Arazın o tayına çatan kimi sanki aydın səmada ildırım çaxdı və səfirlik «hərbi müşahidəçilərin» əməlləri barədə məlumatın yayılmaması, xüsusilə, mətbuata sızmaması üçün heyrətamiz çevikliklə həmləyə keçdi. Rəsmi üzrxahlıq əvəzinə Azərbaycanı naşükürlükdə, İranla dostluq münasibətlərinə xələl gətirməkdə ittiham etdi. Hökumət dairələrinə göndərdiyi etiraz notası isə bu sözlərlə bitirdi: «Zəiflərin təkəbbürlülər üzərində qələbəsi ümidi ilə!». Səfirlik həmin sənəddə radiostansiyanın səfirliyə məxsus olduğunu təsdiqləyərək (?) təkidlə bildirmişdi ki, casusluq üstündə yaxalanmış İran vətəndaşları dərhal azad edilməli, Azərbaycan hökuməti bu «qanunsuz» əməlinə görə rəsmi üzr istəməli, ən nəhayət, onlara dəymiş maddi və mənəvi ziyanın dəyəri ödənilməlidir. Əslinə qalsa, bu notaya əsasən, kimin «zəif», kimin isə «təkəbbürlü» olmasının özü sual altındadır. Digər tərəfdən, tələsik tərtib olunmuş diplomatik məktubun mətnindəki məntiqsizlik nəticə etibarilə onu səfirliyin etirazına deyil, məhz etirafına

çevirir. Məsələn, aşkar olunmuş məxfi radiostansiya həqiqətən də, səfirliyə məxsusdursa, nə səbəbə protokola əsasən, İran İslam Respublikasının Azərbaycandakı ərazisi sayılan diplomatik nümayəndəliyin binasında deyil, kirayəyə götürülmüş ucqar mənzildə quraşdırılmışdır?

İkincisi, nə üçün səfirlik «dinc məqsədlə» istifadə olunan həmin texnikanın istismarı barədə Azərbaycan Respublikası Rabitə Nazirliyinə xəbər verməmiş və onun icazəsini almamışdır? Belə çıxır ki, rəsmi Tehran «hərbi müşahidəçilərin» casusluqla məşğul olduğunu bilsə də, susmuşdu! Üstəlik İranın Azərbaycandakı səfirliyinin müşaviri Rəhimian hüquq-mühafizə orqanlarına belə bir bəyanat da vermişdi ki, əgər həbs olunanlar azadlığa buraxılmasalar, rəsmi Tehran oradakı Azərbaycan vətəndaşlarına qarşı müvafiq cavab tədbirləri görəcəkdir: «AXC rəhbərlərinin İranda şəxsi mağazaları var. Lazım gələrsə, onlara həbs qoyulacaq...».

Cinayət əməlləri sübut olunsa da, casuslar dəmir barmaqlıqlar arasında çox qalmadlıar. Azərbaycan növbəti dəfə humanizm nümayiş etdirdi. «Hərbi müşahidəçilər» qrupunun üzvləri arzuolunmaz şəxs - «persona non qrate» elan olunub ölkədən çıxarıldı və Azərbaycan Respublikasının qapıları onların üzünə həmişəlik bağlandı.

***

1 mart 1993-cü il. İran aviasiya şirkətinə məxsus təyyarə mühərriklərini qızdırır. Deputat salonunda əyləşənlər isə minik vaxtının elan olunmasını gözləyirlər. Onların arasında təcili olaraq Tehrana çağırılan səfir Əli Əsğər Nəvahəndian və müalicə üçün İrana gedən yaralı əsgərlərimiz də var. Diplomatik təbəssümü heç vaxt üzündən əskik olmayan səfir Azərbaycan televiziyasına məmnuniyyətlə müsahibə verir. Bayırda isə səfirliyin əməkdaşları kiminsə gəlişini intizarla gözləyirlər. Elə

səfirin də bir gözü qapıdadır. Üç nəfərin müşayiəti ilə deputat salonuna girən «Cəlal»ı – Əzim İmdadini görən kimi asudə nəfəs alır və müsahibəsini bu sözlərlə tələsik yekunlaşdırır:

- Arzu edirəm ki, yaralı qardaşlarımız, inşallah, geri qayıtsınlar və islam yolunda xidmət etsinlər...

Bakı-Tehran marşrutu ilə uçan təyyarəyə minik başlanır. Yola salanlar yola düşənlərlə xüdahafizləşib ayrılırlar. Deputat salonu sürətlə boşalır. Trapa sonuncu olaraq Əzim İmdadi qalxır...

Dəfələrlə videolenti geri fırladılıb bu ana təkrarən baxdığım, az qala «Cəlal»ın hər bir hərəkətini «əzbərlədiyim» üçün bir məqamı oxucuların da diqqətinə çatdırmaq istərdim: Budur, İmdadini səfirlik əməkdaşları üzük qaşı kimi əhatəyə alıb ətraflarına boylana-boylana trapa yaxınlaşdırırlar. Tələsik gürüşürlər. İmdadi tələni qıran tülkü kimi sürətlə, qaça-qaça özünü İran İslam Respublikasının ərazisinə - təyyarənin göyərtəsinə çatdırır və son anda «Boinq»in qapısı ağzında dayanıb asta-asta geri dönür. Artıq gözlərində bayaqkı yazıqlıqdan, qorxudan daha əsər-əlamət yoxdur. Dişlərini qıcıyıb nifrətlə, qəzəblə üzərində neon lampalarla «Bakı» sözü yazılmış aeroport binasına, ucsuz qumsallığa, çölə, bir sözlə, Azərbaycana baxır. Nəsə demək istəyir. Təyyarənin qapısı bağlanır...

«Səssiz müharibə» səngimir. Burada heç vaxt «atəşkəs» olmur. Gizli döyüşlər hələ də davam edir...

## Səssiz müharibə

***Ya rəsulum, şübhəsiz ki, sənin firqə-firqə olub dinini parçalayanlarla heç bir əlaqən yoxdur. Onların işi Allaha qalmışdır. Allah qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir***

***Qurani-Kərim, «əl-Ənam» surəsi.***

Mətləbə keçməzdən əvvəl üzümü o taylı bəzi müsəlman «bəradərlərimizə», yəni Azərbaycan vətəndaşlarını öz dövlətinə qarşı casusluğa sövq edənlərə tutub bir daha xatırlatmaq istəyirəm:

Məhəmməd peyğəmbər (s) buyurub:

- Vətən sevgisi imandandır.

- Hərbi kafirlərə silah satan kəs, Allaha kafir olandır.

- Qəsb olunmuş daş ilə tikilən ev xaraba qalmaq üçün girovdur.

İmam Cəfər Sadiq (ə) yada salıb:

- Heç vaxt olmayıb və qiyamətə qədər də olmayacaq ki, mömin şəxsin ona əziyyət verən qonşusu olmasın.

İmam Bağır (ə) məsləhət edib:

Müsəlman qardaşını sev, özünə istədiyini onun üçün də istə. Özünə rəva bilmədiyini ona da rəva bilmə!

Və ən nəhayət, İmam Nəqi (ə) deyib:

- Dünya bir bazardır. Bəziləri xeyir götürür, bəziləri ziyana düşürlər.

Guya «islamın dirçəlişi» naminə Azərbaycanda dövlət çevrilişinə zəmin yaratmaq üçün bir qrup mömin adamın İranın kəşfiyyat orqanları ilə könüllü əməkdaşlıq etməsinə aid məhkəmə prosesində tez-tez Allah-təalanın adlarının hallandırıldığını, hətta onun bəzən şahid kimi

çağırıldığını, salonda təkcə qanunlarımıza deyil, Quran ayələrinə də istinad edildiyini, müttəhimlər kürsüsündə isə tanınmış dindarların əyləşdiyini və ən nəhayət, onları casusluğa sövq edənlərin özlərinin də İranın ali rütbəli ruhaniləri olduğunu nəzərə alıb bu məqaləni Böyük yaradanın adı ilə başlayıram.

Bismillahir-rəhmanir-rəhim! Görəsən, Şərq və Qərb arasında körpü olan Azərbaycanda dini zəmində dövlət çevrilişi, daha dəqiq desək, islam inqilabı ehtimalı varmı? Əgər varsa, bu cəhd nə vaxtsa uğurla nəticələnə bilərmi? Bəri başdan deyim ki, bu sual xeyli vaxtdır ki, təkcə ölkənin daxilində deyil, onun hüdudlarından kənarda da çoxlarını narahat etməkdədir. Yəni, həm dövlətimizin təəssübünü çəkənlər, həm də «Azərbaycan» adlı siyasi-iqtisadi və hərbi poliqonda vətəndaş müharibəsi salmaqla, onu xəritədən silmək istəyənlər də bu qəbildəndir.

Bu gün Azərbaycanın da acı təcrübəsi göstərir ki, istənilən təyinatlı dövlət çevrilişi cəhdində uğur qazanmaq üçün təpədən dırnağadək silahlanmış dəstələr nə qədər vacib olsa da, əsas şərt deyildir! Hakimiyyəti zorakılıq yolu ilə ələ keçirmək üçün ilk növbədə sosial baza - «təəssübkeşlər ordusu» gərəkdir və belə «ictimai müdafiəçilərin» olmaması hər bir çevriliş cəhdini bəri başdan iflasa düçar edir. Sosial bazanı isə problemlər məngənəsində sıxılan və hüquqi cəhətdən savadsız ölkə əhalisi arasında mövcud hakimiyyətə qarşı kəskin narazılıq yaratmaqla, bütün çətinlikləri bilavasitə rejimin, dövlət başçılarının ayağına yazmaq, ideoloji təsir vasitələri ilə adamlara islam dövlətinin dünyəvi məmləkətdən üstünlüklərini təlqin etməklə, nəticədə, kütləni öz tərəfinə çəkmək mümkündür. Sınanmış üsuldur! Azərbaycanda «İslam inqilabı» üçün sosial dayağın son dərəcədə kövrək olması ölkəmizi öz mənafe məkanında görən inqilab ixracatçılarının ən yaralı yeri olmuşdu. Çünki bilirdilər ki,

ölkədə hətta ən qatı dindarlar guya «Allahın adı və peyğəmbərin şəriəti» ilə bağlanan, lakin qeybdən göndərilməyib, yerdən, özü də xaricdən idarə olunan təhlükəli oyunların əleyhinə çıxacaq, dinin siyasi alətə çevrilməsinin qarşısını almaq, təzəcə bərpa etdiyimiz milli dövlətçiliyimizi qorumaq naminə ayağa qalxacaqlar.

Məmləkətimizdə dinin qanunla müəyyənləşdirilmiş mövqeyi, onun dövlətdən tamamilə ayrılması təbii ki, xaricdəki qüvvələri qətiyyən qane etmir. Onlar üçün tarix boyu başağrısı olan və boş xülyalarında «İranın əzəli torpaqları» saydıqları Azərbaycanı təkcə hərbi-siyasi və iqtisadi yolla deyil, həm də islam amili ilə diz çökdürmək və bununla da, ilk növbədə öz daxili problemlərini də birdəfəlik həll etmək üçün din siyasət meydanına yeni ampluada atılmalı idi. Hələ 70-ci illərin sonunda, yəni İranda islam inqilabı qələbə çaldıqdan dərhal sonra çiyni əbalı siyasətçilər nəzərlərini Azərbaycana yönəltmişdilər. Çünki sovet ittifaqının tezliklə süqut edəcəyinə onlar da əmin idilər. Lakin geniş miqyaslı fəaliyyətə başlamaq üçün SSRİ dağılanadək gözləməli oldular.

Azərbaycan öz dövlət müstəqqiliyinə yenidən sahib durduqdan sonra onlara öz məkrli siyasətlərini həyata keçirmək üçün əlverişli imkan yarandı. Müharibənin, daxili çəkişmələrin, iqtisadi böhranın yaratdığı hərc-mərclik, qeyri-müəyyənlik, xaos ideoloji təxribat üçün olduqca sərfəli şərait idi. Zərbaftalı zabit paqonlarını molla əbası altında gizlətmiş “bəradərlərimizin” pulu ilə Azərbaycanda çıxan qəzetlərdə İran təmənnalı sevgi ilə vəsf olunur, mövhumatçılar, ordudan fərarilik edənlər arasında seçilən yüzlərlə qaragüruhçu «dini təhsil», «ziyarət» adı ilə şirnikləndirilib İrana aparılır, orada beyinləri yuyularaq xalqına, dövlətinə düşmən ruhunda emal edilirdi. Tamahkar vəzifə sahibləri bahalı hədiyyələr, «yardımlar», müştərək müəssisələrlə ələ alınıb məsləkcə onlara yaxın olanlar

mənsəb kreslolarında əyləşdirilirdi. Qəribə vəziyyət yaranmışdı: İranda milyonlarla soydaşımızın ana dilində yazıb oxuması yasaqlandığı halda, hər gün Azərbaycan milli televiziyasının bir saatlıq efir vaxtı inqilab ixracatçılarının ixtiyarına verilmiş və onlar da məqsədlərini gizlətmədən öz dövlət ideologiyalarının, hətta Azərbaycanın siyasətinə daban-dabana zidd olan fikirlərinin təbliği üçün yaranmış şəraitdən məharətlə istifadə edirdilər.

Belə verilişlərdə İranın dövlət siyasəti təbliğ olunduqca Qərb və Şərq arasındakı uçurum dərinləşir, ilk növbədə, Azərbaycan bir sıra dövlətlərlə qarşı-qarşıya qoyulur və diplomatik münaqişəyə çəkilirdi. Halbuki Azərbaycan və İran arasında mənəvi yaxınlıq olsa da, onların hər biri müstəqil xarici siyasətə, əlaqələrə malikdirlər. Azərbaycan qanunlarına görə, terrorizm, separatçılıq, dini, milli ayrı-seçkilik yasaq sayıldığı halda, görəsən, hansı səbəb üzündən ölkəmizdə yayınlanan Tehran televiziyasının verilişlərində bütün bunlara haqq qazandırılır? Bundan başqa, İranın televiziya jurnalistləri Azərbaycan tamaşaçılarını Təbrizin, Zəncanın, Ərdəbilin, Urmiyanın, Həmədanın... tarixi, mədəniyyəti, o taydakı soydaşlarımızın güzəranı, heç olmasa, Ermənistanın, işğala məruz qalan Şuşada apardığı möhtəşəm «dinc quruculuq işləri» ilə tanış etmək əvəzinə, Bakının, Şəkinin, Lahıcın, Qubanın görməli yerləri barədə turist süjetləri göstərirlər! İş o yerə çatıb ki, cənublu manqurt nisgilli səsi ilə Astaradan tutmuş Dərbəndədək bütün ərazini fars tayfalarının vətəni, yəni İranın torpaqları elan edir. Qobustanın qayaüstü rəsmləri, Qız qalası qədim «İran mədəniyyətinin nümunələri» kimi təqdim olunur, zərrəbinlə Azərbaycanın tanınmış şairlərinin, alimlərinin genində fars izi, mədəniyyətimizdə fars təsiri axtarılır, milli qarşıdurma, məzhəb ədavəti yaradılır. «Bəradərlərimizə» məsləhət bilirik ki, Azərbaycanı İranın tarixi ərazisi hesab etməmişdən əvvəl

qoy, zəhmət çəkib Yerevanla da məsləhətləşsinlər. Yoxsa, xəcalətli qalarlar. Axı, Ermənistan da məhz bu torpaqların ona məxsus olduğunu iddia edir...

***

Beləliklə, İranda islam inqilabının qələbəsindən ruhlanan bir qrup dindarın təşəbbüsü ilə 80-ci illərin əvvəllərində Bakı kəndlərindən birində - Nardaranda «Xomeyniçilər təşkilatı» yaradıldı. Əvvəlcə, xoş məramla, yəni islam dininin dirçəlişi, təbliği, insanların mənəvi kökə qayıdışı məqsədilə fəaliyyətə başlayan bu təşkilat az sonra səmtini kəskin şəkildə dəyişdi və İran İslam İnqilabının tərənnümçüsünə çevrildi. Onun fəal üzvlərindən biri isə bu yazıda haqqında geniş danışacağımız Əlikram Əliyev idi (o vaxt Həcc ziyarətinə getməmişdi). Sözün qısası, Azərbaycan İslam Partiyası bir vaxtlar qeyri-leqal fəaliyyət göstərən həmin «Xomeyniçilər təşkilatı»nın təməli üzərində yaradılmışdı. Yeri gəlmişkən, barəsində danışacağımız məhkəmə prosesində AİP-i «Allahın partiyası» (farscadan çevirəndə «Hizbullah») adlandıran Hacı Əlikramın istintaq təcridxanasında yazdığı şeirdən bir parça yuxarıda dediyimiz bəzi mətləblərə aydınlıq gətirir:

***«Fəqihlər inqilabı baş qaldırdı İranda, Bir də Hizbullahlar tapıldılar Şimalda, Onun da əsl kökü yerləşdi Nardaranda».***

İdeoloji təminat mexanizmi işə salındıqdan sonra artıq əməli fəaliyyətə keçmək üçün məqam çatmışdı. Bu işdə inqilab ixracatlarının əsas köməkçisi onların «halal övladı» sayılan Azərbaycan İslam Partiyası oldu...

Səbr kasasını daşdırmaq üçün bircə damla da kifayətdir. Çox dözdülər, çox xəbərdarlıq etdilər. Faydası olmadı. Nəhayət, Milli Təhlükəsizlik Nazirliyi əməkdaşla-

rının uzun illər boyu mərhələ-mərhələ keçirdiyi əməliyyat tədbirləri 1996-cı il aprelin 6-da başa çatdı: Azərbaycan İslam Partiyasının idman şöbəsinin müdiri, «İmam Hüseyn» adına idman klubunun (?) sədri Əbdülbağı Əliyevin başçılığı ilə 18 azərbaycanlı gənc saxta sənədlərlə İrana keçmək istərkən «Astara» nəzarət-buraxılış məntəqəsində yaxalandı. Kiməsə, ilk baxışda əhəmiyyətsiz görünə bilən bu hadisə Azərbaycanı başdan-ayağa əhatə edən casus şəbəkəsinin ilk açılan düyünü oldu. Az sonra həmin işdə əli olan daha bir neçə nəfər – Qafqaz Müsəlmanları Ruhani İdarəsinin əməkdaşı Həmdulla Babayev, AİP-in məsul işçisi Hacı Kəblağa Quliyev, tamahı üzündən saxta sənədlərə möhür vurub cinayət məsuliyyətini onlarla bölüşən «Ülkər» turizm müəssisəsinin direktoru Ramiz Mustafayev həbs olundular...

Bu yerdə kiçik haşiyə çıxmaq istərdim: ABŞ Dövlət Departamentinin «Azərbaycanda insan hüquqları haqqında» hesabatında AİP-in üzvü Hacı Kəblağa Quliyevin guya MTN istintaq təcridxanasında qəddarlıqla döyüldüyü və aldığı zədələrdən keçindiyi xüsusi vurğulanmışdı. Ağır ittihamdır. Odur ki, bu faktın nə dərəcədə həqiqətə uyğun olduğunu öyrənməyi qərara aldım. Mərhumun ölümü ilə bağlı ekspertiza rəyləri və eləcə də Hacı Kəblağanın müxtəlif illərdə keçdiyi həkim müayinələrinin nəticələri ilə bağlı sənədlər başqa bir ittiham irəli sürməyə vadar etdi: Məlum oldu ki, kiminsə ölümünü siyasi kapital qazanmaq niyyətilə alətə çevirməyə səy göstərən müxalifət partiyalarından biri «sponsorlarına» yerini şirin salmaq, özünü insan hüquqlarının müdafiəsi uğrunda mübariz kimi qələmə vermək üçün bu «faktı» dəqiqləşdirmədən dərhal okeanın o tayına ötürmüşdülər.

Sənədlərə əsasən, Hacı Kəblağa həbs olunandan əvvəl də ciddi xəstə idi. Hələ 1966-cı ildə, 10 yaşında ikən yüksəklikdən başı üstə yıxılmış, beyni ciddi zədə

almışdı. 1976-cı ildə hərbi xidmətdə olarkən bir daha başından xəsarət almış, «kəllə beyninin zədələnməsinin qalıq əlamətləri» diaqnozu ilə hospitala göndərilmişdi. Az keçməmiş elə həmin diaqnoz ilə ordudan tərxis olunmuşdu. Yaxınlarının dediyinə görə, həmişə kəskin başağrılarından şikayətlənirdi. 1996-cı il aprelin 13-də Hacı Kəblağa həbs edilib MTN təcridxanasına gətirilmiş və digər hacılar kimi müntəzəm həkim nəzarətində olmuşdu. Aprelin 28-də keçirdiyi əsəb sarsıntılarından vəziyyəti pisləşmiş, təcili olaraq hospitala, sonra isə Respublika Neyrocərrahlıq Mərkəzinə çatdırılmışdı. Mərkəzin həkimlərinin ekspertiza rəyinə əsasən, xəstənin bədənində heç bir zorakılıq, zədə əlaməti aşkar olunmamışdı. Tibb işçilərinin bütün səylərinə baxmayaraq, Hacı Kəblağa Quliyev mayın 2-də beyindaxili qanaxmadan keçinmişdi. Allah rəhmət eləsin!

Məhkum AİP-də aparıcı şəxs deyildi. O, yalnız və yalnız saxta sənədlərin düzəldilməsində iştirak etdiyinə görə ittiham olunurdu və digər müttəhimlərin törətdikləri əməllərlə müqayisədə cinayəti də, cəzası da yüngül idi. Odur ki, Hacı Kəblağanın hansısa məqsəd naminə «qəddarlıqla döyülüb aradan götürülməsi faktı» qətiyyən həqiqətə uyğun gəlmir və mərhumun ruhuna hörmətsizlikdən başqa bir şey deyildir. İstintaq zamanı ən acınacaqlı hallardan biri də bu idi ki, müttəhim və şahid qismində dindirilənlərin bir qismi cəzadan yaxa qurtarmaq üçün saxta sənədlərin düzəldilməsindən tutmuş gənclərin «ziyarət» adı ilə İranın casus məktəblərinə göndərilməsinədək bütün günahları rəhmətliyin üstünə yıxmağa çalışırdılar.

Ramiz Mustafayev də həbsdə çox qalmadı. Zaminə buraxıldı. Amnistiya aktı ilə əlaqədar Hacı Həmdullanın işinə xitam verildi və köhnə əyyamlarda olduğu kimi, «əmək kollektivinin mühakiməsinə» göndərilmişdi. Lakin onlar «xırda balıqlar» idilər. Aysberqin əsas hissəsi suyun

altında gizlədilmişdi. Saxta sənədlər əməliyyatının təhqiqi Azərbaycan İslam Partiyasının illər uzunu pozuculuq fəaliyyəti ilə məşğul olduğunu üzə çıxardı. Nəhayət, ötən ilin may ayında dövləti cinayətdə - casusluqda ittiham olunan əsas qrup yaxalandı. AİP-in Ali Şurasının sədri Hacı Əlikram Əliyev, şura üzvləri Hacı Vaqif Qasımov, Hacı Hacıağa Nuriyev, partiyanın mədəni-maarif şöbəsinin müdiri Mirhəsən Cəfərov həbs olundular.

Bu hadisə nədənsə məhz rəsmi Tehranda böyük narazılıq doğurdu. İslam Partiyası liderlərinin «nahaq» həbsi və məhkəmə prosesi ilə əlaqədar İranın Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda deyilirdi: «...İran İslam Respublikası və Azərbaycan Respublikası arasında pozitiv və yaradıcı əlaqələrin bərpa olunması bəzi ölkələrin mənafeyinə uyğun gəlmir (?). Elə buna görə də baş vermiş insident və yayılan qeyri-düzgün məlumat biganələrin qərəzli niyyətlərindən başqa bir şey deyildir». Bərəkallah, görəsən, casusluq nə vaxtdan «pozitiv və yaradıcı əlaqələr» sırasına daxil edilib?

İstintaq təqribən səkkiz ay çəkdi. Müttəhimlər axıradək günahlarını qismən etiraf etdilər. Lakin bütün cəhdlərinə baxmayaraq, sübut və dəlillər qarşısında aciz qaldıqlarını gizlətmədilər. Nəhayət, 1997-ci il fevralın 25-də Ali Məhkəmənin üzvü Ənvər Seyidovun sədrliyi, xalq iclasçıları Ömər Ağayev və Mirnazim Mirişovun iştirakı ilə az qala iki ay davam etmiş məhkəmə «marafonu» başlandı. Dövlət ittihamçısı sifəti ilə baş ədliyyə müşaviri Bəhram Zahidov çıxış edirdi. Bəri başdan qeyd edək ki, proses barədə yayılan şayiələrə cavab olaraq məhkəmədə müttəhimlərin hüquqları qətiyyən pozulmamış, onlara özlərini müdafiə etmək üçün hər cür şərait yaradılmışdı. Bunu həm müttəhimlər, həm də onların vəkilləri dəfələrlə etiraf etmişlər. Onlara müntəzəm olaraq tibb yardımı göstərilmiş, yaxınları ilə görüşməyə imkan veril-

mişdi. Lakin, görünür, bu etiraflar da bəzi qüvvələri, xüsusilə İranın müəyyən dairələrini qane etmirdi. Bu barədə bir qədər sonra. Hələlik isə məhkəmənin son gününə qayıdaq. Hökm çıxarılmazdan bir saat əvvəl müttəhimlərdən üçünün bu sətirlərin müəllifinə verdiyi müsahibələrlə tanış olaq.

***Hacı Əlikram ƏLİYEV: - «İranda hərbçilərlə ruhanilər arasında fərq qoyulmur. Məsələn, İranın Ali Məhkəməsinin sədri ayətullahdır. Bunu şəriət qaydaları tələb edir. Bizi oranın hərbçilərinin yanına İranın tanınmış ruhaniləri göndərmişdilər. Görüşdüyümüz adamların kim olduğunu sonralar istintaq zamanı bilmişik. Bütün İran məni pak insan kimi tanıyır. Hətta dövlət rəhbərləri də ehtiramımı saxlayırlar. Biz bütün ittihamları rədd edirik. Bizi İsrailin və Amerikanın sifarişi ilə cəzalandırırlar, ümidimiz yalnız Allahadır».***

***Hacı Vaqif QASIMOV: - «Hələ istintaqın ilk günündən dəfələrlə sübut etmişəm ki, təqsirim yoxdur. Mənə qarşı irəli sürülən ittihamların hamısı böhtandır. Ola bilsin ki, bəzi məsələlərdə Azərbaycan qanunlarına əsasən səhvə yol vermişik. Bunun üçün üzr istəmişik. Mən özümü repressiya qurbanı hesab edirəm».***

***Hacı Hacıağa NURİYEV: - «İstintaq göstərdi ki, bu proses islama qarşı yönəldilmiş təcavüz, 37-ci ilin davamıdır! Bütün ittihamlar ədalətsizdir, sübutsuzdur, məntiqə sığmır. Məkkəmə daxildəki və xaricdəki bəzi qüvvələrin sifarişi ilə təşkil olunub. Vaxt gələr, tarix hər şeyi yoluna qoyar!».***

Bu, müttəhimlərin fikridir. Biz isə həmin vaxtın nə zaman gələcəyini gözləməyək, onu qabaqlayaq. Görəsən, istintaq materialları, arxiv sənədləri, axtarış zamanı ələ keçən materiallar, fotoşəkillər, şahid ifadələri nə deyir?

***

Azərbaycan İslam Partiyasının liderləri çoxdan idi ki, İranın xüsusi xidmət orqanlarının müşahidə obyektinə çevrilmişdilər. Çünki Hacı Əlikram da, Hacı Hacıağa da, Hacı Vaqif də Azərbaycanın sözükeçən xeyriyyəçi, nüfuzlu dindarlarından hesab olunurdular. Ədalət naminə deməliyik ki, xalq hərəkatında onların müəyyən xidmətləri olmuşdu. Lakin Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra yollar haçalandı, cənublu soydaşlarımızın hüquqlarının müdafiəsi barədə çağırışları AİP-in və havadarlarının məqsədləri ilə qətiyyən bir araya sığmırdı. Dinin dövlətdən ayrı salınması, eləcə də Azərbaycanda dünyəvi dövlət quruculuğu prosesi təbii ki, İrandakı inqilab ixracatçılarının ürəyincə deyildi. Bununla belə, onlar daim «islamçıları» nəzarət altında saxlayır, daha doğrusu, onların fəaliyyətini öz mənafelərinə uyğun istiqamətə yönəltməyə çalışırdılar. 1992-ci ildə Azərbaycan İslam Partiyası qeydiyyata alındıqdan sonra bu proses daha da sürətləndi. Əvvəla, AİP liderlərini «emal etməyə», beyinlərini iranpərəst paniran notunda kökləməyə o qədər də ehtiyac duyulmurdu. Onlar Allaha ürəkdən bağlı olsalar da, siyasi cəhətdən olduqca naşı, təcrübəsiz idilər.

1994-cü il yanvarın sonunda İranın imam Xomeyni adına «İmdad» Xeyriyyə Cəmiyyəti islam inqilabının ildönümü münasibətilə növbəti ziyarət səfəri təşkil etmişdi. AİP-in yüzdən çox üzvü də zəvvarlar arasında idi. Astaradan keçib Ərdəbilə gəldilər. Burada onların pişvazına şəhərin imamcüməsi Mürəvvic ağa çıxdı. Xoş-beşdən sonra ayətullah Azərbaycandan gəlmiş zəvvarlara bələdçilik etmək üçün Əhmədağa Əzimi adlı cavan bir oğlanı onlara təqdim etdi. Bildirdi ki, «innən belə sizin bütün problemlərinizi o həll edəcəkdir». Amma Əhmədağanın əsas diqqəti AİP-in liderlərində idi. Onlara xüsusi iltifat göstərir, bəzən xəlvəti söhbətlərə çəkirdi...

Belə söhbətlər zamanı hacıların mömin, lakin

siyasətdə tam naşı olduqlarını bir daha yəqin etdikdən sonra Əhmədağa birbaşa mətləb üstünə keçdi. Onları həm maddi, həm də mənəvi cəhətdən asılı vəziyyətə salmaq üçün beş min dollar çıxarıb Hacı Əlikrama verdi. AİP lideri təşəkkür etmək istəyəndə Əhmədağa razı olmadı: «Tələsməyin, təşəkkürü bizim böyüyümüzə edərsiniz» - dedi. Əhmədağanın böyüyü, bu toru quran şəxs isə Tehranda hacıların yolunu gözləyirdi.

Sonra zəvvarlar Təbrizə gəldilər. Burada şəhərin imamcüməsi Mələkhuti ilə görüşdülər. Mələkhuti də öz növbəsində, əvvəlki məqalədən oxuculara tanış olan Məhəmməd Rza Əsədbegini onlara qoşdu. Dedi ki, bu cavan mənim tərəfimdən Əhmədağa ilə birlikdə sizə kömək edəcək. Az keçməmiş Azərbaycandan gəlmiş zəvvarlar Məşhəd və Qum şəhərlərində olub, müqəddəs yerləri ziyarət etdilər. Bakıya qayıtmaq məqamı yetişəndə Əsədbegi və Əhmədağanın təklifi ilə Hacı Əlikram, Hacı Vaqif, Hacı Hacıağa və Hacı Mirhəsən Tehranda qalası oldular: «Bəzi mötəbər ruhanilərlə görüşməyiniz məsləhətdir».

Onları əsas dəstədən ayırıb Tehranın Şimran məntəqəsinə gətirdilər. Şəhərin kənarında olan bu qəsəbə sakitliyi, gediş-gəlişin azlığı ilə seçilirdi. Maşın kiçik bir həyətin darvazası qarşısında dayandı. Qapının önündə əlisilahlı hərbçilər dayanmışdılar. İçəri keçdilər. Evin ikinci mərtəbəsində onları geyimində heç bir fərqləndirici nişan olmayan hərbçi qarşıladı. Əhmədağa və Əsədbegi onu Azərbaycanın yaxın dostu... Hacı Mansur kimi təqdim etdilər...

Yəqin ki, oxucular general Hacı Mansur Həqiqətpuru tanıdılar. Azərbaycanda casusluqla məşğul olan «Cəlal» qrupunun ölkəyə yeridilməsinə rəhbərlik edən bu yüksək rütbəli zabit İranın ən səlahiyyətli xüsusi xidmət orqanı olan «Sepahepazdarane-enqolabi-eslami»nin aparıcı şəxslərindən biridir.

Generalın otağı olduqca sadə idi: Yazı masası, bir neçə stul və divan. Hacı Mansur əvvəlcə Azərbaycandakı

ictimai-siyasi vəziyyətdən söz açdı. Qonaqları sorğu-suala tutdu. Qəhvə gətirtdi. Söhbət qızışdı və yeni axara düşdü. General Azərbaycan İslam Partiyasının fəaliyyətini gücləndirmək üçün diaqramlar, struktur modeli çəkdi. Bir neçə saat çəkən «mühazirədən» sonra görüşün ən vacib anı yetişdi. Ortaya qələm-kağız gəldi. Əhmədağa Əzimi Hacı Mansurun diktəsi ilə farsca mətn yazdı. Sonra Hacı Vaqifə kiril əlifbası ilə Azərbaycan dilinə tərcüməsini köçürtdü. Məhkəmə prosesində həmin yazının mətni də mübahisə doğurdu. Müttəhimlərin hər biri israr edirdi ki, kağızda yalnız və yalnız Azərbaycan İslam Partiyasının fəaliyyətinin yaxşılaşdırılması, ona maddi yardım göstərilməsi barədə fikirlər yazılmışdı. Lakin əsl mətn bu idi: «Biz aşağıda imza edənlər: Hacı Əlikram, Hacı Vaqif, Hacı Hacıağa, Hacı Mirhəsən Azərbaycanda İslam Partiyasının genişlənməsi, islamiyyətin inkişaf etməsi, islami qanunların bərqərar olması və islami dövlət yaradılması naminə İran İslam Respublikasının «Sepahe-pazdaran» təşkilatı ilə könüllü əməkdaşlıq etməyə razılıq veririk». Sənədə Hacı Əlikram, Hacı Vaqif, Hacı Hacıağa və Hacı Mirhəsən qol çəkdilər. Beləliklə, onlar İranın nüfuzlu əks-kəşfiyyat orqanının əlində alətə - casusa çevrildilər...

Görüş başa çatdı. Onları dərhal Tehranın «Mərmər» hotelinə apardılar. Nədənsə, qonaqlar güclü mühafizə olunurdular. Hacıların binadan çölə çıxmasına, kənar adamların otaqlarına daxil olmasına icazə verilmirdi.

Ertəsi gün onları yenidən general Hacı Mansurun kabinetinə gətirdilər. Artıq aralarındakı şübhə buzu tamamilə ərimişdi. Bu görüşdə Hacı Mansur təzə casuslarına «dəyərli» tövsiyələrini verdi.

Bəri başdan deyək ki, həmin tövsiyələr yazılmış dəftər sonralar axtarış zamanı AİP qərargahında «Mansur müəllimin dedikləri» adı altında üzə çıxacaqdı.

General AİP liderlərinə Azərbaycanda kəşfiyyat şəbəkəsinin necə yaradılması, strukturu, fəaliyyət sahələri barədə «məsləhətlərini» vermişdi. Bu təlimatlara əsasən, hakimiyyətə gəldikdən sonra dövlətin idarə olunmasını asanlaşdırmaq üçün partiyadaxili struktur indidən İranın dövlət modeli üzərində qurulmuşdu: Ali dini şura, icra orqanları, təhsil, mədəniyyət şöbələri, siyasi şöbə və s. Bütün bunlar gələcəyin nazirlikləri, baş idarələri idi. Əsas diqqət siyasi şöbəyə yönəldilmişdi. Məhz onun vasitəsilə kəşfiyyat xarakterli məlumat – Azərbaycanın strateji imkanları, hərbi obyektləri barədə məxfi sənədlər toplanacaqdı. Hacı Mansur eyni zamanda təklif edirdi ki, rəssamlar, idmançılar, neftçilər müxtəlif yollarla həvəsləndirilib partiya sıralarına cəlb olunsunlar. Məqsəd kəşfiyyatçı kadrlar yetişdirmək idi. Rəssamların görmə yaddaşı, idmançıların fiziki hazırlıqları gələcək kəşfiyyat və terror aksiyaları üçün zəruri idi. Ələ alınmış neftçilər isə istənilən vaxt mədənlərdə, neftayırma müəssisələrindəki kəmərlərdə təxribat törədə bilərdilər.

Generalın bəzi «tövsiyələri» ilə siz də tanış olun:

- ***ABŞ və İsrail dövlətlərinə qarşı geniş təbliğat kampaniyası aparmaq, həmin ölkələrin Bakıdakı müştərək müəssisələrinin ləğv olunması üçün fəal iş görmək;***
- ***İslam Partiyasına hakimiyyətə gələrsə, görəcəyi işlər barədə indidən şüar və vədlər hazırlayıb yaymaq;***
- ***Qərblə neft müqaviləsini pisləmək;***
- ***Qafqaz Müsəlmanları Ruhani İdarəsi ilə dil tapmaq;***
- ***Nazirliklərə öz adamlarını yeritmək;***
- ***Təbliğat işində İranın təcrübəsindən faydalanmaq;***
- ***İnanılmış gənclərin ali məktəblərdə təhsilinə kömək etmək;***
- ***Siyasi partiyalarla əlaqə yaratmaq;***
- ***Azərbaycandakı milli azlıqlarla əməkdaşlıq üçün fəal iş görmək...***

Yeri gəlmişkən, AİP-in qərargahındakı kompüterdə «S-31» kod nömrəli proqram da üzə çıxarılmışdı. Həmin proqram gələcək islam hökumətini idarə etmək üçün tanınmayan və xüsusilə, dünyəvi hakimiyyəti tanımayan əvəzedici kadrlar hazırlanmasına həsr olunmuşdu. Başqa bir təlimata - «S-34» proqramına əsasən, nəzərdə tutulmuş «N» saatı çatanda özəl radio vasitəsilə efirə xüsusi siqnal verilməli, AİP üzvləri və təəssübkeşləri ayağa qalxmalı idilər...

Beləliklə, Azərbaycanı «şeytansifətlərdən» təmizləmək üçün İslam Partiyası liderləri «Sepah»ın əlində vasitəyə çevrildilər. Əhmədağa Əzimi tez-tez Bakıya zəng vurur, hacıları müxtəlif bəhanələrlə İrana çağırır, bu və ya digər yolla Hacı Mansurun tapşırıqlarını onlara ötürürdü. Neft müqaviləsində İrana pay ayrılmamasına etiraz əlaməti olaraq, aparılmış təbliğat kampaniyası da o taydan gələn sifarişlərdən biri idi. Hacı Əlikram məhkəmədə bunu belə izah etdi: «Qərblə müqavilə gözlənilmədən bağlandı. İran haqsız olaraq Azərbaycan neftindən məhrum edildi.



***Bu şəkil İranda növbəti təlimat alınarkən çəkilib. Soldan: Əhmədi - «Senah»ın Qum şəhərindəki «dini» kursların rəhbəri, AİP-in lideri Hacı Əlikram Əliyev və Məcidi - «Sepah»ın Ərdəbil şöbəsinin əməkdaşı***

Halbuki neftin 30 faizi İrana çatmalıdır. (!) Hakim Ənvər Seyidovun «Nə üçün neftdən məhz İrana pay verilməlidir?» sualına Hacı Əlikram cavab vermədi. Susdu. Sonra isə əlini yellədi: «Gəl, bu məsələnin üstündən keç!» - dedi.

Azərbaycanda parlament seçkiləri yaxınlaşırdı. Deyəsən, «Sepah» da AİP vasitəsilə öz namizədlərini təklif etmək fikrinə düşmüşdü. Görəsən, bu namizədlər seçildikdən sonra kimə xidmət edəcəkdilər? Təbii ki, yalnız «Sepah»a! «Mansur müəllimin tövsiyələrində» bunun da cavabı var: «...İqtidara qarşı həmişə müxalifətdə olmalısınız. Böyük manevrə hazırlaşmalısınız. Nəzərdə tutulmuş vaxt gələndə radio ilə xüsusi siqnal verməlisiniz».

İran İslam Respublikasının Bakıdakı səfirliyinin əməkdaşı Əli Əkbər Bavəndi ilə AİP liderlərini möhkəm dostluq telləri bağlayırdı. Ağayi Bavəndi «geniş profilli» diplomat, eyni zamanda İranın İnformasiya və Təhlükəsizlik Nazirliyinin («Ettelaat»ın) Bakıdakı rezidenti idi. Səfirlikdəki görüşlərin birində Bavəndi Hacı Əlikramı kənara çəkdi. Qısa söhbətdən sonra «Ettelaat»la əməkdaşlığa dəvət etdi. İnsafən, Hacı əvvəlcə razı olmadı: «Bizim «Sepah»la danışığımız var» - dedi. Bavəndi mənalı-mənalı gülümsədi, cibindən Hacıların Tehranda, Hacı Mansurun yanında imzaladıqları iltizamnamənin surətini çıxartdı. Və nəticədə Azərbaycan İslam Partiyasının xidmətindən innən belə «Ettelaat» da istifadə etməyə başladı. Bavəndinin sifarişi ilə AİP fəaliyyətini Azərbaycanın daxili və xarici siyasətinin tənqidi üzərində qurmuşdu. Nə qədər acınacaqlı olsa da, partiya indiyədək İranın Ermənistana hərbi-iqtisadi yardım göstərməsinə öz münasibətini bildirməmişdi...

1996-cı il 27 fevral. «Sepah»ın sifarişi və İran səfirliyi əməkdaşlarının yaxından iştirakı ilə Təzəpir məscidində «Qüds günü» münasibətilə növbəti mitinq keçirildi.

Beytül-müqəddəsin İsrail tərəfindən işğalına həsr olunmuş bu tədbirdə alovlu çıxışlar səsləndi, İsrailin bayrağı yandırıldı. Lakin işğal altında olan Azərbaycan torpaqları barədə bir kəlmə də deyilmədi. Sonra Hacı Əlikram danışdı. Nitqini bu sözlərlə başa vurdu: «Azərbaycanda din əldən gedir, ölkəni böhran bürüyür. Elə etməsinlər ki, camaatı ayağa qaldıraq!...».

Həmin il Əhmədağa Əzimi casusların gördüyü işin təftişi üçün qaçaq yolla Azərbaycana gəldi. Artıq onun kimliyi hacılara da sirr deyildi. «Sepah»ın Ərdəbil şəhər şöbəsinin əməkdaşı Hacı Əlikramın evində qonaq oldu. AİP lideri görülən işlər barədə ətraflı danışdı. Hesabat Əhmədağanı qane etdi. Yeri gəlmişkən, burada da bir haşiyə çıxmaq lazımdır: Hacı Əlikram Əliyev İranın dini rəhbəri ayətulla Seyid Əli Xameneyinin başçılıq etdiyi Beynəlxalq «Əhli-Beyt» Cəmiyyətinin Azərbaycandan seçilmiş yeganə üzvüdür. Onun üzvləri islam dünyasında pak insan sayıldıqlarına görə fəaliyyətlərində heç kəsə hesabat verməməlidirlər. Əgər belədirsə, Hacı Əlikramın İranın kiçik rütbəli zabitinə verdiyi hesabata nə ad vermək olar?

Əslinə qalsa, sərhədi gizli keçən Əhmədağanı AİP-in gördüyü işlər o qədər də maraqlandırmırdı. Hacı Vaqif onu Qubaya apardı. Sonra Hacı Hacıağaya qoşulub Ağcabədiyə getdi. Nə qaçqınlarla görüşdü, nə də məsciddə oldu. Əhmədağa ön cəbhədə Azərbaycan Ordusunun müdafiə sisteminə böyük maraq göstərirdi.

Hacı Mansur AİP liderlərinə işlərində ehtiyatlı olmağı tapşırırdı: «Hara gəldi İran rəhbərinin portretini asmayın! Bizim yaxınlığımızdan şübhələnə bilərlər». Az sonra «Sepah»ın sxemi üzrə Azərbaycan İslam Partiyasının Bakı və rayon komitələri yaradıldı. Oradakı siyasi şöbələr «Sepah»ın xaricdəki informasiya bölmələri funksiyasını daşıyırdı. Əsasən rayondakı hərbi təyinatlı obyektlər, hərbi hissələr, təcridxanalar, polis işçilərinin sayı,

hərbi aerodromlar, xüsusi təyinatlı məhsul istehsal edən müəssisələr barədə məlumat toplanır, məxfi topoqrafik xəritələr əldə olunurdu. Məhkəmə zamanı şahid sifəti ilə dindirilən rayon komitələrinin rəhbərləri də bunu etiraf etdilər. Aralarında bu işə qol qoymaq istəməyənlər də vardı. Amma beləlləri azlıqda idilər. Hətta məxfi məlumatların əldə edilməsində rəsmi mənbələr – icra hakimiyyəti nümayəndələri, idarə rəhbərləri də cani-dildən kömək göstərirdilər. Məsələn, Yasamal Rayon Statistika İdarəsinin rəisi Rza Rzayev şəxsən özü rayonun statistik pasportunu AİP üzvlərinin qarşısına qoymuşdu: «Buyurun istədiyiniz məlumatı seçib götürə bilərsiniz!». Sabunçu Rayon İcra Hakimiyyəti Aparatının məsul işçiləri isə ərazi xəritəsini İslam Partiyasına hədiyyə etmişdilər. Həmin xəritə az sonra İrana göndərilmişdi...

Proses zamanı prokuror Bəhram Zahidov hisslərini gizlədə bilmədi: «Millət üçün bundan böyük faciə ola bilməz! Azərbaycanı məhv etmək naminə casusluğa cəlb olunan da, cəlb edən də bu xalqın övladlarıdır!" Amma müttəhimlər İranın kəşfiyyat orqanına xidmət etdiklərini boyunlarına almaq istəmirdilər: Biz vətənə xəyanət etməmişik, Allahın hökmü ilə deyil, demokratik qanunlara görə cinayətkarıq". Hətta Hacı Vaqif iradını da bildirdi: "Biz İranda görüşdüyünüz adamları həqiqətən ruhani zənn etmişik. Axı, bizi onların yanına din xadimləri göndərib. Azərbaycan hökumətinin onların kimliyi barədə məlumatı var idisə, gərək bizə xəbərdarlıq edəydi. Ağıl verənimiz olmayıb”...

Lakin Hacının az sonra verdiyi ifadə bu “etirafı” alt-üst etdi. Məhkəmənin ilk günü ittihamnaməni “böhtan” adlandıran və hakimin seyid cəddinə and içib yalnız həqiqəti danışacağına söz verən Hacı Vaqif sonra bildirdi ki, AİP-in ideoloji rəhbəri kimi partiyanın fəaliyyətini özü tənzimləyirdi: “Hacı Mansurla görüşümüzü qanunsuz

sayıram, hüquqi baxımdan savadsız olduğumuz üçün sayıqlıq göstərməmişik”.

Bununla belə, digər müttəhimlər kimi Hacı Vaqif də ehtiyat edirdi. Bu xof təkcə ədalət məhkəməsinin çıxaracağı hökmdən irəli gəlmirdi. Prosesin ilk günlərində özlərini tamamilə təqsirsiz sayan müttəhimlər get-gedə sübutlar, şahidlərin ifadələri qarşısında aciz qalsalar da, ailələrinə, övladlarına bağlı olan bu adamlar «Sepah»ın nəyə qadir olduğunu yaxşı bilirdilər. Onlar hökmdən, cəzadan yox, yaxınlarının təhlükəsizliyi sarıdan narahat idilər! Əvvəlcə ifadəsində “Hacı Mansur kimdir ki, ondan məsləhət alım. Mən ondan da zirək adamam!”- deyən Hacı Vaqif az sonra təəssüflə əlavə etdi: «Hələ1995-ci ilin axırlarında İranda görüşdüyüm adamların ruhani deyil, hərbi təşkilatın nümayəndələri olduğunu və bizi qeyri-islami yola çəkdiklərini hiss etmişdim». Lakin gec idi. «Sepah» tələnin qapılarını möhkəm bağlamışdı. Hacı Mirhəsən Cəfərov isə ifadəsini bu sözlərlə bitirdi. «Onlar bizi cinayətə sürükləyirdilər!...».

Məhkəmədə hakimin «Nə üçün İranın Ermənistana hərbi yardımını pisləmirdiniz?» sualını müttəhimlərin dördü də cavabsız buraxdı. Bu belə də olmalı idi, çünki 1993-cü ildə Bakıda rabitə seansı keçirərkən yaxalanmış İran casuslarının - «Cəlal» qrupunun yaşadığı mənzildə axtarış apararkən aşkar olunmuş cib dəftərçəsində kimə nə qədər «maddi yardım» edildiyi də yazılmışdı. Yeri gəlmişkən, Hacı Vaqif və Hacı Hacıağa hələ o vaxt ifadə vermək üçün prokurorluğa çağırılmışdılar. Onlar şəkillərdə İran kəşfiyyatçısı Məhəmməd Rza Əsədbegini tanımışdılar. Dəfələrlə məsciddə görmüşdülər. Hətta Hacılara xəbərdarlıq da edildi ki, ehtiyatlı olsunlar, bu adam İranın xüsusi xidmət orqanının əməkdaşıdır. O ki qaldı Hacı Mansur Həqiqətpura, 1992-ci ilin əvvəllərində İranın Azərbaycandakı sabiq səfiri Əli Əsğər Nəhavəndian şəx-

sən generalı Hacı Əlikramla tanış etmiş və İranın ali rütbəli zabiti olduğunu demişdi...

Məhkəmə prosesi zamanı müttəhimlərin ifadələrində bəzi qaranlıq məqamlar ortaya çıxırdı. Lakin məsələyə aydınlıq gətirmək üçün hakimin verdiyi sualları ya cavabsız buraxırlar, ya da mövzudan yayınırdılar.

«- General Hacı Mansurun otağında imzalanmış iltizamnaməni «AİP-in inkişafına dair müqavilə» adlandırırsınız. Əgər müqavilədirsə, nə üçün İran tərəfi həmin sənədə qol çəkməyib?»

«- Sözünüzdən belə çıxır ki, Azərbaycanda dinin inkişafı general Hacı Mansurun kabinetindən başlanır. Azərbaycanda islamın təbliği məqsədilə İranın şübhəli ruhaniləri ilə əməkdaşlıq etmək nə dərəcədə düzgündür?»

«- Siz Heydər Əliyevin hakimiyyətə gəlməsinə sevindiyinizi, onun siyasətini dəstəklədiyinizi, respublikada islam dininin təbliğinə hər cür şərait yaratdığını deyirsiniz. Elə isə, ona kömək etmək əvəzinə, nə üçün dövlətə arxadan zərbə vurmağa can atırdınız?»

İrandan alınmış təlimatlardan birinə əsasən, Azərbaycan İslam Partiyası respublika ərazisində müxtəlif terror aksiyaları üçün silahlı dəstələr də yaratmalı idi. Cavab yox idi. Müttəhimlər sözü bir yerə qoyublarmış kimi susurdular... Guya həmin yaraqlıların Qarabağ müharibəsi üçün hazırlandığını təkidlə söyləsələr də, fakt göz qabağında idi: İranda təlim görmüş cavanların heç biri döyüş bölgələrinə getməmiş, əksinə, pulgir hərbi komissarlıq işçilərinin köməyi ilə buğa kimi sağlam pəzəvənglərə hərbi xidmətə tam yararsız olmaları haqqında saxta arayışlar verilmişdi. Hacı Mansurun əmrinə müntəzir olan bu gəncləri seçib-tapmaq müşkül məsələ deyildi. İlk növbədə orduda xidmət etməkdən yayınanlar, fərarilər bu dəstələrə cəlb olunurdular. Əksəriyyəti saxta sənədlər vasitəsilə və ya qaçaq yolla İranın Qum və Təbriz

şəhərlərindəki xüsusi kəşfiyyat məktəblərinə göndərilirdi. Onlara odlu silah işlətməkdən savayı, müstəqil və dünyəvi Azərbaycana nifrət hissi təlqin olunurdu. Belə cavanlar üçün «Vətən» anlayışı yox idi. Təsadüfi deyildir ki, istintaq zamanı dindirilənlərin bir çoxu Azərbaycanın rayonlarının ermənilər tərəfindən işğal olunduğunu bilmirdilər. Dəqiq məlumatlara görə, indiyə qədər yüzlərcə gənc İranda belə təlim görmüşdü, qısası, bir neçə tabur (!) yaraqlı manqurt hazırlanmışdı. Məktəbdə dini məşqləri də «Sepah»ın yüksək rütbəli zabitləri aparırdılar. Qəribə haldır ki, AİP liderləri yaxalananadək nə hüquq-mühafizə orqanları, nə də hərbi komissarlıqlar nədənsə bu cavanlarla maraqlanmamışdılar...

***

Belə bir sual ortaya çıxır: Azərbaycan və İranın müvafiq nazirlikləri arasında tələbə mübadiləsi haqqında müqavilə imzalanıb. Elə isə, nə üçün «tələbə qəbulu» barədə elanı «gördüm» deyən olmayıb? Görəsən, hansı səbəb üzündən azərbaycanlı tələbələrin seçilməsi İran səfirliyinə həvalə edilib? Hətta müttəhim Mirhəsən Cəfərov onu da bildirdi ki, Bakıdakı «imtahanlara» Qum şəhərindən xüsusi «müəllimlər» də dəvət olunmuşdular. Lakin son «tələbə mübadiləsi» uğursuz oldu. Gənclər sərhədi keçməyə cəhd edərkən Astarada yaxalandılar.

Sabiq məhbus, «İmam Hüseyn» adına idman klubunun sədri Əbdülbağı Əliyevin istintaqda və məhkəmədə verdiyi ifadə bəzi qaranlıq mətləblərin üstünə işıq saldı. İrana göndərilən uşaqların sərhədi keçmələri üçün sanballı bəhanə lazım idi. Çünki çağırış yaşlı uşaqlara xarici pasport verilməsinə, xarici ölkələrə səfərə çıxmasına məhdudiyyətlər qoyulmuşdu. Əbdülbağının dediyinə görə, AİP-in işçisi, mərhum Hacı Kəblağa bu məsələni həll etməyi boynuna çəkmişdi. Əvvəlcə Qafqaz Müsəl-

manları Ruhani İdarəsinə gedib oranın əməkdaşı Həmdulla Babayevlə görüşdü. Razılaşdılar. Hətta onu da dedi ki, pasportların qanunsuz, yəni rüşvət yolu ilə alınması üçün İran səfirliyi 4000 dollar sərf edib! Lakin təəssüf ki, Hacı Kəblağanın ölümündən sonra bu faktı sübut etmək mümkün olmadı. Qısası, Həmdulla 18 tələbəyə pasport almaq üçün respublika Pasport və Viza Qeydiyyatı İdarəsinə getdi. Orada Kamal Həsənovla dil tapdı. Kamal ürək açıqlığı ilə izah etdi ki, bu, çox müşkül məsələdir. Lakin əgər uşaqlar İrana «tələbə» adı ilə getsələr, yəqin ki, onlara pasport düzəltmək daha asan olar.

Həmdulla sevincək geri qayıdıb Qafqaz İslam Universitetinin boş blankını əldə etdi. Respublika Hərbi Komissarlığına məktub yazdı. Məktubda bildirilirdi ki, guya Qafqaz İslam Universitetinin 18 tələbəsi İrandakı müqəddəs yerlərə ziyarətə yollanmalıdır. Sonra şeyx həzrətlərinin müavini Hacı Salmanın saxta imzasını qoydu. Bir azdan Kamal vədələşdikləri kimi sürücüsünü Həmdullanın yanına göndərdi. Məktub Respublika Hərbi Komissarlığına çatdırıldı və pasport işi də beləcə düzəldi...

İranda hərbi təlim, ideoloji təxribat metodlarını öyrənmiş gənclər barədə nifrətsiz danışmaq olmur. Öz Vətənini təhlükə qarşısında qoyub, başqa məmləkətin mənafeyinə qulluq edənlərə nə ad verəsən?! Onlardan cəmi bir neçəsi ilə - məhkəmədə şahid kimi dindirilənlərlə sizi tanış edirik:

***Mədəd ABDULLAYEV: «İranda, Qum şəhərində təhsil almışam. Orada rəhbərimiz hazırda Bakıdakı İran Mədəniyyət Mərkəzinin sədri işləyən ağayi Ocaq-Nicati idi. Məni mədrəsəyə Ərdəbil şəhərinin imamcüməsi Mürəvvic ağa göndərmişdi. Mədrəsədə təhsil alanların hamısı azərbaycanlı idi. Bizə ləqəb verirdilər. Odur ki, İranda məni «Süleyman Abbasi» kimi tanıyırdılar. Şəhərdə sərbəst gəzə bilmirdik. Bəzən isə günlərlə***

*mədrəsədən kənara buraxmırdılar: «Azərbaycandan gələn var, gərək sizi görməsinlər!» Urmiya yaxınlığındakı hərbi düşərgədə rus silahlarından atəş açmağı öyrədirdilər. 1995-ci ildə Hacı Əlikramgil mədrəsəyə gəldilər. Azərbaycanlı tələbələri yığdılar: «Biz orada sizin üçün çalışırıq. Bir gün gələr, dövlət istəsə, gərək Azərbaycanı idarə etməyə qüdrətimiz olsun!» Cəlilabadda İsgəndər adlı tələbə vardı. Ləqəbi «İsmayıl» idi. Bizə o başçılıq edirdi. Azərbaycana qənim kəsilmişdi. Bir gün dedi ki, təcili şəhər məscidinə yığışmalıyıq. Çünki Azərbaycanda qanun çıxarıb dinimizi qadağan ediblər (Konstitusiyamıza əsasən, din dövlətdən ayrıdır - müəllif). Nümayişə çıxmalı idik. Mən və daha iyirmi nəfər gənc etirazımızı bildirdik. Qalanları müəllim və polislərin iştirakı ilə nümayişə çıxdılar. Əllərində Amerika, İsrail və Azərbaycan əleyhinə şüarlar vardı. Məsciddə onlar üçün ayrıca bir yer saxlamışdılar. Əvvəlcə imamcümə ağayi Meşkini çıxış etdi. Son sözü bu oldu: «Biz Azərbaycanın bu qanununu rədd edirik!» Sonra məsciddəkilər etiraz bəyanatı imzalayıb, onu Seyid Əli Xameneyiyə göndərdilər.*

*Mədrəsədə dərsləri Tehrandan gəlmiş müəllimlər deyirdilər. Azərbaycan haqqında həqarətlə danışırdılar. Hətta onu da deyirdilər ki, Dərbəndə kimi bütün torpaqlar İrana məxsusdur! «İsgəndər» və onun kimilər isə daim onların sözlərinə qüvvət verirdilər. Belə söhbətlərin üstündə mübahisəm də olurdu. Az sonra məni mədrəsə rəhbərliyi çağırdı: «Sən nə nümayişə çıxırsan, nə də müəllimlərinə «ləbbeyk» deyirsən, qayıt Azərbaycana, mollalığını elə!» Azərbaycana dönməzdən əvvəl məni «Ettelaat»ın Qumdakı idarəsinə gətirdilər. Gözlərimi bağlamışdılar.*



*Qum şəhəri, 1994-cü il. AİP tərəfindən İrana göndərilmiş gənclərlə sohbət aparılır. Dairənin içərisində sağdan: «Sepah»ın Ərdəbil şöbəsinin rəisi Əhmədağa Əzimi,həmin şöbənin əməkdaşı Feyzi və kursların rəhbəri Əhmədi*

***Dindirəni səsindən tanıdım. Polkovnik Seyid Hatəmi idi. Mədrəsəyə tez-tez gələrdi. Azərbaycan əleyhinə danışanlardan biri də o idi. Yeri gəlmişkən, «Sepah»ın generalı Zülnur da mədrəsənin daimi qonağı olurdu. Seyid Hatəmi məni əməkdaşlıq etməyə, Azərbaycanda İranın dövlət quruluşunu, rəhbərlərini təbliğ etməyə çağırdı. Cavabım bu oldu ki, ruhaniyəm, Allahı da, Vətənimi də sevirəm! Naəlac qalıb məni sərhədəcən gətirib gizli yolla bu taya ötürdülər. Pasportum hələ Qumda olarkən otaqdan yox olmuşdu. Dedilər ki, «Səni İrandan ona görə çıxarırıq ki, bizim kimi düşünmürsən». Allah göstərməsin ki, bizim məmləkətə İran rəhbərlik etsin!»***

***Rövşən SƏFƏROV: «Qaçaq yolla İrana keçmişəm.***

*Dini təhsil almaq istəyirdim. Məni Qum şəhərinə gətirdilər, «Əli Kazimi» ləqəbini verdilər. Hacı Əlikramı yaxşı tanıyıram. Mədrəsəyə yanımıza gəlmişdi. Dedi ki, «Xalq sizi gözləyir. Gəlib hökumət quracaqsınız».*

*Taleh HÜSEYNOV: «1993-cü ildə Rövşən Səfərovla qaçaq yolla Yardımlıdan İrana keçdik. O tay Biləsuvarın imamcüməsi Abdulla Şəfi bizi hərbçilərin yanına göndərdi. Quma gətirdilər. Mənə «Mehdi Hüseyni» ləqəbini verdilər. Əsas rəhbərimiz «İsmayıl» ləqəbli İsgəndər idi. Azərbaycan İslam Partiyasının qeydiyyatdan keçməməsi xəbərini də o gətirdi. «Böyüklərimiz əmr edirlər ki, nümayiş keçirək» - dedi. Orada Azərbaycan əleyhinə təbliğat çox güclü idi. Ermənistanın ziddinə söz demək, az qala yasaq olunmuşdu. Bir dəfə bizi Tehrana apardılar. Xarici İşlər Nazirliyində Musəvi adlı bir məmur dedi ki, Ermənistanla yaxın əlaqələrimiz var, amma Azərbaycanla dostuq (?). Qumda inandıqları uşaqlara pul verib, yenidən Azərbaycana göndərirdilər ki, mədrəsəyə tələbə gətirsinlər».*

*Məhkəmə prosesində təkcə ideoloji təbliğatçılar deyil, İranda hərbi hazırlıq görmüş üzüdönük cavanlar da ifadə verdilər.*

*Abid MƏMMƏDOV (ləqəbi «Məhəmməd Abidi»): «1993-cü ildə Qafqaz İslam Universitetində oxuyurdum. Bir gün tələbə yoldaşım dedi ki, İrana uşaqlar gedirlər. Mən də qoşuldum. Cəlilabada yığışdıq. Məsciddə iki nəfər bizə yaxınlaşdı. Bir evə gətirdilər. Gecəyarı İrana ötürdülər. O tayda bizi gözləyirdilər. Avtobusa əyləşib Təbriz yaxınlığındakı Azərşəhr qəsəbəsinə - hərbi düşərgəyə gətirdilər. Orada əlbəyaxa döyüşü, müxtəlif silahlardan atəş açmağı, adam güdməyi, izlənmədən yayınmağı, partlayıcı maddələrlə davranmağı, topoqrafiyanı, kəşfiyyat aparma-*

***ğı öyrədirdilər. Az sonra yenidən gizli yolla Azərbaycana qaytardılar. Tapşırdılar: «Burada təhsil almağınız barədə heç kəsə danışmayın. Vaxt gələndə özümüz sizi tapacağıq». «Sepah»ın Ərdəbil üzrə nümayəndəsi Əhmədağa Əzimini ilk dəfə Qum şəhərində görmüşəm. Mən Göyçaya qayıtdıqdan sonra isə Hacıağa ilə birlikdə yanıma gəlmişdi».***

***Elmar ƏSƏDOV (ləqəbi «Kərim»): «İranda oxumaq istəyirdim. Uşaqlara qoşulub Cəlilabada gəldim. Sərhədi keçib Azərşəhr qəsəbəsinə gəldik. Ertəsi gün bir zabit bizə yaxınlaşdı. «Sizin buraya gəlişiniz Rəhim Qazıyev ilə razılaşdırılıb».***

***Oktay NƏZƏROV: (ləqəbi «Hürr»dür, yaraqlıların toplanmasında əsas fiqurdur): «Xocalı faciəsindən sonra qəzəblənib dini təhsil almaq üçün (!) İrana getmişəm. Özümlə 30 nəfər gənc də aparmışdım. Əsas təşkilatımız Seyid adlı İran vətəndaşı idi. Onunla Cəlilabad məscidində görüşürdük. Azərşəhrdə müəllimlərimiz Rəşidi, Mösi, İmami adlı zabitlər idi. Müəllimləri xəlvətdə «Sepah» deyə çağırırdılar».***

Prokurorun «Hərbi təlim aldıqdan sonra nə üçün Qarabağa, döyüşməyə getmədin?» sualına «Hürr» qəribə bir cavab verdi: «Orduda hərc-mərclik olduğuna görə etiraz etdim». Sonra da etiraf etdi: «İranda bizi özləri üçün kəşfiyyatçı hazırlayırdılar».

Məhkəmədə şahid kimi dindirilən iki məhbus isə əvvəlcə Azərbaycana, sonra isə İrana xəyanət etmişdi. Əsəd Rəhimov və Elşad adlı birisi Azərşəhrdə hərbi təlim keçdikdən sonra Bakıya qayıtmış və ilk növbədə İmam Xomeyni adına «İmdad» Xeyriyyə Cəmiyyətinin Bakıdakı ofisini yararaq 48 min dollar götürmüşdülər. Bərəkallah, ay «Sepah», əcəb yaxşı dərs vermisən!

Başqa bir şahid Ələkbər Rəsulov da Qum şəhərində üç ay «dini təhsil» alıb. Onun oxuduğu mədrəsə digər-

lərindən fərqlənirdi. Qarşısında lövhə yox idi. «Tələbələri icazəsiz və müşayiətsiz heç yerə buraxmırdılar. Azərbaycanlı gənclərə bir-biri haqqında çuğulluq etməyi tapşırmışdılar». Mədrəsənin ünvanı da yox idi. Evdən məktubları «səhra poçtu» ilə ala bilirdilər. Hakimin «Dini təhsil almağınız barədə sizə sənəd verdilərmi?» - sualına belə cavab verdi: «Xeyr, əksinə, tapşırdılar ki, burada oxuduğumuzu heç kəsə deməyək».

Məhkəmə prosesi zamanı müttəhimlərin hüquqlarının pozulması barədə əsassız şayiələr yayılırdı. Bu şayiələr yalnız bir məqsəd güdürdü. Guya hacılar və şahidlər məhkəmədə yalnız təzyiq nəticəsində ifadə vermişdilər. Halbuki bu, həqiqətə uyğun deyildi. Məhkəmənin ilk günündən sonunadək prosesdə iştirak etmiş jurnalist kimi deyirəm: həm müttəhimlərə münasibətdə, həm vəkillər üçün əlverişli şərait yaradılmasında heç bir məhdudiyyət qoyulmamışdı. Lakin bu məhdudiyyəti arzu edənlər çox idi...

AİP-in Nizami rayon komitəsinin sədri Kərbəlayı Rafiq Sultanov salona şahid kimi gəlsə də, davranışında, danışığında açıq-aşkar qərəz və qabaqcadan təlimat aldığı hiss olunurdu. Hakimin «İstintaqda ifadə verərkən sizə təzyiq göstərilibmi?» sualına qeyzlə cavab verdi: «Mənəvi təzyiq olmayıb. Ancaq hüquqlarımı pozublar. Cavan uşaq (müstəntiqi nəzərdə tutur - müəllif) utanmadan atası yaşda ağsaqqalı dindirir! Biz nə casus, nə də xainik. Hacılar sionistlərin və Amerikanın təkidi ilə (?) burada oturublar. Məhkəmədən məqsəd İrana qarşı xof yaratmaqdır!» Kərbəlayı Rafiq atəşin çıxışından sonra ifadə verməyə başladı. Məlum oldu ki, o da AİP-in tapşırığı ilə Bakı ərazisində yerləşən strateji əhəmiyyətli obyektlər barədə məlumat toplamaqla məşğul olub. Prokurorun «Bunu nə məqsədlə edirdiniz?» sualına lap köhnə kommunist kimi cavab verdi: «Partiya tapşırmışdı,

biz də edirdik». Şahid get-gedə qızışırdı. Sonra dedi ki, buraya həm də «AİP liderlərinin Hüquqlarının Müdafiə Komitəsi» adından gəlib və məhkəməyə müraciəti var. Müraciətinin məğzi bu idi ki, məhkəmə İrana, islama qarşı yönəldilmiş siyasi oyundur. Müttəhimlərin hüquqları pozulur, onlara özlərini müdafiə etmək imkanı verilmir. Sonra da üzünü Hacılara tutdu: «Tələb edin ki, bu ədalətsiz məhkəməni dayandırsınlar, vəkilləri təcili olaraq dəyişdirin!» Rafiq Sultanovun hay-küy salması hətta müttəhimlər üçün də gözlənilməz oldu. Əsəbi vəziyyət yarandı. Kərbəlayının öz monoloqunu qışqıraraq deməsinin səbəbi isə aydın idi: Pəncərənin altına toplaşan sifarişçilər onun alovlu nitqini eşitməli idilər.

Prokuror ayağa qalxdı. Məhkəmə iştirakçılarına böhtan atdığına görə Kərbəlayi barədə cinayət işi qaldıracağı haqqında xəbərdarlıq etdi. Lakin diqqət edin, «Hüquqları pozulmuş müttəhimlərin» xahişi ilə o, fikrindən daşındı! Vəkil Arif Nəcəfbəyli isə bildirdi ki, Rafiq Sultanov dəfələrlə onun yanına gəlmiş, təkid etmişdi ki, Keşlə məscidində dindarlarla görüşsün, guya hacıların hüquqlarının pozulması və məhkəmənin işə ədalətsiz baxması barədə jurnalistlərə müsahibələr versin. Vəkil bu təklifin qanuna zidd olduğunu ona başa saldıqda, Kərbəlayı onu Hacılara qarşı düşmənçilikdə ittiham etmişdi.

«Hacıların Hüquqlarını Müdafiə Komitəsinin» bəyanatı əbəs yerə yaranmamışdı. Bir neçə gün əvvəl «ANS» televiziyasının «Xəbərçi» proqramında qısa müsahibə verən Hacı Əlikram Əliyev bildirmişdi ki, proses zamanı onlara heç bir təzyiq göstərilmir. Bu isə hacıları «islam uğrunda mübarizənin qurbanları» görmək istəyən qüvvələri, o cümlədən siyasətdə naşı olan bu dindarların müttəhimlər kürsüsündə əyləşməsinə bais olmuş «Sepah»ı qətiyyən qane etmirdi. «Casus» ifadəsinin «şəhid», «qurban» kəlmələri ilə əvəz olunması fikir yayındırmaq üçün çox sərfəli idi.

O ki qaldı «müdafiə komitəsinə», sonra o da fəaliyyətini «dondurdu». Kərbəlayı Rafiqin çıxışından bir neçə gün keçmiş Ali Məhkəmənin üzvü Ənvər Seyidovun ünvanına komitənin sədri Hacı Mehdi Şamilovun izahatı daxil oldu. İzahatda deyilir: «Məhkəmə prosesinin gedişində müdafiə komitəsinin bəzi üzvləri şahid qismində iştirak etmişlər. Həmin dövrdə həbsdə olan Hacıların verdikləri ifadələr əsasında məhkəmə prosesinə heç bir təzyiq və təsir göstərilməməsini bəyan etdikdən sonra müdafiə komitəsi fəaliyyətini dayandırmış, mən isə sədrlikdən istefa vermişəm».

Lakin, deyəsən, Hacı Mehdinin bəyanatı «sifarişçilərin» ürəyincə olmamışdı. Odur ki, az sonra mövqeyini dəyişdi və tamamilə başqa havanı zümzümə etməyə başladı. «Yeni Müsavat» qəzetinin 1997-ci il 10-12 iyun tarixli nömrəsində, daha doğrusu məhkəmə öz hökmünü elan etdikdən dərhal sonra AİP-in müvəqqəti Ali Şurasının səlahiyyətli nümayəndəsi olan Hacı Mehdi Şamilovun cəfəng müsahibəsi dərc olunmuşdu. Müsahibəsində AİP liderlərinin İranın xüsusi xidmət orqanları ilə əməkdaşlığını böhtan adlandıraraq, hakimin səlahiyyətlərini boynuna götürür: «Mən ittiham sənədləri ilə tanışam, heç bir sübut yoxdur» - deyir.

Hacı, siz məhkəmədə yalnız bir neçə saat olmusunuz. Məhkəmə qapalı keçsə də, sizdən fərqli olaraq, mən bütün prosesdə iştirak edib qeydlərimi götürmüşəm. Gizlətmirəm, ilk vaxtlar mən də hacıların günahsız olduğunu zənn edirdim. Lakin onların və şahidlərin ifadələri bu gümanımı alt-üst etdi. Sizi yaxşı başa düşürəm. Mövqeyiniz AİP-in mənafeyini qorumaqdan deyil, İranın təəssübünü çəkməkdən doğur. Sübut göz qabağındadır: Deyirsiniz ki, Hacı Əlikramın İran kəşfiyyatının nümayəndələri ilə bir birgə çəkilmiş şəkli yalandır və guya onlar hərbçi deyil, tamamilə mülki adamlardır. Halbuki Hacı

Əlikram həm istintaqda, həm də məhkəmədə onların «Sepah» nümayəndəsi olduğunu etiraf edib. Elə isə, sizin «Sepah»ı müdafiə etməyiniz «torbada pişik gizlədilməsindən» irəli gəlmirmi? Təsdiq edirsiniz ki, bəli AİP lideri Zirə aeroportunun xəritəsini İrana verib və guya bunun Azərbaycana heç bir ziyanı yoxdur. Əvvəla aeroportun «xəritəsi» deyil, planı olur. İkincisi İrana verilən xəritədə Sabunçu rayonunun bütün hərbi və mülki obyektləri, strateji yüksəklikləri, yeraltı və yerüstü kommunikasiya şəbəkələri də dəqiq göstərilib. Sual edirəm, bu xəritə İranın nəyinə gərəkdir? Yoxsa Tehranda «ibadət» üçün istifadə edəcəkdilər? Siz «ziyarət» adı altında çağırış yaşlı cavanların İrana göndərilməsini guya onların «Quran kurslarında» oxumaq istəyi ilə əlaqələndirirsiniz. Əgər belədirsə, nə üçün bunu gizli qaydada həyata keçirirdiniz? İkincisi, məgər Bakıda Qurani-Kərimi öyrədən kurslar yoxdurmu? Üstəlik, müsahibə verdiyiniz qəzetin təsisçilərinin könlü xoş olsun deyə, əlavə edirsiniz: «Mən əminəm ki, bizim nəsil Vahid Azərbaycanda yaşayacaq!» Maşallah! Axı özünüz də yaxşı bilirsiniz ki, «ayının yüz oyunu bir armudun üstündədir». İranın müəyyən dairələrinin Azərbaycanda altdan-altdan gördüyü bütün işlər məhz bu müqəddəs məqsədin gerçəkləşdirilməməsinə yönəldilib! Əlavə edirsiniz ki, «biz başqa dövlətin işinə qarışmaqla özümüzə düşmən qazanırıq». Bəli, haqlısınız. Elə isə, İran nə üçün bizim daxili işlərimizə müdaxilə edir? Nə üçün müsəlman qardaşlarına qənim kəsilən düşmənlərimizə açıq-aşkar havadarlıq edir? Yoxsa, bu da bizi çox istədiyindən irəli gəlir?...

Hacı Mehdi, tam əminliklə deyirəm: siz bu müsahibənizlə Azərbaycanda mömin insan, xeyriyyəçi kimi tanınan Hacı Əlikramı, Hacı Vaqifi, Hacı Hacıağanı, Hacı Mirhəsəni deyil, onların siyasi savadsızlığından məharətlə istifadə edən, cinayətə sürükləyən İranın xüsusi

xidmət orqanlarını müdafiə edirsiniz!

AİP siyasi şöbəsinin müdiri Hacı Mübariz Məmmədli, həm də «İslamın səsi» qəzetinin redaktoru İdi. İfadəsini «İslamın üzərində nə farsın, nə ərəbin, nə də türkün möhürü var» sözləri ilə başlayan Hacı Mübariz qeyd etdi ki, heç bir dövlətin islamı himayəyə götürmək, öz mənafeyi naminə siyasi alətə çevirməyə haqqı yoxdur. Azərbaycanda parlament seçkiləri ərəfəsində İranda olarkən şahidi olduğu bir hadisə onun fikirlərində əsaslı dönüşə səbəb olmuşdu: Ərdəbilin «Savalan» otelində Azərbaycanda seçkilərlə bağlı keçirilmiş konfransda bəzi çıxışlar açıq-aşkar ölkəmizin əleyhinə yönəldilmişdi. Üstəlik, həmin günlərdə mehmanxananın foyesində açılmış kitab sərgisinin ən mötəbər yerində ermənilərin muzdlu məddahı Frans Verfelin «Musadağın 40 günü» kitabının farsca tərcüməsi qoyulmuşdu. Farsların müsəlman qardaşı olan türklərə nifrət ruhunda yazılan, ermənilərin soyqırımı siyasətinə haqq qazandıran bu kitabın nəşri və satışına etirazını bildirsə də, konfrans təşkilatçıları Hacı Mübarizin sözlərinə əhəmiyyət vermədilər. Ermənilərin əməllərinə bəraət verən kitab konfrans bitənədək fəxri yerində qaldı...

Nəhayət, məhkəmənin səbirsizliklə gözlədiyi gün gəlib çatdı. Az qala «itkin düşmüş» hesab olunan AİP-in Bakı Şəhər Komitəsinin sədri Hacı Zirəddin Tağıyev «müalicəsini» yarımçıq qoyub məhkəmə salonuna daxil oldu. Çıxışında dedi: «Mən bütün fəaliyyətimi partiya rəhbərlərinin tapşırıqları əsasında qurmuşam. Dəfələrlə Hacı Əlikramdan partiyanın maliyyə mənbələri barədə soruşsam da, Hacı «Sizin işiniz deyil!» - deyib cavabdan yayınmışdı - «Bütün məsuliyyəti mən daşıyıram». Hacı Əlikram tez-tez İrana gedər və qayıtdıqdan sonra bizi başına yığar, yeni tapşırıqlar verərdi. Məxfi məlumatların toplanmasını da belə səfərlərin nəticəsində boynumuza qoymuşdu. Mən strateji informasiyanın yığılmasına etiraz

etdikdə, bildirdi: «Məsləhət belədir».

Zirəddinin AİP Ali Şurası üzvlərinin İrana səfəri barədə dedikləri Hacıların ifadələrindən o qədər seçilməsə də, «ziyarətin» bəzi məqamları oxucuda maraq doğurmaya bilməz. Xatırladım ki, söhbət «Sepah»ın rəhbərləri ilə ikinci görüşdən gedir.

Ərdəbildən «islamçıları» yenə də Əhmədağa Əzimi və həmkarları qarşıladılar. Hacı Hacıağa onları İranın rəsmi informasiya agentliyinin – İRNA-nın müxbirləri kimi təqdim etdi və xüsusilə vurğuladı ki, bu səfəri həmin agentlik maliyyələşdirib. Qonaqları maşınlara əyləşdirib Ərdəbil yaxınlığında Səreyn kurort mərkəzinə gətirdilər (İranın yüksək rütbəli hərbçiləri burada dincəlirlər – müəllif). Onları hərbi geyimli general Hacı Mansur qarşıladı. Hacı Əlikram ona «hörmətli qardaşımız» - deyib Bakıdan gələnlərə təqdim etdi. Əyləşdilər. İlk növbədə, Hacı Hacıağa AİP-in son dövrdə gördüyü işlər barədə hesabat verdi. O, danışdıqca Hacı Mansur razılıqla başını tərpədir, Əhmədağa isə dəftərçəsinə qeydlər edirdi. Sonra «İslamın səsi» və «İslam dünyası» qəzetlərinin redaktorlarının hesabatı dinlənildi.

Bakıya qayıtmağa iki gün qalmış qonaqlara dedilər: «Hazırlaşın, Tehrandan mötəbər şəxs gəlib. O da sizinlə görüşmək istəyir». Qəbuluna getdilər. O, İranın ali dini rəhbəri Seyid Əli Xameneyinin «Sepah» üzrə şəxsi nümayəndəsi general Vəhidi idi. Generalın tövsiyəsi ilə Bakıdan gələnləri iki qrupa böldülər. Qruplardan biri Hacı Mansurla birlikdə otaqların birinə çəkilib, AİP-in Azərbaycan Respublikasında parlament seçkiləri haqqında hazırladığı qanun layihəsinin müzakirəsinə başladılar. Zirəddin Tağıyevin də daxil olduğu ikinci qrupun məşğələlərini isə general Vəhidinin özü aparırdı. Lakin AİP-in təklif etdiyi konstitusiya layihəsi barədə fikir mübadiləsi yarımçıq qaldı: Vəhidi qətiyyən Azərbaycanca bilmirdi. Tərcüməçi

isə hüquq terminlərini farscaya çevirməkdə çətinlik çəkirdi. Bununla belə, general layihəyə öz düzəlişlərini etdi. Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktında təsbit olunan «hüquqi, dünyəvi və demokratik dövlət quruculuğu» ifadəsində əvvəlki iki anlayışın çıxarılmasını məsləhət bildi.

Hacı Zirəddin də başqaları kimi hakim Ənvər Seyidovun və dövlət ittihamçısı Bəhrəm Zahidovun bəzi suallarını cavabsız buraxdı:

- ***«Nə üçün təqdim etdiyiniz layihə məhz İranda müzakirə olunur?»***
- ***«Bakıdakı ruhani məktəblərində təhsil alan tələbələrin sayını bilmədiyimiz halda, sənaye obyektlərində buraxılan strateji məhsulların çeşidi, hərbi hissələr, rayonlarda polis nəfərlərinin sayı barədə məlumat toplamağa sizi nə vadar etmişdir?»***
- ***«Sizcə, nə üçün Hacı Mansurun tövsiyələrində Ermənistanın işğalçılıq siyasətinin pislənməsi haqqında heç bir təklif yoxdur?»***
- ***İslam Partiyası onlara maddi yardım göstərənlərin adlarını öz qəzetlərində çəkdiyi və verdiyi məbləği göstərdiyi halda, nə səbəbə Hacı Mansur və Bavəndidən alınan üst-üstə 50 min ABŞ dolları barədə məlumat yoxdur? Halbuki qəzetlərə müsahibələrinizdə AİP-in İran tərəfindən qətiyyən maliyyələşdirilmədiyini deyirdiniz».***

Bakı komitəsi sədrinin donub-durduğunu görən Hacı Əlikram əsəbiləşdi. Dözmədi: «Bir buna bax, hələ mən onu gələcəkdə İslam Partiyasının sədri təyin etmək üçün yetişdirirdim!» Yazıq Hacı Zirəddin nə desin? Axı, onun çox şeydən xəbəri yox idi! Hətta ondan da xəbəri yox idi ki, sağ əli olan – müavini Cabir Rəhimov heç vaxt İslam Partiyasının üzvü olmayıb!

1992-ci ildə qeydiyyata alınan Azərbaycan İslam

Partiyasının rəsmi fəaliyyəti çox sürməmişdi. İki il sonra onun qeydiyyatı dayandırıldı. Çünki dini zəmində siyasi təşkilat yaratmaq qanunla yasaq olunmuşdu. Deməli, 1994-cü ildən ta liderləri həbs olunanadək AİP qanunsuz fəaliyyət göstərmişdi. Qeydiyyatın dayandırılmasının digər səbəblərinə gəldikdə isə, əvvəla, həddi-büluğa çatmamış yeniyetmələrin, hərbçilərin və ruhanilərin hər hansı siyasi təşkilata üzv qəbul edilməsi qanuna zidd hərəkət hesab edilirdi. AİP isə əsas diqqəti məhz onların üzərinə yönəldirdi. Hacılar əvvəllər də, sonra da bunu yaxşı bilirdilər. Buna baxmayaraq, əməllərini dayandırmırdılar.

Tehranın dirijorluğu ilə təkcə İranda deyil, Bakıda da bir qrup adam guya məhkəmənin Azərbaycanda islam dini əleyhinə geniş siyasi kampaniyanın başlanması üçün vasitə olduğu barədə qərəzli söz-söhbət yayırdı. Bu isə iz azdırmaqdan başqa bir şey deyildi. İbtidai istintaq da, məhkəmə də göstərdi ki, nə cinayət işi qaldırılmasının mahiyyətinin, nə də məhkəmənin bütün müsəlmanların mənəvi dəyəri olan islam dini ilə heç bir əlaqəsi olmayıb. İslam dini də, AİP liderləri də İranın müəyyən dairələrinin Azərbaycana qarşı apardığı ikili siyasət oyununun qurbanı idi. Dinin belə çirkin oyunlara qatılması isə Allah qarşısında böyük günah sayılır. Azərbaycanın tanınmış dindarlarını yoldan çıxarıb, şirnikləndirib, öz Vətəni əliyhinə casusluğa sövq edib və sonra da müttəhimlər kürsüsündə əyləşməsinə bais olanların nəzərinə bir də onu çatdırıram ki, məhkəmə prosesi Tehranda hallandırıldığı kimi heç də «İran dövlətinin, onun Azərbaycanın qardaşlıq siyasətinin əleyhinə» yönəldilməmişdi. Əksinə, prosesin ilk günündən sonadək hakim Ənvər Seyidov dəfələrlə məhkəmə iştirakçılarını, şahidləri cənub qonşumuz haqqında əsassız ittihamlar söyləməkdən, kəskin ifadələr işlətməkdən çəkindirmişdi. Həqiqəti isə yalnız danılmaz faktlar üzə çıxardı. O ki qaldı «dinin mühakiməsi» məsələsinə, kiçicik bir fakt İranın bu «ehtimalını» da puç

edir. Əvvəla, ittiham olunan din deyil, qanuna zidd fəaliyyət göstərmiş konkret şəxslərdir. Bəli, casusluqda ittiham olunan mömin bəndələrdir. Lakin əgər xalq hakiminin və iclasçılardan birinin nəsilli-nəcabətli seyid, prokurorun və istintaqı aparmış müstəntiqlərdən birinin Hacı, yeri gəlmişkən, bu qeydləri yazan jurnalistin isə kərbəlayı olduğunu nəzərə alsaq, prosesi «islamın məhkəməsi» adlandırmaq hansı məntiqə sığır?

Budur, az qala iki ay çəkən, ürək ağrıdan məhkəmə prosesi final mərhələsinə çatdı. Hökm oxundu. Dövləti cinayətdə ittiham olunan Azərbaycan İslam Partiyasının liderləri Hacı Əlikram 11 il, Hacı Vaqif Qasımov, Hacı Hacıağa Nuriyev, Hacı Mirhəsən Cəfərov 10 il müddətinə azadlıqdan məhrum edildilər. Əsgəri xidmətdən yayınan gənclərin İrandakı casusluq məktəblərinə göndərilməsi üçün saxta sənədlərə möhür vurmuş «Ülkər» turizm firmasının direktoru Ramiz Mustafayev 2 il islah əməyinə məhkum olundu.



***Məhkəmənin hökmü oxunur***

Bu yerdə ədalətin təntənəsindən, daha bir çevriliş cəhdinin qarşısının alınmasından ağızdolusu, fərəhlə danışmaq olardı. Lakin məhkəmə salonunda sevinən,

başıuca gəzən yox idi. Bu proses Azərbaycanın faciəsi, hamımıza ibrət dərsi oldu.

Hökm elan edildikdən sonra hakim və dövlət ittihamçısı proses barədə bəzi mülahizələrini söylədilər.

***Ənvər SEYİDOV: «Məhkəmə kollegiyası belə hesab edir ki, cinayət işinə baxarkən onu islam dininin təbliğatçıları tərəfindən törədilməsi kimi qiymətləndirməmişlər. Daha dəqiq desək, xarici dövlətlə cinayət əlaqəsinə girib din pərdəsi altında fəaliyyət göstərən ayrı-ayrı şəxslərin Azərbaycan dövlətinə qarşı törətdikləri əmələ hüquqi qiymət verilmişdir. Məhkəmənin guya islam dininin əleyhinə yönəldildiyini iddia etmək tamamilə əsassızdır. Onu da xüsusilə vurğulamalıyam ki, proses dövründə nə məhkəmə kollegiyasına, nə də müttəhimlərə heç bir təzyiq göstərilməmiş, təsir olunmamışdı. Müttəhimlərə özlərini müdafiə etmək üçün qanunla müəyyən olunmuş qaydada hər cür şərait yaradılmışdı. Məhkəmə humanist hökm çıxarmış, müttəhimlərin əvvəllər cinayət məsuliyyətinə cəlb olunmamaları, ailə vəziyyətləri, xəstəlikləri, istintaqda əsasən düzgün ifadə verdikləri, habelə dindar olduqları nəzərə alınmışdı. Halbuki belə əməllərə görə daha ağır cəza verilməli idi».***

***Bəhram ZAHİD0V: «Hələ proses başlamazdan AİP rəhbərlərinin guya təqsirsiz olması barədə şayiələr yayılırdı. Lakin istintaqın gedişi və müttəhimlərin etirafları bu söz-söhbətin tamamilə əsassız olduğunu sübut etdi. Məhkəmə zamanı müttəhimlərə özlərini müdafiə etmək üçün tam şərait yaradılmışdı. Onların hər biri heç bir təsirə məruz qalmadıqlarını da bildirmişlər. Bu bizim dövlətin vətəndaşlarının faciəsidir».***

İran tərəfinin casus kimi emal olunan yüzlərlə azərbaycanlı gəncin hər birinə 15 min dollar xərc çəkdiyini, hər il xeyli yeniyetmənin dəstə halında «ziyarətə»

getməsinə milyonlarla dollar pul sərf edildiyini yaxşı bilirik. İranın da öz daxili işləri var. Ancaq biz müdaxilə edib o ölkədəki proseslərə qiymət vermirik. İranın ali dini rəhbəri Seyid Əli Xameneyinin şifahi fərmanına zidd olaraq Ərdəbil yaxınlığındakı hərbi bazada illər uzunu erməni quldurlarının Azərbaycana qarşı döyüşə hazırlandığı, Ermənistana ərzağın 95 faizinin İran tərəfindən göndərildiyi, Tehranın Yerevana hərbi yardım göstərdiyi barədə də susuruq. Amma bu heç də o demək deyil ki, xəbərsizik. İranın dövlət məmurlarının təsis etdiyi «Ehsan» firmasının heç bir maneə olmadan gecə-gündüz Ermənistana yanacaq daşımasından da xəbərimiz var. Vallah, Allah bu ehsanı qəbul etməz! Bədnam qonşularımızla ticarət edən iranlı iş adamlarına hansı güzəştlərin verilməsini də bilirik. İranın bütün beynəlxalq normaları pozaraq işğal olunmuş Azərbaycan torpaqlarında hidrotexniki işlər aparmasından, Zəngilanın Bartaz kəndi yaxınlığında Araz çayı yatağının qanunsuz genişləndirməsindən də söz açmırıq. Onu da bilirik ki, Kəlbəcərin qızılı İsfahanda emal olunur və bir hissəsi İranda qalmaq şərti ilə Ermənistana qaytarılır. Təbrizin «Seti» firmasının Xudafərin körpüsünün o tayında bazar açıb Ağdamın, Füzulinin, Zəngilanın, Qubadlının talan olunmuş evlərinin daşını, taxtasını satmasını da xatırlatmağa dəyərmi? Belələrinin cəzasını Allah verir. Xatırlayın, ya sel göndərir, ya da zəlzələ! Məhəmməd peyğəmbərin (s.) belələri haqqında dediklərini bir daha xatırladıram: «Qəsb olunmuş daş ilə tikilən ev xaraba qalmaq üçün girovdur».

Nə eybi var, yəqin o tayda müsəlmanlığı, islam qardaşlığını belə anlayırlar. Biz isə gözlərimizi açdıqlarına, qəflət yuxusundan oyatdıqlarına görə onlara minnətdarıq....

Əssalamü-əleyküm və rəhmətullahi və barakatuhu!

## Casusluqda «ailə podratı»

*«Həqiqətən, bir para insanlar bir para cinlərə pənah aparıb, bununla da onların təkəbbürünü artırırlar»*

***Qurani-Kərim, «əl-Cinn» surəsi***

İran vətəndaşı Məhəmməd Rezayinin «Naxçıvan sərgüzəştlərindən» bəhs edən bu məqaləni belə adlandırmağımız əbəs deyil: İş burasındadır ki, «qəhrəmanımız» özü ilə kifayətlənməyib, ömür-gün yoldaşı Gülavər Bədəlovanı da İranın xeyrinə casusluğa cəlb edə bilmişdi. Bəli, həqiqətən də, «ərlə arvadın torpağı bir yerdən götürülür»...

1989-cu il fevralın 5-də qəlbi «Azərbaycan eşqi ilə» döyünən cənublu «bəradərimiz» Məhəmməd qaçaq yolla sərhədi adlayıb Naxçıvana təşrif buyurdu. Bəhanəsi bu oldu ki, guya evdə bərk-bərk tapşırıblarmış ki, Şərurdakı qohumları tapmasan, geri qayıtma! Məhəmməd də gəzib-dolanıb qohumlarını Muğanlı kəndində tapdı. Bir müddət onlarda qonaq qalası oldu. Amma deyəsən, imkansız qohumların ona elə bir istisi-soyuğu olmayacağını görüb, aralandı. Özünə bab dost-aşna tapıb, Naxçıvanda gün keçirməyə başladı. Günlərin birində toydan çıxıb rayon mərkəzinə gələrkən avtomobil qəzasına düşdü, əzildi, səkkiz ay yataq xəstəsi oldu və ayağa qalxan kimi bu qərara gəldi ki, kök atmaq vaxtı çatıb. İrandakı sahiblərinin əmri ilə Tumaslı kəndindən Humay İbrahimovaya elçi düşüb ailə qurdu. İki uşaq atası oldu...

Amma Rezayi ailəsini götürüb İrana qayıtmağa qətiyyən tələsmirdi. Burada yurd salmaq, evlənmək, özünü siyasətdən, ədavətdən uzaq, ailəcanlı kişi kimi göstərmək ona verilən məxfi tapşırığın ilk mərhələsi idi. Çünki Məhəmməd Azərbaycana yalnız və yalnız casusluq etmək üçün gəlmişdi...

***CİNAYƏT İŞİNDƏN:***



***Məhəmməd Mehralı oğlu Rezayi 1962-ci ildə İran İslam Respublikasının Poldəşt şəhərinin Muradlı kəndində anadan olub. Azərbaycan Respublikasında kəşfiyyat xarakterli məlumatın toplanması üçün İranın Təhlükəsizlik və İnformasiya Nazirliyi tərəfindən ələ alınıb agent kimi ölkəmizə göndərilmişdi...»***

Məsələnin mahiyyətinə bəri başdan aydınlıq gətirmək üçün kiçik bir haşiyə çıxaq. Rezayinin hekayəti ilə tanış olan oxucuda istər-istəməz belə bir sual oyanacaqdı: Görəsən, nə səbəbə İranın xüsusi xidmət orqanları Naxçıvanda casusluq fəaliyyəti üçün məhz Məhəmmədi seçmişdilər?

Bəli, Rezayi peşəkar kəşfiyyatçı deyildi. Məxfi xidmətlərin peşə təsnifatında belələrini - dünyagörüşü, xarakter xüsusiyyətləri, hətta xarici görkəmləri konkret missiyanın yerinə yetirilməsinə yarayan bu adamları, şərti olaraq, «agent» adlandırırlar. Kütlənin içərisindən ciddi-cəhdlə seçilən, müxtəlif yollarla şirnikləndirilib ələ alınan bu «birdəfəlik şpris»lərdən biri də Məhəmməd idi. Rezayi pula, şöhrətə hərisliyi, özündən müştəbehliyi ilə seçilirdi. Üstəlik, ələ alındıqdan sonra Şirazda «Ettelaat»ın kurslarında müəyyən hazırlıq keçmiş, ünsiyyət yaratmaq, məlumat toplamaq, adamları ələ almaq yollarını öyrən-

mişdi. Məhəmməd eyni zamanda iki missiyanı yerinə yetirirdi. Əvvəla, Naxçıvanda «məskunlaşmış» İran casuslarına kəşfiyyat xarakterli məlumatların toplanmasında yerli əhalidən ibarət agentura şəbəkəsi yaradılmasında kömək etməli, digər tərəfdən, MTN əməkdaşlarının sayıqlığını yoxlamalı idi. Şübhələri yayındırmaq üçün Məhəmmədə daimi iş yeri axtarmaq lazım gəldi. Yenə özününkülər kömək etdilər. İmam Xomeyni adına İmdad Cəmiyyətinin Naxçıvandakı kurslarında fars dilindən «dərs» deməyə başladı. Məşğələlərdə söz arası da olsa, «Azərbaycanın İranın əzəli torpaqları» olduğunu vurğulayır, İslam inqilabının məziyyətlərindən, məmləkətinin üstünlüklərindən dəm vururdu. Günlərin birində bir dəstə iranlı Naxçıvanda varid oldu. «Yardım» gətirmişdilər. Onlardan ikisi – Abdulla və Yəhya dəstədən ayrılıb Rezayini məktəbdə tapdılar. Xəlvətə çəkib həmin axşam otaqlarına dəvət etdilər. Əvvəlcə, Məhəmmədə «Ettelaat»dan göndərilən salamları, sonra isə növbəti tapşırığı çatdırdılar: O, qısa vaxt ərzində Naxçıvan Muxtar Respublikasında yaranmış ictimai-siyasi vəziyyətin təhlilini verməli, İran və Ermənistan (!) sərhədləri boyu hərbi hissələrin dəqiq dislokasiya yerini müəyyənləşdirməli, komandanlıq və şəxsi heyət haqqında ətraflı məlumat toplamalıdır.

Əslinə qalsa, bu tapşırıq əvvəlcə Rezayiyə deyil, İrandan gələnlərə həvalə olunmuşdu. Lakin nə Yəhyanın, nə də Abdullanın məlum səbəb üzündən bu işin öhdəsindən gələ bilməyəcəkləri də məlum idi. İş burasındadır ki, bir qədər əvvəl hər iki casus «Quran müəllimi» adı altında Babək rayonunun Qahab kəndində yaşayarkən bir dəstə kənd uşağını qaçaq yolla İrana getmək və orada «dini təhsil» almaq üçün başlarına yığıb gecəyarı Araz çayını üzüb keçməyə cəhd etmişdilər. Lakin uşaqlardan biri yarı yolda yorularaq batmışdı. Faciədən xəbər tutan qahablılar casus «mollaları» abırdan salıb kənddən qov-

muşdular. Beləliklə, «Ettelaat» üçün məlumat toplamaq, camaat içində görünmək artıq onlar girən kol deyildi. Odur ki, bu işi Rezayinin boynuna qoydular.

Bu, Azərbaycana nüfuz edildikdən sonra Məhəmmədin «Ettelaat» əməkdaşları ilə ilk görüşü deyildi. Hələ 1992-ci ilin əvvəllərində qanunsuz olaraq Naxçıvanda yaşadığına görə Rezayini yaxalayıb İrana təhvil vermiş və təbii ki, İran sərbazları onu rəmzi məbləğdə cərimələyib azadlığa buraxmışdılar. Müvəqqəti olaraq ata-baba kəndinə qayıdan Rezayini günlərin birində «Ettelaat»ın Poldəşt şöbəsinin əməkdaşlarından İsa İbrahimi aradı: «Nə yolla olursa-olsun, yenidən Naxçıvana qayıtmalısan! Şərurdakı hərbi qüvvələrin sayını, texnikanın növünü, artilleriyanın mövqeyini öyrənməlisən. Bununla yanaşı, naxçıvanlıların İrana və Türkiyəyə olan münasibətlərini araşdırıb, «Vahid Azərbaycan» ideyasının orada nə dərəcədə gerçək olduğunu aydınlaşdırmalısan!.». Rezayi «bəçeşm» deyib razılaşdı və «Ehsan» ləqəbini götürüb ertəsi gün Naxçıvana üz tutdu...

Məhəmməd bu dəfə ehtiyatlı idi. Cüzi səhv üzündən yaxalanacağından ehtiyat edib hərbi hissələrin həndəvərinə yaxınlaşa bilməsə də, bir sıra kəşfiyyat xarakterli məlumatlar topladı, yerli adamları söhbətə tutub «Vahid Azərbaycan» ideyasının camaat arasında dəstək tapdığını müəyyənləşdirdi və məlumatı yazıb «Ehsan» ləqəbi ilə dərkənar qoyduqdan sonra İsa İbrahiminin əlaqələndiricisi, İrandan Naxçıvana yük daşıyan «sürücü» Əkbərlə «Ettelaat»a göndərdi...

Bir müddətdən sonra «Ettelaat»ın digər zabiti, məxfi agentura şəbəkəsi yaratmaq məqsədilə xeyli əvvəl Naxçıvana gəlmiş və indiyədək «Ehsan» ilə heç bir əlaqə saxlamamış Eynulla Rusta şərti görüş yerinə gəldi. Eynulla onu axşam «Araz» mehmanxanasına çağırdı. Burada müxtəlif mülki peşə sahibləri adı ilə Naxçıvana gəlmiş

«Ettelaat» zabitləri «Ehsan»la görüşüb növbəti tapşırıqlarını verəcəkdilər.

İçəridə xeyli adam toplaşmışdı. Bəzilərini Rezayi yaxşı tanıyırdı. Peşəkar kəşfiyyatçı, Qərbi Azərbaycan ostanının siyasi işlər üzrə şöbə rəisi Rəsul Rzayi, İran və Naxçıvan arasında iqtisadi əlaqələrə cavabdeh şöbənin rəhbəri Seyid Berinci, təbliğat-təşviqat qurumunun başçısı Seyid Məhəmməd fəxri və Maku fərmandarlığının siyasi işlər üzrə şöbə rəisi Əyyub Kiyani də burada idilər. Oturmağa yer göstərdilər. Hesabatını dinlədilər. Bu dəfə ona Naxçıvanda islam dininin iransayağı təbliğinin mümkünlüyünü və konkret adamların Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə əlaqəsi ehtimalını dəqiqləşdirməyi tapşırdılar. Və «Ehsan» ləqəbi üzərindən götürülərək ona «Murad» adı verildi.

«Murad» - Rezayi rəislərinin etimadını doğrultmaq üçün işdən ikiəlli yapışdı. Məscidlərə, mədrəsələrə ayaq açdı, «dini təhsil» verdiyi uşaqların valideynləri ilə görüşdü. İrandakı dövlət quruluşunu tərənnüm edən və məxsusən Azərbaycan oxucusu üçün buraxılan kitablar, xüsusi fonddan «maddi yardımlar» payladı, dindarları xəlvəti söhbətlərə çəkdi. Nə gizlədək, belə ünsiyyətin nəticəsində onun toruna düşənlər, Azərbaycanda «islami dövlət» qurmaq üçün öz xidmətlərini təklif edənlər də tapıldı. Amma peşəkarlığına güvənən casus artıq MTN əməkdaşlarının müşahidəsi altında olduğundan xəbərsiz idi. Rezayinin tez-tez hərbi hissələr və sərhəd dəstəsi ətrafında dolaşması, söhbətlər aparması şübhə doğururdu.

Rezayi tapşırığın icrası ilə bağlı hesabatını, proqnozlarını, ələ alınması ehtimal olunan adamlar haqqında müfəssəl məlumatı bir yerə cəmləyib Əyyub Kiyaniyə yolladı. O ki qaldı ayrı-ayrı adamların «KQB ilə əlaqəsinə», burada da Rezayinin oxu daşa dəydi. Heç nə öyrənə bilmədi. Odur ki, Naxçıvanda gözü götürmədiyi

adamları «KQB-nin agenti» kimi qələmə verdi...

1993-cü ilin avqustunda İranda növbəti tapşırığını alıb Naxçıvana - Şərur rayonunun Tumaslı kəndinə, guya ailəsinin yanına qayıtdı. Əslinə qalsa, buna «vəfalı ərin ailəyə dönməsi» demək olmazdı. Çünki arvad-uşaq onsuz da «evin kişisinin» üzünü nadir hallarda görürdü. «Ailə səadəti» çox çəkmədi. Az keçməmiş kiçicik səhvi üzündən sərhədçilər Rezayini yaxaladılar.


جمهوری اسلامی ایران
وزارت کشور
سازمان ثبت احوال کشور

***İranda Məhəmməd Rezayinin adına verilmiş sənəd***

Məhəmməd sərhədi qanunsuz keçdiyinə görə tutulub bir il müddətinə azadlıqdan məhrum edildi. Arxası möhkəm imiş! Az keçməmiş İranın Azərbaycandakı səfirliyinin əməkdaşı Hacı Əli Kəşani qəflətən özünü Naxçıvana yetirdi. Hökumət qabağında saqqal tərpədib Rezayinin vaxtından əvvəl azadlığa buraxılmasına nail oldu. Və nə qədər qəribə də olsa, üstündə heç bir sənəd olmayan Məhəmməd İrana qayıtmadı. Naxçıvanda qalıb şəhərdəki orta məktəbdə «fars dilini öyrətməyə» başladı...

«Ettelaat»ın rezidenti Eynulla Rusta bütün çətinliklərə baxmayaraq, «Murad»a gizli himayə göstərir, hər addımına nəzarət edirdi. 1995-ci ilin ortalarında xəlvəti Məhəmmədin mənzilinə gəldi. «Evin kişisi» hələ məktəbdən qayıtmamışdı. Eynullaya da bu lazım idi. Rezayinin arvadı Humayı sorğu-suala tutdu. Onsuz da ərinin əlindən yanıqlı olan Humay birinin üstünə beşini qoyub Məhəmmədi şərləməyə başladı. Qadın danışdıqca Eynullanın rəngi kağız kimi ağarırdı. «Siz ağlınızı itirmisiniz! Məhəmməd heç vaxt İrana işləməyib. O, KQB-nin agentidir! Sizi də aldadır, bizi də. Birdəfəlik tutulsaydı, canımız onun əlindən dincələrdi...». Bu xəbəri eşidən Eynulla başılovlu özünü İrana çatdırdı.

Arvadının Eynulla Rusta ilə açıq söhbətindən xəbərdar olan Məhəmməd evə dönən kimi «Sən məni məhv etmək istəyirsən!» - deyib, aralarında illərdən bəri yığılan söz-söhbəti yumruq davasına çevirdi. Sonra acığa düşüb şəriət qanunu ilə evləndiyi Humay İbrahimovanın talağını qaytardı. Üstəlik, hirsi soyumamış özündən altı yaş böyük olan dörd uşaq anası Gülavər Bədəlova ilə evləndi. Əslinə qalsa, Gülavərlə Məhəmməd arasında eşq-məhəbbət macəraları bir ilin, iki ilin söhbəti deyildi. Pul, vəzifə sahibləri üçün ara düzəldən kimi məşhurlaşmış Gülavər əxlaq cəhətdən təzə ərindən heç də geri qalmırdı. Rezayi çoxdan idi ki, əvvəlki həyat yoldaşından ayrılmaq üçün bəhanə gəzirdi. Humay da, iki körpə uşaq da «Ettelaat»ın planına əsasən artıq öz funksiyalarını bitirmişdilər. Casus Naxçıvanda kök ata bilmişdi. İndi ailə MəHəmməd üçün əlavə yükə çevrilmişdi. Evdə süni şəkildə yaratdığı dedi-qodunun da səbəbi bu idi. Çoxdan idi ki, Gülavəri gözaltı eləmişdi. Naxçıvanda ondan əlverişli köməkçi tapa bilməzdi. Lakin Humayın əri haqqında dedikləri o tayda əsl çaxnaşma oyatmışdı.

1996-cı ilin mayında Rezayi sərhəd pozucusu kimi

yaxalanıb İrana təhvil verildi. Burada isə «Ettelaat» artıq «Murad»ın yolunu «intizarla». gözləyirdi. Birinci arvadının Eynullaya dedikləri onları sarsıtmışdı. Əvvəlcə, Məhəmmədi qandallayıb «Ettelaat»ın Maku şöbəsinə, sonra isə Xoy və Urmiya şəhərlərindəki bölmələrinə apardılar. «KQB agentinə» işgəncələr verildi, döyüldü, aramsız dindirmələr bir-birini əvəz etdi: Arvad yıxan evi fələk də dağıda bilməz! Çox çək-çevirdən sonra Humayın keçmiş ərinə şər atdığı aydınlaşdı.

Bir azdan Gülavər növbəti ərinin dəvəti ilə uşaqlarını Naxçıvanda qoyub İrana gəldi. «Xoşbəxt» ailə bir müddət Poldəştin Muradlı kəndində Məhəmmədin atası evində yaşadı. Lakin «abır-həyalı» təzə gəlin qaynana ilə yola getmədi. Məhəmməd də acığa düşüb arvad-uşağı götürərək ata yurdundan birdəfəlik çıxdı. İran Culfasına gəlib oradakı «Çahar fəsle» mehmanxanasına yığışdı.

«Ettelaat»ın baş planının ikinci mərhələsi elə bundan sonra başladı. Rezayi azadlığa çıxdıqdan sonra arvadı da İranın xüsusi xidmətlərinin nəzarəti altında idi. Gülavərlə çoxdan maraqlanırdılar. Yüngül əxlaqlı vəzifəlilərə yaxınlaşmaq, şantaj etmək, ələ almaq üçün ondan əlverişli namizəd ələ düşməzdi. Bundan başqa, həm də məşhur alverçi kimi ad qazanıb İrana müntəzəm gəlib-gedən bu qadın çox güman ki, Azərbaycanda heç kəsdə şübhə oyatmayacaqdı...

Günlərin birində «Ettelaat»ın daha bir əməkdaşı - Nadir Nəsiri bazarlıq edən Məhəmmədə yaxınlaşdı. Söhbətə tutdu. Arvadının xasiyyəti, məşğuliyyəti ilə maraqlandı. Xoş qeyrət sahibi olan Rezayi təzə həyat yoldaşının Naxçıvan macəraları barədə təfərrüatla danışdı, bir vaxtlar kimlərlə yaxınlıq etdiyindən fəxrlə söz açdı. Cavablar Nəsirini qane etdi. Bir dəfə «evin kişisi» mehmanxanada olmayanda içəri girib Gülavərlə tanış oldu, şirin söhbətə tutdu. Və ən nəhayət, «Ettelaat»ın təklifini dedi: «Sən bizim

üçün işləmək istəyirsənmi?» Sanki Gülavər İranın xüsusi xidmət orqanları nümayəndələri ilə görüşməyi, bu ölkənin casusu olmağı az qala uşaqlıqdan arzulayırmış! Amma bir şərtlə: Əgər alver üçün İrana gələrsə, burada onun üçün hər cür şərait yaradılmalı, aldığı malların sərhəddən keçirilməsinə kömək edilməlidir! Razılaşdılar. Bir neçə gün sonra Nəsiri Məhəmməddən «xəbərsiz» Gülavəri «Bozork» hotelinə dəvət etdi. Ağlınıza başqa fikir gəlməsin! Hotelin lüks nömrəsində Rezayinin arvadı çox mühüm bir şəxslə - Azərbaycanda casus əməliyyatlarına bilavasitə rəhbərlik edən «Ettelaat»ın Ərdəbil şöbəsinin rəisi, polkovnik Hacı Əli Şeyxlu ilə söhbətləşməli idi. Görüş baş tutdu. Səmimi sorğu-sualdan, qısa imtahandan sonra polkovnik Gülavərin namizədliyini bəyəndi. Gülavər Bədəlova dəst-xətti ilə iltizamnamə yazıb imza atdı. «İslam yolunda mənə veriləcək bütün tapşırıqları yerinə yetirəcəyəm. İranın mənafeyini müdafiə edəcəyəm...». Xain qadınla olan söhbət audio və videolentə alındı, Naxçıvanda onunla əlaqə üsulları müəyyənləşdirildi, 200 dollar şirinlik də verildi. Sonralar Gülavər İranda olanda Hacı Əli ilə təklikdə tez-tez görüşürdü. Lakin bu görüşlərin heç birində «ağır xasiyyətli» əri gözə dəymirdi. Bunu Gülavərə belə izah etdilər ki, guya Məhəmməd Rezayi daha etibarını itirib. Lakin əslinə qalsa, Məhəmməd otaqlarda söhbətin nədən getdiyindən, arvadının da onunla həmkar olmasından xəbərdar idi. Sadəcə olaraq, gələcəkdə baş verə biləcək xoşagəlməz hadisələrdən sığortalanmaq üçün «Ettelaat»ın Gülavərlə münasibətinin hələlik gizli qalmasını məsləhət bilmişdilər.

«Ettelaat»ın xeyir-duası ilə «Məşədi Qulam» ləqəbi qazanan Gülavər Bədəlova hər ay sərasər «alver» adı ilə Mərəndə ayaq açır, burada konspirasiya qaydalarına ciddi əməl edərək «Ettelaat»ın nümayəndələri ilə görüşür, ərinin topladığı məlumatı çatdırır, yeni tapşırıqlar alırdı. Bu tapşırıqlardan biri Naxçıvan Muxtar Respublikası Milli

Təhlükəsizlik Nazirliyinin bir əməkdaşını ələ almaqdan ibarət idi. İranın xüsusi xidmət orqanları həmin zabitə çoxdan idi ki, diqqət yetirirdilər. Belə plan tərtib olunmuşdu ki, Gülavər nə yolla olursa-olsun, həmin MTN əməkdaşının qardaşını yoldan çıxarıb İrana gətirməli və o, «sərhəddən narkotik maddə keçirdiyinə görə» dərhal yaxalanmalı idi. Təbii ki, böyük qardaş çıxış yolu tapmaq üçün İrana gələndə və ya əlaqə yaradanda «cinayətkarın» azad olunması müqabilində bəzi dövlət sirlərini «Ettelaat»la bölüşməyi ondan «xahiş» edəcəkdilər. Digər tapşırığa əsasən, «Məşədi Qulam» Naxçıvandakı bəzi vəzifəliləri gələcəkdə şantaj edib ələ almaq üçün məşuqələrini, onların ünvanını, görüş saatlarını müəyyənləşdirməli idi. Bu tapşırığı yerinə yetirmək Gülavər üçün qətiyyən çətin olmadı. Çünki yüngül əxlaqlı xanımlarla həmin kreslo sahiblərini məhz o tanış etmişdi. Bütün bunlarla yanaşı, G.Bədəlovaya Naxçıvan şəhərindəki hərbi təyinatlı obyektlərin koordinatlarını bir daha dəqiqləşdirmək, muxtar respublikanın strateji əhəmiyyətli xəritəsini əldə etmək də tapşırılmışdı. Belə görüşlər zamanı Hacı Əli Şeyxlu «Murad» və «Məşədi Qulama» bir-birindən «xəbərsiz» 600 dollar mükafat da vermişdi...

İndi Rezayi daha məsul əməliyyatların icrası ilə məşğul idi. «Xırda-para işlər» Gülavərə tapşırılmışdı. Naxçıvanın «Mata Xari»sinin «Ettelaat»a içdiyi anda sədaqəti bununla kifayətlənmirdi. Muxtar respublikada humanitar yardım paylayan Amerika vətəndaşlarının ünvanlarının, hərəkət marşrutlarının müəyyənləşdirilməsi, hərbi obyektlərin daxili planının çəkilməsi də onun xidmətləri idi. Üstəlik, bəzən tamah güc gələndə Şeyxludan daha çox pul qopartmaq üçün fırıldağa da əl atırdı. Günlərin birində «Məşədi Qulam» İrana belə bir «sensasiyalı» xəbər göndərdi ki, guya Naxçıvanın duz mədənlərində ABŞ-ın əlisilahlı əsgərləri və tankları döyüşə hazır

vəziyyətdə gizləniblər(!). Bu «məxfi məlumat» üzü üzlər görmüş «Ettelaat» nümayəndələrini şübhəyə saldı. Gülavər həmin «sensasiyadan» sonra Şeyxlunun ona inamının azaldığını bəsirətlə sezmişdi. Odur ki, 1997-ci il oktyabr ayının əvvəllərində Mərənddə olarkən Hacı Əlidən xahiş etdi ki, otağa Quran gətirsin. Quran araya gələndə qəflətən Məhəmməd Rezayi də içəri çağırılıb növbəti «andiçmə mərasiminin» iştirakçısı oldu. «Məşədi Qulam» Quranı öpüb gözünün üstünə qoydu. Ərz etdi ki, səhvi olub və innən belə İrandan nə tapşırıq verilsə, canidildən yerinə yetirəcəkdir! Xain qadın bununla kifayətlənməyib, üstəlik təzə iltizamnamə də yazıb imzaladı. Hacı Əli Şeyxlu və Nadir Nəsiri çox güman ki, bu səhnədən riqqətə gəlmişdilər. Bildirdilər ki, belə igid qadına kişi ləqəbi daşımaq yaraşmaz! Odur ki, dərhal «Məşədi Qulam» təxəllüsü lirik «Güllü» ləqəbi ilə əvəz edildi.

Bu mərasimdən sonra Məhəmmədlə Gülavərə daha bir-birindən «xəbərsiz» deyil, birlikdə işləmək tapşırıldı və onların xoş günləri belə başlandı. İran kəşfiyyatına «götürəiş üsulu» ilə işləyən Gülavəri daha da şirnikləndirmək üçün onlara üç İran xalçası, iki mütəkkə, on dörd adyal, dörd dəst yorğan-döşək, dörd keçə, bir ədəd neft sobası, xeyli qab-qacaq və ərzaq bağışlandı. Amma xəbərdarlıq da etdilər: Əgər işindən bir balaca narazı qalsalar, «Ettelaat»ın qılıncı başlarının üstündən əskik olmayacaq.

Bir müddət də belə keçdi. Əvvəlcə, «Murad» və «Güllü» sahiblərinin etimadını get-gedə doğrultdular. Müntəzəm kəşfiyyat xəbərləri göndərir, Muxtar Respublikada baş vermiş ən kiçik dəyişikliyi, hadisəni belə nəzərdən qaçırmır, ləngimədən bu barədə məlumatı təcili İrana ötürürdülər. Bu məqsədlə ya özləri o taya keçir, ya da «Ettelaat»ın müxtəlif adlarla Naxçıvana gələn əlaqələndiricilərindən istifadə edirdilər. Lakin gözlənilmədən casus ailəsinə münasibət kəskin dəyişdi. Danlaq

danlaq üstünə gəldi. Səbəbini Məhəmməd bilsə də, Gülavərə məlum deyildi. Onların göndərdiyi məlumatlar nədənsə «Ettelaat»ı «qane etmirdi». Şeyxlu, deyəsən, məxfi agentlərini cəzalandırmağa hazırlaşırdı. Bu xəbəri Məhəmməd və Gülavər növbəti dəfə İranda olarkən eşitdilər. Hacı Əlinin xofundan qorxub 1998-ci ilin yanvarında gecə ikən «Ettelaat»ın bağışladığı bütün hədiyyələri də götürüb tələsik Naxçıvana qayıtdılar. Qaçmaq təşəbbüsü «Murad»ın olsa da, «Güllü» əvvəlcə əsib-coşdu, «Ettelaat»ın verdiyi çörəyin bir gün ərinin gözündən gələcəyini dedi, Şeyxlunun səxavətini, içdikləri andı Məhəmmədə xatırlatdı. Əri inadından dönmədi ki, dönmədi. Və Gülavər əlacsız qalıb Rezayiyə qoşuldu. Lakin məkrli qadın bilmirdi ki, Şeyxlu Məhəmmədə həm də bu yolla arvadının İrana sədaqətini yoxlamağı tapşırıbmış. Axı, qarşıda «Güllü»nü daha məsul missiya gözləyirdi. O, bu dəfə şəxsən özü MTN əməkdaşlarına yaxınlaşmalı, özünü «etibarlı vətəndaş» kimi tanıtmalı və nəticədə, ehtimal olunan agentura şəbəkəsinə nüfuz etməli idi. Belə ki, Rezayinin arvadına qoşulub bu taya keçməsi nə onun «sözəbaxan» ər olduğundan, nə də «Ettelaat»ın xofundan irəli gəlirdi. İndi Məhəmmədin yeni tapşırığı və yeni təxəllüsü vardı. O, «Azad» ləqəbini daşıyırdı...

Milli Təhlükəsizlik Nazirliyinin keçirdiyi əks-kəşfiyyat tədbirlərindən xoflanan «Ettelaat» nə yolla olursa-olsun, MTN-in bəzi əməkdaşlarını ələ almağı planlaşdırmışdı. Amma iranlıların öz peşəkarlıqlarına güvənmələri çox tez idi! Gülavər də, Məhəmməd də, üstəlik, Naxçıvana gələn «Ettelaat»ın əlaqələndiriciləri də artıq bir neçə il idi ki, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin məxfi müşahidəsi altında casusluq fəaliyyəti göstərirdilər. Peşə dili ilə desək, «əməliyyat oyunu» aparılır, casusların boğazına keçmiş ilgək get-gedə daralırdı...

Bu da casusların, Vətənə xəyanət edənlərin aqibəti:

«Ettelaat»a xidmət edən ər-arvad cinayət başında yaxalandı. Axtarış zamanı onlardan məxfi xəritələr, sənədlər, Naxçıvan Muxtar Respublikası rəhbərlərinin, Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının xidməti və mənzil telefonları, əlaqə vasitələri və s. aşkar edildi. Faktla əlaqədar cinayət işi qaldırıldı. Nəticədə, Vətənə xəyanətdə təqsirkar bilinən Gülavər Bədəlova 10 il, Məhəmməd Rezayi isə casusluqda ittiham olunub 15 il müddətinə azadlıqdan məhrum edildilər.

Və çox güman ki, layiq olduqları «istirahətlərini» başa vurub «təntənə» ilə İrana yola salındıqdan sonra bir də bu tərəflərə boylanmağa cəsarətləri çatmayacaqdır.

«Ettelaat»ın Azərbaycandan qovulan digər casusları kimi…

## «Cənab - 57»

***«Günahın aşkarından da, gizlisindən də əl çəkin! Günah qazananlar etdikləri əmələ görə cəzalandırılacaqlar!»***

***Qurani-Kərim, «əl-Ənam» surəsi***

...1977-ci ildə Biləsuvarın İsmətli kəndində Məlikovlar ailəsində bir körpə dünyaya göz açdı. «Oğlum olub!» Sevinci yerə-göyə sığmayan Həmid kişi intizarla gözlədiyi ciyərparasının yolunda qurban kəsdi, süfrə açdı. Adını da «Elsevər» qoydu. Qohum-qardaş gözaydınlığına gəlib «Adı ilə böyüsün!» dedi. Zənn etdilər ki, Elsevər böyüyüb adını doğruldacaq, el-obasını sevib ona arxa olacaq, nəslin başını uca edəcək. Çox heyf! Əgər iyirmi il sonra baş verəcək acı olaylardan Həmid kişi bəsirətlə xəbər tutsaydı, yəqin ki, ailəsini el yanında gözüqıpıq edən oğula bu adı qıymazdı...

***303 NÖMRƏLİ CİNAYƏT İŞİ ÜZRƏ İTTİHAMNAMƏDƏN:***



***«Hazırkı cinayət işi 1997-ci il oktyabrın 10-da Azərbaycan Respublikasının vətəndaşı Elsevər Həmid oğlu Məlikov barəsində Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyindən daxil olmuş materiallar əsasında***

***Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 57-ci maddəsinin 1-ci hissəsi (Vətənə xəyanət) və 242-ci maddəsinin «a» bəndi (Hərbi hissəni özbaşına tərk etmək) ilə başlanmış və icraata qəbul edilmişdir...».***

İllər keçdi, Elsevər boya-başa çatdı. 1995-ci ilin iyul ayında evlərinə çağırış vərəqəsi gəldi. Elsevər Məlikov da Azərbaycan əsgəri oldu, Şərur rayonunun Qıvraq kəndindəki hərbi hissəyə göndərildi. Sürücü-mexanikliyi öyrəndi və Sədərək qəsəbəsindəki tabura ezam edildi. Amma, deyəsən, əsgərlik həyatı Elsevərlik deyildi! Əmrlərə etinasız yanaşır, xidmətdən yayınmaq üçün bəhanələr gəzir, nə yolla olursa-olsun evə qayıtmağa məqam axtarırdı.

1996-cı ilin noyabrı idi. Hava soyumuş, aramsız yağışlar yolu-cığırı keçilməz etmişdi. Bir yandan da ermənilərin hərbə-zorba gəlib Sədərəkdəki mövqeləri atəşə tutması Elsevəri lap bezdirmişdi. Günlərin birində tabur komandirinin müavini F.Quliyev texnikanın döyüş hazırlığını yoxlamaq üçün hissəyə gəldi. Elsevər fürsət tapıb ona yaxınlaşdı. Dedi ki, evdən ötrü möhkəm darıxıb. Mümkünsə, onu məzuniyyətə buraxsınlar. Baş leytenant söz vermədi. Amma bildirdi ki, darıxmasın, imkan düşən kimi birinci ona kömək edəcək.

Elsevər on gün də birtəhər dözdü. Komandirdən isə cavab gəlmədi. Əslinə qalsa, bu tezlikdə cavab gözləmək də əbəs idi: Ermənilər tez-tez atəşkəsi pozurdular. Daha səbri çatmadı. Acığa düşdü: «İndi ki, buraxmırlar, özüm gedəcəyəm!» Hissədən qaçmaq planı cızdı. Düşündü: «Tutaq ki, qaça bildim, bəs, özümü Biləsuvara necə çatdıracağam?» Naxçıvandan təyyarə ilə Bakıya qaçmaq, oradan da avtobusla kəndə getmək müşkül məsələdir. Üstündə heç bir sənəd olmadığından elə aeroportdaca «ilişə» bilərdi. Yalnız bir yol vardı: O yol da İran ərazisindən keçirdi.

Dekabrın əvvəllərində qabaqcadan tədarük etdiyi mülki paltarını geyinib xəlvətə çəkildi. Axşamüstü əl-ayaq çəkilən kimi baş götürüb Şərura üz tutdu. Əsgərlik dostu Məhəmməd Xoy kəndində yaşayırdı. Bir neçə gün əvvəl söhbətləşmişdilər. O da arxayın etmişdi ki, əgər Biləsuvara «İran yolu» ilə gedəsi olsa, birbaş onlara gəlsin: «Mən də kənddə olacağam. Nə kömək lazımdır edəcəm».

Burada kiçik bir haşiyə çıxaq: Məhəmməd həqiqətən də fərari dostuna «kömək» etdi. Lakin Elsevər yaxalandıqdan sonra nəinki onunla dostluğundan imtina etmiş, üstəlik məsuliyyətdən yayınmaq üçün ruhi xəstə olduğu barədə daşdan keçən arayış da ala bilmişdi!

Elsevər gecəni Məhəmmədgildə qaldı. Oturub fikirləşdilər. Və bu qənaətə gəldilər ki, o taya adlamaq üçün ən sərfəli yer Şahtaxtı nəzarət-buraxılış məntəqəsidir. Burada müştərək bazar açılıb, hər gün o taydan, bu taydan alver etmək üçün yüzlərlə adam gəlir. İzdihama qarışıb «itmək» asandır. İrana gedən avtobuslar da düz bazarın içindən keçir. Bəs, oraya necə daxil olmalı? Məhəmməd bu məsələni də yoluna qoymağı boynuna çəkdi. Ertəsi gün Elşən Qafarovun adına yazılmış buraxılış vərəqəsi əldə etdi. Beləliklə, bazarın qapıları Elsevərin üzünə taybatay açıldı.

«Neytral zonaya» asanlıqla daxil olması fərarini sevindirsə də, işini ehtiyatlı tutdu. İran tacirlərinə yaxınlaşdı. O taya necə keçməyi onlardan da soruşdu. Aldığı cavab qorxunu da, şübhəni də dağıtdı: «Bundan asan nə var ki!? Hamı necə, sən də elə! İrana gedən «cümhuriyyət avtobusları» yoxlanılmır. Get birinə əyləş, keç o taya!»

Bazarda şıdırğı alver gedirdi. Hərə öz işində idi. Yəni, heç kəs heç kəsin kitabını oxumurdu. Xəlvətə salıb sərnişinlərə qoşuldu, avtobusun arxa oturacağında əyləşdi. Bir azdan maşın sonuncu sərhəd postunu keçib İran ərazisinə daxil oldu və Poldəşt şəhərinə tərəf səmt götür-

dü. Artıq hərbi hissədə axtarılması, yaxalanmaq təhlükəsi də Elsevərin yadından çıxmışdı. Şəhərdəki ilk dayanacaqda düşdü. Aradığı mehmanxananı tapdı. Məhəmməd demişdi ki, İrana gedən azərbaycanlı alverçilər yalnız burada qalırlar. «Onlara yaxınlaşsan, İran Biləsuvarına nə təhər getməyin yolunu sənə göstərəcəklər». Lakin cəhdi uğursuz oldu, üstündə sənəd-filan olmadığından Elsevərə nəinki mehmanxanada yer vermədilər, heç içəri də buraxmadılar. Kor-peşman Poldəştin küçələri boyu veyilləndi. Hələ Naxçıvanda olanda bir xeyli İran pulu tədarük etmişdi. Çıxarıb bir də saydı. Biləsuvara getməyə də, üstəlik ayın-oyun almağa da çatardı. Acmışdı. Qarşısına çıxan ilk yeməkxananın qapısını açdı. Amma ağlına da gəlmədi ki, arxasınca düşüb onunla içəri girən də var: «Ettelaat»ın məxfi agentləri hələ «cümhuriyyət avtobusuna» minən andan onu izləyirlərmiş. Əyləşib yemək sifariş verdi. Təzəcə əlini süfrəyə uzatmışdı ki, bir nəfər salam verib masanın arxasına keçdi. O da özünə xörək gətizdirdi. Araya çay gələndə artıq tanış olmuşdular. Mehdi Kilmani dedi ki, tacirdir, Azərbaycandan mal alıb İranda satdırır. Söhbətin şirin yerində Mehdi qonağın haradan gəlib, haraya getdiyini soruşdu. Elsevər özünü «tədbirli» sandı. Şərurlu olduğunu dedi: «İran Biləsuvarındakı qohumlarımı axtarmağa gedirəm». Amma «Ettelaat»ı aldatmaq onun xörəyi deyilmiş! Naxçıvandan üzü bəri izlənən Elsevər bilmirdi ki, tapşırıqla onu yanlayan Kilmani şərurlu olmadığını həm də ləhcəsindən yəqin etmişdi. Üstəlik, yerişi də, duruşu da, qorxa-qorxa ətrafa boylanması da onun fərari olduğunu «Ettelaat»a «satmışdı». «Yolun uzaqdır, gedək bizim evdə gecələ, həm də axşam tanışlarımla danışım, görək, səni Biləsuvara nə təhər yola salırıq». Elsevər sevincək olub dərhal razılığını verdi...

Kilmani evində o taylı qonağa süfrə açdırdı. Macal

tapıb qonşu otaqdan «tanışlarına» zəng vurdu. Əllərini süfrədən təzəcə çəkmişdilər ki, evin qapısı zərblə döyüldü. Qapının açılması ilə üz-gözündən zəhər yağan hərbçinin içəri yüyürməsi bir oldu. «Qonağın kimdir?» - deyə Mehdidən soruşdu. Kilmani özünü çox arxayın aparırdı: «Ağa, Naxçıvandan gəlib. Biləsuvara gedəcək». Zabit ev yiyəsinin sözlərinə məhəl qoymayıb üzünü Elsevərə tutdu: «Sənədini ver!» Elsevərdə sənəd nə gəzir?! Dili tutuldu, kəkələyə-kəkələyə guya Şərurun Vərməziyar kəndində yaşadığını, mədrəsədə dini təhsil almaq üçün İrana gəldiyini dedi. «Bəs, niyə sərhədi qaçaq keçmisən?» «Vallah, o tayda icazə vermirdilər». Zabit onsuz da gur olan səsini qaldırıb hədə-qorxu gəldi: «Sənin yerin zindandır!» Qorxudan əl-ayağı əsən Elsevərin gözləri doldu. Sonra zabit əsəbiliklə Mehdi Kilmaniyə farsca nəsə deyib getdi...

Ertəsi gün Elsevər sübh tezdən aradan çıxmaq istədi. Mehdi imkan vermədi: «Qorxma, qoy ara bir az sakitləşsin. Mən özüm məsələni yoluna qoyaram». Beləliklə, Elsevər iki gün də Kilmaninin qonağı oldu. Əslinə qalsa, o, Kilmanigildə qonaq deyil, ev dustağı idi. Üçüncü günün tamamında həmin zabit yenidən içəri girdi. Əvvəlki əsəbiliyindən əsər-əlamət qalmamışdı. Hiyləgər baxışları ilə Elsevəri yuxarıdan-aşağı süzdü: «Yaman yalançısan! Özümüzü əziyyətə salıb sənin haqqında hər şeyi öyrənmişik. Ordudan qaçmısan, indi orada səni axtarırlar. Ya gərək həqiqəti açıb deyəsən, ya da tutub zindana salacağam». Hərbçi danışdıqca, Mehdi bir küncə çəkilib xəfifcə qımışırdı. Elsevər isə əlinin hər yerdən üzüldüyünü görüb bülbül kimi ötməyə başladı. Harada doğulduğunu, hansı hərbi hissədə xidmət etdiyini, niyə və necə qaçdığını, İrana qaçaq yolla nə təhər gəldiyini təfərrüatı ilə bir-bir danışdı. Bu hesabatdan sonra zabit deyəsən, yumşaldı: «Darıxma, sözəbaxan olsan, kömək edəcəyəm». Sonra özünü təqdim etdi: Hüseyn Hafizi,

«Ettelaat»ın Poldəşt şöbəsinin əməkdaşı. Kilmani çay gətirdi, Hafizi isə Elsevəri şirin söhbətə tutdu. Yaxalandıqdan sonra istintaqa verdiyi ifadədə E.Məlikov belə yazır: ***«...Hafizi xidmət etdiyim hərbi hissə haqqında dəqiq məlumat verəcəyim təqdirdə məni İranda saxlayacağına və hər cür şərait yaradacağına söz verdi. Onu da dedi ki, gələcəkdə İran vətəndaşlığını qəbul etməyimə də yardım edəcək. Bu təklif ürəyimcə oldu. Fikirləşdim ki, evə həmişə macal tapıb gedə bilərəm. Belə fürsət isə bir daha ələ düşməyəcək. İranda qalıb işləyərəm, yaxşı pul qazanaram, arxamdayağım da olacaq. Həm də bir həftədir ki, hərbi hissədən qaçmışam. Əgər geri qaytarsalar, mütləq məni tutacaqlar. Odur ki, Azərbaycana dönmək fikrindən daşındım...».***

Asanlıqla ipə-sapa yatmış Elsevər xidmət etdiyi hərbi hissənin döyüş və rabitə texnikası, mövqeləri, əsgərlərin sayı, digər hərbi hissələrlə əlaqəsi barədə bildiklərini dedi. Hafizi razı qaldı: «Sənin bizə xeyrin dəyə bilər». Sonra bir kağız parçasına telefon nömrəsi yazdı: «22-56». Əlavə etdi ki, əgər səni saxlayan olsa, qoy dərhal bu nömrəyə zəng vursun.

Sübh tezdən Mehdi qonağını İran Culfasının Ələmdar kəndinə, guya qohumu Kərim Kəriminin yanına göndərdi. Yolda İran polisləri iki dəfə Elsevəri yaxaladılar. Lakin bir parça kağızın üzərinə yazılmış sehrli telefon nömrəsini yığıb danışan kimi dərhal onu buraxdılar. Culfada «tikinti şirkətinin» rəhbəri olan Kərimi «Ettelaat»ın toruna düşmüş Elsevəri gülərüzlə qarşıladı. Əyləşməyə yer göstərdi, meyvəyə qonaq etdi. Sonra Mehdi Kilmaniyə zəng vurdu. Farsca uzun-uzadı danışdılar. Dəstəyi yerə qoyandan sonra mənalı-mənalı Elsevəri süzdü: «Mehdi səndən yaman razılıq edir. Səni tikinti şirkətimə işə götürürəm». Lakin sabiq Azərbaycan əsgəri İrandakı inşaat

meydançasında bir gün də olsa, fəhləlik edə bilmədi. Onu daha «mühüm» missiya gözləyirdi.

Ertəsi gün Elsevəri təcili «Ettelaat»ın Culfa şöbəsinə çağırdılar: «Ağayi-rəis Azərbaycan əsgəri ilə görüşmək istəyir». Qaça-qaça getdi. Hündür daş hasara alınmış həyətin qarşısında dayandı. Qapının ağzında əlisilahlı zəhmli əsgərlər də dayanmışdılar. Elsevərin kimliyini soruşub içəri buraxdılar. Onu gözləyən, yenidən sorğu-suala tutacaq adam isə əvvəlki yazıdan tanış olan «qəhrəmanımız» - «Ettelaat»ın polkovniki Hacı Əli Şeyxlu idi!

Elsevərə psixoloji cəhətdən daha güclü təsir etmək üçün polkovnik hərbi paltarını geyinmişdi. Fərarini çox mehribanlıqla qarşıladı. Bəs, bağlı qapılar arxasında söhbət nədən getdi? Elsevər ifadəsində bu barədə də yazır: ***«...Sorğu-sual əsnasında Şeyxlu mənim Hafizə verdiyim bütün məlumatlardan xəbərdar olduğunu söylədi. Dedi ki, ev sarıdan korluq çəkməyəcəksən. «Hələlik Ələmdar kəndindəki «Deraşxin» hotelində qal. Şəraitin pis olmayacaq. Həmin hoteldə yaşadığın müddət ərzində fikir ver, islam qanunlarına zidd hərəkət etmiş şəxslər barədə məlumat toplayıb mənə çatdır». Hacı Əli şəxsi telefon nömrəsini də (33-00) yazıb mənə uzatdı...».***

O tayın ucqar kəndində mehmanxanasında süpürgəçilik və cuğulluq edən «Azərbaycan əsgərinin» İranın xeyrinə casusluq fəaliyyəti beləcə başlandı. Əslinə qalsa, bunun özü Elsevər üçün imtahan idi. Şeyxlu fərəridən çuğul kimi istifadə etməklə, ilk növbədə onun etibarlılığını, bacarığını yoxlayırdı. Bəri başdan deyək ki, Elsevər bu imtahandan «əla» qiymət aldı...

1997-ci ilin iyun ayının əvvəllərində baş verənləri isə Elsevər ifadəsində belə xatırlayır: ***«...Bir gün Şeyxlu məni «Ettelaat»ın Culfa şöbəsinin rəis müavini Mussəli ilə görüşdürdü. Mussəli mənim dilimdən farsca***

***iltizamnamə yazdı və mətni Azərbaycan dilinə çevirib oxudu. Təxmini məzmunu belə idi: «Mən E.H.Məlikov hazırda İran İslam Respublikasının vətəndaşlığını qəbul etmək istəyirəm və bu gündən etibarən İran dövlətinin mənafeyini, ərazi bütövlüyünü qoruyacağıma, xüsusilə, Azərbaycan və Türkiyə dövlətlərindən əhəmiyyətli məlumatlar toplayıb «Ettelaat»a çatdıracağıma, İranın mənə məlum olan dövlət və ya hərbi sirlərini başqa dövlətə verməyəcəyimə and içirəm. İltizamnaməni imzaladığım andan «Məlikov Elsevər Həmid oğlu» adını deyil, «Məhərrəm Həmid oğlu Əhmədi» ləqəbini daşıyacağam».***

Bununla da, Azərbaycan «Elsevər» adlı əsgərini həmişəlik itirdi. Onun yerini «Məhhərrəm Əhmədi» ləqəbli xain, İran casusu tutdu. Könüllü olaraq Vətənə xəyanət yolunu seçmiş bu gənci Mussəli də, Şeyxlu da təbrik etdilər. Bir neçə gündən sonra «Məhərrəm Əhmədi» Təbrizdə - «Ettelaat»ın Cənubi Azərbaycan üzrə idarəsində peyda oldu. Onu buraya Mussəli gətirmişdi. Amma Elsevər yolboyu nə qədər soruşsa da, səbəbini deməmişdi. Halbuki «Məhhərrəm Əhmədi»yə münasibət çox dəyişmişdi. Səliqəli üst-başı, cibinin də kifayət qədər pulu vardı. Hörmətlə «ağayi Əhmədi» deyə çağırırdılar. Təbii ki, Elsevər «bir gecəlik xəlifəliyindən» çox məmnun idi.

Qəbul otağında beş-on dəqiqə gözləyib içəri girdilər. Kabinetdə yuxarı başda oturanı görəndə «Məhərrəm Əhmədi»ni heyrət götürdü. Bu, Hacı Əli Şeyxlu idi! Sən demə, Elsevəri ələ almaq, casusluğa cəlb etmək üçün Poldəşt yeməkxanasından başlanan bütün əməliyyatlara bilavasitə o başçılıq edirmiş! Şeyxlu himayəyə götürdüyü perspektivli casusu təbəssümlə qarşıladı. Yazdığı iltizamnaməni ucadan oxudu, bəyəndi, üstünə dərkənar qoyub möhürünü vurdu. Sonra məmnun-məmnun əlavə etdi: «Ağayi Əhmədi, Vallah, bundan sonra sənə zaval

yoxdur!» Milli Ordudan qaçıb əsgər dostlarını düşmənlə tək qoyan, hərbi intizamı yadırğayan Elsevər özü də hiss etmədən təzə rəisinin qarşısında farağat vəziyyətində durmuşdu. Yeni əməkdaşının zirəkliyindən, canfəşanlığından razı qalan Şeyxlu əməliyyat vaxtınadək bekar qalmasın deyə, onu Culfaya qaytardı. Az sonra «Məhərrəm Əhmədi» şəhərdəki ucuz «Araz» mehmanxanasında özünə layiq «nüfuzlu» işlə təmin olundu: Otaqları süpürməyə başladı.

Bir ay da belə keçdi. Qəflətən «Məhərrəm Əhmədi» yenidən Təbrizə çağırıldı: «Hacı Əli Şeyxlu səni görmək istəyir». Bu dəfə Elsevər rəisin kabinetinə qorxa-qorxa deyil, şux addımlarla, əsgəri yerişlə daxil olub Şeyxlunun qarşısında dayandı. «Maşallah, özünü doğruldursan. Hazırlaş, tezliklə tapşırıq alıb Naxçıvana qayıdacaqsan. Get qonşu otağa, Mussəli səni gözləyir. Nə lazımdırsa, deyəcək».

Mussəli ilə söhbət çox çəkmədi. Hər ikisi üçüncü adamın - «Ettelaat»ın Təbriz idarəsində rəis müavini ağayi Purmuxtarın yanına getdilər. O da Elsevərə bir-iki sual verib kiməsə zəng vurdu. Bir qədər keçmiş içəri girən Seyid Zallu adlı bir hərbçi «Məhərrəm Əhmədi»ni yenidən Culfaya – xüsusi təyinatlı məxfi hərbi hissəyə - «Niru-ye-entezame-ettelaat»a gətirdi. İranın xüsusi xidmət orqanlarının peşəkar casus məktəbi sayılan bu hissədə «Məhərrəm Əhmədi» xüsusi təlim keçməli idi. Məşğələlər elə həmin gün başlandı. Elsevərə ayrıca müəllim dərs deyirdi. Sübh tezdən axşamadək ona casusluğun əlifbası – yad adamlara yanaşıb qısa vaxt ərzində ünsiyyət yaratmaq, onları müəyyən əməliyyatların icrasına cəlb etmək, şübhə doğurmadan kəşfiyyat xarakterli məlumat toplayıb ötürmək üsulları, eləcə də müxtəlif silahlardan sərrast atəş açmaq, əlbəyaxa döyüşdə qalib çıxmaq öyrədildi...

Avqustun12-də dərslər başa çatdı. Elsevər imtahan edildi. Bəyəndilər. Sonra gözlərini bağlayıb harayasa apardılar. Xeyli yol getdilər. Bir binaya daxil olub pilləkənlə yuxarı qalxdılar. Yalnız otaqların birində gözlərini açdılar. Elsevər - «Məhərrəm Əhmədi» otaqda baş verənləri belə təsvir edir: ***«...Stolun arxasında tanımadığım bir zabit oturmuşdu. Məni buraya gətirənlər onunla ehtiyatla danışır, qımıldanmağa cəsarət etmirdilər. Təzə rəis çoxdanışan deyildi. Birbaş mətləbə keçdi: «Səni xüsusi tapşırıqla Naxçıvana göndəririk. Sərhədçilərə təhvil verəcəyik: Sərhəd pozan kimi! Heç nədən narahat olma, bir qədər incidib buraxacaqlar. Çünki o tayda deyəcəksən ki, guya dini təhsil alıb İrandan qayıdan tələbəsən. Sənədlərini soruşsalar, de ki, yolda itirmisən. Qoy konsulluğumuza müraciət etsinlər. Onları xəbərdar etmişik. İranda «oxumağın» barədə kağız verəcəklər. Tapşırığımız isə budur: Sən sərhəd dəstəsində saxlandığın zaman oradakı ümumi vəziyyəti, şəxsi heyətin sayını, diviza komandirinin ünvanını öyrənməlisən. Buraxıldıqdan sonra İran kəşfiyyatçılarının «N» saylı hərbi hissəyə haradan və necə daxil ola bilməsini müəyyənləşdirməlisən. Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyi, İranla Naxçıvan arasında olan sərhədin zəif qorunan yerləri barədə də məlumat toplamalısan. Bundan başqa, Naxçıvanla Ermənistan sərhədi boyu ağır texnikanın, artilleriyanın mövqeyini dəqiqləşdirməlisən. Bu məlumatları əldə edən kimi konsulun köməyi ilə sentyabr ayının sonunda ləngimədən İrana qayıtmalısan». Adını bilmədiyim rəis, üstəlik, məni hədələdi: «Əgər bizi satsan, harada gizlənsən də, tapıb öldürəcəyik!» Sonra əlavə etdi: «İmkan yaranan kimi İran kəşfiyyatçıları Naxçıvana göndəriləcəklər. Orada olan öz adamlarımızın köməyi***

***ilə dövlət çevrilişi edib Naxçıvanı İrana birləşdirəcəyik. Hər şey yaxşı qurtarsa, sənə yaxşı vəzifə verəcəyik...».***

Elə zənn etməyin ki, bu xəbərdən sonra Elsevər sarsılmış, hansı oyuna girdiyini anlamış, Vətənini gözləyən təhlükəli aksiyada iştirak etməkdən çəkinmişdir. Xeyr, Elsevər «hərdəmxəyal» adamlardan deyil! Pul, vəzifə hərisliyi Vətən məhəbbətinə üstün gəldi. Var qüvvəsi ilə bu əməliyyata kömək edəcəyinə söz verdi.

İki gün sonra sərhədi pozub Naxçıvana gedəcəkdi. Hələlik isə hər gün ismi-pünhan rəislə görüşürdü. Bu dəfə «Məhərrəm Əhmədi»ni şəxsən onun özü təlimatlandırırdı. «Həbsdən» tutmuş «dindirməyədək» ehtimal olunan müxtəlif situasiyalar yaradır və vəziyyətdən çıxış yollarını göstərirdi. Onu da deyirdi ki, sərhəd dəstəsində tutulub-buraxılan kimi İranın Naxçıvandakı konsulluğu ilə əlaqə saxlamalıdır. Konsulun qəbuluna düşən «Məhərrəm Əhmədi» ya Mussəli, ya da ki, «Niru-ye-Entezame-Ettelaat»ın rəisi tərəfindən göndərildiyini ona deməlidir. Konsul, öz növbəsində, casus üçün lazımi sənədlər hazırlayacaq, Elsevərin maddi problemlərini həll edəcəkdir.

Əməliyyatın təyin olunduğu gün - avqustun 14-ü gəlib çatdı. Sərbazlar «Məhərrəm Əhmədi»ni qabaqlarına qatıb sərhədə gətirdilər. «Qaçaq yolla İrana gəlib» - deyərək sərhədçilərimizə təhvil verdilər. Elsevər ilk dindirmədə özünü yazıq günə salıb ağlaya-ağlaya İranda molla məktəbində oxuduğundan, kasıb tələbə olduğundan danışdı. Zənn etdi ki, məşğələlərdə öyrəndikləri köməyinə çatacaq. «Bəs sənədlərin hanı?» - sualına da «təlimata» əsasən cavab verdi: «Vallah, evə dönəndə yolda itirmişəm. İstəyirsinizsə, İranın konsulundan soruşun. Tələbə olduğumu sizə o deyər»...

Sərhədçilərin konsulluğa getmələrinə ehtiyac qalmadı. Çünki Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları

cildini dəyişmiş casusun kim olduğunu çoxdan bilir, xeyli vaxt idi ki, Naxçıvanda «zühur etməsini» gözləyirdilər. «Məhərrəm Əhmədi» fakt qarşısında aciz qaldı. Bircə söz dedi: «Bədbəxt oldum!»

İranın Azərbaycana göndərdiyi casus təxribat törədə, kəşfiyyat apara bilmədi. «Ettelaat»ın onu sərhədçilərə «təhvil verdiyi» günün axşamı ifşa olundu. Barəsində cinayət işi qaldırıldı. Məhkəmənin hökmü ilə Vətənə xəyanətdə və hərbi hissəni özbaşına tərk etməkdə ittiham olunan Elsevər Məlikov on iki il müddətinə azadlıqdan məhrum edildi. Yəqin, indi dəmir barmaqlıqlar arxasında həm daşımağa layiq olmadığı adının mənası, həm də Azərbaycana «müsəlman qardaşım» - deyib onun vətəndaşlarını casusluğa, xəyanətə cəlb edən «Ettelaat»ın əməlləri barədə düşünüb-daşınmağa vaxtı çatar.

## Uçuruma doğru

> ***«Onlar doğru yol əvəzinə əyri yolu satın almış kəslərdir. Onların alveri xeyir gətirmədi və haqq yolu da tapmadılar».***
>
> ***Qurani-Kərim, «əl-Bəqərə» surəsi.***

...XVI əsr holland rəngkarlıq məktəbinin nümayəndəsi Piter Breygel ömrünün qürub çağında kətan arxasına keçib ötənləri-keçənləri, hədər getmiş insan talelərini bir daha xatırladı. Həyatı boyu sərvət və səfalət, şöhrət və rəzalət, sədaqət və xəyanət görmüş müdrik rəssam, nəhayət fırçasını əlinə alıb bütün dövrlərə, bütün insanlara vəsiyyətini - «Korlar» əsərini yaratdı: Tufanlı havada ümidlə əllərini bir-birinin çiyninə qoymuş bir dəstə kor dilənçi ensiz cığırla uçuruma doğru addımlayır. Onlara bələdçilik edən də dünya işığına həsrətdir. Arxasınca gələnlər isə talelərini onun ixtiyarına vermişlər. Kor bələdçi büdrəyib müvazinətini itirir... Bir neçə saniyədən sonra o uçuruma yuvarlanacaq, digər korları da qorxunc dərənin dibinə sürükləyəcəkdir.

Azərbaycan əhalisinin heç də hamısının Breygelin bu tablosu ilə tanışlığı vacib deyil. Çünki rəssamın şah əsərinin mahiyyətini müdrik atalarımızın bir misalı tam dolğunluğu ilə əvəz edir: «Cəhənnəmə gedən özünə yoldaş axtarar»...

Cəlilabadda baş vermiş hadisənin ötəri məzmunu

belədir: Rayonun sakini Telman Əliyev günlərin birində sərhədçilərə rüşvət verib qaçaq yolla İrana keçmiş, orada saxta ABŞ dollarları alıb geriyə qayıtmışdır. Bir müddət sonra əskinasları Bakıda yarı qiymətə satmaq istərkən MTN əməkdaşları tərəfindən yaxalanmışdır. Saxta dolların izinə düşən istintaq qrupu bu işdə xeyli adamın bilavasitə və ya qismən əli olduğunu, dolaşıq kələfin bir ucunun hərlənib-fırlanıb İranın xüsusi xidmət orqanlarına, onun Azərbaycanda yaratdığı növbəti casus şəbəkəsinə bağlandığını müəyyənləşdirmişdir. Beləliklə, Azərbaycanın doqquz vətəndaşı, o cümlədən vəzifə borcu sərhədlərimizi qorumaq olan bir rüşvətxor zabit yaxalanaraq məhkəmənin hökmü ilə müxtəlif müddətə azadlıqdan məhrum edilmişlər.

Qısa qəzet xəbəri üçün bu fakt kifayət edər. Amma inanmırıq ki, Həmin məlumatdan dərhal sonra sərhədlərimiz daha da möhkəmlənəcək, qaçaqmalçılar, casuslar, rüşvətxorlar tövbə edib düz yola qayıdacaqlar. Nə qədər səy göstərsək də, sərhəd olaylarının xoşbəxt sonluqla qurtaracağı günə hələ çox var! Bədbinliyə qapılmırıq. Bu, günümüzün reallığıdır. Çünki əvvəllər olduğu kimi, indi də diqqəti hər hansı bir prosesin, hadisənin səbəbindən yayındıraraq nəticəsini araşdırmış və ona əsaslanıb mahiyyətinə qiymət vermişik. Halbuki istənilən cinayət əməlinə qarşı mübarizə apararkən hədəf ilk növbədə onu yaradan səbəb, şərait olmalıdır. Odur ki, yuxarıda haqqında qısaca bəhs etdiyimiz hadisənin «nöqtəsini» qoymağa tələsməyək. İmkan daxilində ağır nəticələrin gizli səbəblərini çözələyək...

Mübahisə hüquqşünasların stixiyasıdır. Odur ki, etiraz etsələr də, əsaslı dəlillər gətirsələr də, hər bir vicdanlı vətəndaş üçün qaçaqmalçılıqla casusluğun mahiyyəti birdir. Çünki biri ölkənin sərvətini talayıb xaricə daşıyır, digəri isə məmləkətin müdafiə qüdrətinə zərbə vurub

sirrini bədniyyətlilərə satır. Buna görə də «qəhrəmanlarımız» - sərvətlərimizi karvan-karvan daşıyan qaçaqmalçılar, rüşvətxor zabit və casuslar arasında əhəmiyyətli fərq qoymayıb hamısını cəmləyib Ədalət tərəzisinin eyni gözündə yerləşdirək. Zəncirbənd kimi bir-birinə bağlı olan cinayətlərin hüquqi və mənəvi mahiyyəti arasında səddi götürüb tamahları ucundan xəyanət uçurumuna yuvarlanan «baxar korların» əməllərinə bir daha qiymət verək.

Cinayətin birinci «qəhrəmanı», Cəlilabad rayonu Cəfərli kəndinin 28 yaşlı sakini, heç yerdə işləməyən Telman Əliyevin alverdə əli gətirmirdi. Borca düşmüşdü. Aldatdığı adamlar, o cümlədən qohumları gecə-gündüz qapısının ağzını kəsdirir, pullarını geri tələb edirdilər. Telman tanışdan-bilişdən eşitmişdi ki, İrandan saxta dollar gətirib burada yarı qiymətə xırıd etmək alverin ən asan və «təhlükəsiz» üsuludur. Hətta o taylı şəriki – Germi şəhərinin Hadıbəyli kəndində yaşayan 60 yaşlı Əlisəftər Lütfi də bir dəfə ağızucu demişdi ki, əgər saxta dollar alverinə meyli çəksə, mütləq ona kömək edəcək. Odur ki, Telman 1997-ci ilin iyulunda belə qərara gəldi ki, o da Cəlilabad qaçaqmalçılarının «xaç atası», el arasında «Dollar Mişa» adı ilə tanınan Mikayıl Quliyevin kabinetinin kandarını kəsdirsin. «Dollar Mişa»nın o tayda da, bu tayda da imkanları geniş idi. İran sərhədçiləri ilə də «işgüzar» münasibəti var. Yaxşı qazanır, Hətta qardaşı qızının toyunda yüz dollarlıq əskinasları rəqs edənlərin başı üstünə xəzəl kimi səpməsini Cəlilabadda bilməyən yoxdur. Mikayılın qaçaq yolla İrana adam keçirmək səriştəsinə çoxları qibtə edirdi. Əslinə qalsa, qibtə etməyə, həsəd aparmağa dəyməzdi. Çünki baş leytenant Mikayıl Quliyev «N» saylı zastavanın rəisi idi və rəis kimi Azərbaycanın İranla sərhədinin bir hissəsinin mühafizəsi ona tapşırılmışdı. O da yaxşıca «qoruyurdu»! Vətənin toxunulmazlığını rüşvətə satıb qaçaqmalçıları himayə edir,

gizli yolla karvan-karvan mal aparmağa, casusların maneəsiz gediş-gəlişinə şərait yaradırdı. Bu barədə bir qədər sonra danışacağıq...

«Dollar Mişa» Telmanın könlünü qırmadı. Nə üçün gəldiyini eşidən kimi «həri»sini verdi. Telmandan yüz dollar alıb özünə yaxın bildiyi əsgərləri otağına çağırdı. Və həmin gecə saat 22-də Telman Əliyev əsgərlərin köməyi ilə sərhədi adlayıb o taya keçdi. Gecəni Hadıbəyli kəndində, Əlisəftərgildə qaldı. Ertəsi gün Əlisəftər kişi ona 35 ədəd yüz dollarlıq saxta əskinas verib geri yola saldı. Şərtləri də belə oldu: Telman nə qazanacaqdısa, onun qırx faizini Əlisəftərə çatdırmalıdır.

Böyük ümidlə Cəlilabada qayıdan Telman kənddə ləngimədi. Əlibayramlıya, bacısıgilə getdi. Bacısının əri Damətə min dollar borcu vardı və pul üstündə aralarında söz-söhbət olmuşdu. İndi Telman «kişi» kimi borcu qaytara bilərdi. Amma Damət barmaqlarını əskinaslara sürtən kimi «saxtadır» - dedi. Az qala yenə dalaşacaqdılar. Barışıq yolunu Telman tapdı: «Gedək bu pulları bazarda sataq. Qazansaq, borcunu artıqlaması ilə qaytararam». Razılaşdılar. Lakin bazarda risk edib saxta dollarlara müştəri çıxan tapılmadı. Və Telman bacısı ərindən inciyib kor-peşman Cəlilabada döndü (yeri gəlmişkən, sonralar başqa bir cinayətdə əli olduğuna görə Damət Əmirov da məsuliyyətə cəlb ediləcəkdir).

Bu dəfə Telman üzünü başqa qohumuna - Niyaməddin Məmmədova tutdu. «Dollar Mişa»nın daimi müştərisi olan Niyaməddin «pul» kəlməsini eşidən kimi dərhal razılaşdı. Üstəlik, həm şirinlik, həm də «nümunə» kimi bir əskinas da alıb evdə yorğan-deşəyin arasında gizlətdi. Lakin Niyaməddinin də dollar alverində bəxti gətirmədi. Telman Əliyev avqustun 26-da saat 18.10-da Bakının «Sevinc» kafesində saxta əskinasları Saleh adlı «müştəriyə» sırımaq istərkən yaxalandı. İstintaq zamanı

yalan ifadə verməyə çox çalışdı. Amma səyi əbəs idi. Çünki təkcə Telmanın bildikləri deyil, hətta bilmədikləri də MTN-ə çoxdan məlum idi. Az sonra Niyaməddin həbs olunub dindirildi. Məlum oldu ki, onun özü də «az aşın duzu» deyilmiş! Sərhədi pozub dəfələrlə İrana mal keçirmiş, hətta bir dəfə sərhədçilərimiz tərəfindən yaxalanmış, məhkəmə şərti olaraq onu üç il müddətinə azadlıqdan məhrum etmişdi. Ən maraqlısı da budur ki, Niyaməddin cəzasını Masallı rayonundakı xüsusi komendaturada çəkməli olduğu halda, oranı «özbaşına» tərk etmiş, bir daha geri qayıtmamışdı! Dustağın «yoxa çıxması» xəbərini isə komendatura, sən demə, Niyaməddin saxta dollar üstündə yaxalananda eşidib (?). Halbuki cəlilabadlı «Monto-Kristo» həbs olunanadək bir neçə dəfə alver üçün o taya keçib qayıda bilmişdi.

İrana son yürüşündə, yəni 1997-ci ilin yanvarında Niyaməddin başqa bir qohumunu - Rəfail İbişovu da özünə qoşmuşdu. Rəfail də qaçaqmalçılıqda səriştəsi olanlardan idi. Elə ay olmazdı ki, at belinə yüklənmiş minlərlə qutu siqareti o taya keçirməsin. Bu dəfə hər iki qohum Germidə satmaq niyyəti ilə tərkibində qızıl və gümüş olan elektrik cihazları əldə etmişdilər. Lakin müştəri axtarıb cihazları satmaq istəyərkən yaxalanmış və İranın xüsusi xidmət orqanının - «Ettelaat»ın təcridxanasına salınmışdılar. Yalnız on .altı gündən sonra Rəfailin atası İmanqulu İbişovun «fövqəladə» qüdrəti (!) sayəsində müəmmalı surətdə azadlığa çıxa bilmişdilər (Tələsməyin, onların «İran macəraları» ilə az sonra ətraflı tanış olacaqsınız).

Elə ilk dindirmədən məlum oldu ki, bu «Hacıqara»-lar da sərhədi «Dollar Mişa»nın xeyir-duası ilə adlamışlar. Beləliklə, indi istintaqa cəlb edilmək növbəsi baş leytenant Mikayıl Quliyevə də çatdı. Aydın məsələdir ki, əvvəlcə qaçaqmalçılarla olan əlaqələrindən, onları qanadı

altına almasından imtina etdi. Hətta bütün bunları «vicdanlı Azərbaycan sərhədçisinin» ünvanına atılan böhtan adlandırdı! Lakin üzləşmələrdən sonra cinayəti etiraf etməkdən başqa yolu qalmadı.

«Dollar Mişa» sərhədin «N» zastavasının ərazisindən keçən hissəsini əsl qazanc mənbəyinə çevirmiş, sözün qısası, «özəlləşdirmişdi». Daha dəqiq desək, Mikayıl Quliyevin, «vicdanlı sərhədçinin» tamahkarlığı sayəsində ölkə hüdudlarının bir parçası tamamilə nəzarətsiz qalmışdı. İş burasındadır ki, əvvəllər də elə gün olmazdı ki, qaçaqmalçılar, narkokuryerlər oradan İrana və geriyə adlamasınlar, Mikayıl üçün əlavə qayğı, başağrısı yaratmasınlar. Təbiidir ki, buna görə məsuliyyəti səriştəsiz və sərhəd qoşunlarında təsadüfi adam olan Mikayıl Quliyev daşıyırdı. Danlaq və tənbehlərdən bezən baş leytenant axırda «bir güllə ilə iki dovşan vurmaq» qərarına gəldi: Cəlilabadın sayılan qaçaqmalçılarını cəmləyib bir yerdən o taya xəlvəti keçirməklə yaxşı pul qazana, digər tərəfdən, hesabatlarda bu zastavanın ərazisindən sərhədin pozulması hallarının kəskin şəkildə «azaldığına» görə minnətdarlıq da eşidə bilərdi.

Beləliklə, 1996-cı ildə Mikayıl «özəlləşdirmə aksiyasını» gerçəkləşdirdi. Cəlilabadda adla çağırılan alverçilərdən Məlikqasımlı kənd məktəbinin müəllimi Tofiq Mehdiyevi, «Cəfərli» kiçik müəssisəsinin direktoru Mahmud Abbasovu və əvvəllər məhkum olmuş Sabir Məmmədovu özünə köməkçi tutdu. Kəndbəkənd gəzib müştəri toplayan, beh yığan bu üç adamın vasitəsilə bütün qaçaqmalçılar Mikayıl Quliyevin «bığının altından keçib» razılığını alır, dollar payını payını bəri başdan ödədikdən sonra «Xaraba post» deyilən yerdən o taya keçirdilər. Təbiidir ki, Tofiq, Mahmud və Sabir də bu qazancdan öz «faizlərini» götürürdülər. İstintaqa məlum olan 10-dək qaçaqmalçıya bir neçə ay ərzində göstəridiyi xidmətə

görə Mikayılın qazancı 3040 dollar olmuşdu. Beləliklə, qısa vaxt ərzində baş leytenant Mikayıl Quliyev dönüb «Dollar Mişa» oldu....

Sərhəddə «açıq qapı günləri» xeyli davam etdi. «Dollar Mişa»nın şərtinə əsasən, gecə saat 22-dən saat 3-dək etibar etdiyi əsgər və zabitlər «Xaraba post» deyilən yerə göndərilir, burada qaçaqmalçılar qarşılanır, yüklərinin daşınmasına kömək edilir və İrana yola salınırdılar. «Dollar Mişa»nın İran sərhədçiləri və qaçaqmalçıları ilə əlbir olması barədə də sübutlar var: O taydakı Ağahəsənbəyli və Səmədli kəndlərinin sakinləri Mövsüm, Mərhəmət, Əlirza, İman, Nəcəf və başqaları, eləcə də Mikayıl xislətli sərbazlar «Xarabapost» keçidinin İran tərəfindən təhlükəsizliyinə təminat verirdilər. İş o yerə çatmışdı ki, əgər İran və ya Azərbaycanda qaçaqmalçıları hər hansı bir təhlükə gözləyirdisə, qarşı tərəf dərhal tonqal qalamaqla və ya atəşlə xəbərdarlıq edirdilər. Nəticədə, xata sovuşana kimi Mikayılın keçidi «üzrlü səbəblərə görə» müvəqqəti bağlanırdı...

Belə bir sual doğur: Görəsən, İran sərhədçiləri nə üçün Mikayıl Quliyevin əməllərinə göz yumurdular? Bu, biganəlikdən və ya «ürək genişliyindən» irəli gəlirdi. Əslinə qalsa, «Dollar Mişa» onlar üçün çox sərfəli idi. Çünki «vicdanlı Azərbaycan sərhədçisi» İranın xüsusi xidmət orqanlarının ölkəmizdə casus əməliyyatları keçirməsi üçün əlverişli şərait yaradırdı. Məhz buna görə də xəbərdarlıq etməyə, sərhəddə nəzarəti gücləndirməyə qətiyyən tələsmirdilər. Təsadüfi deyildir ki, İranda ələ keçən qaçaqmalçılarımızın hər birindən «Dollar Mişa»nın əhvalını xəbər almağı unutmurdular...

İndi də hadisənin ən dramatik hissəsinə qayıdaq: Bayaq qeyd etdiyimiz kimi, 1997-ci ilin yanvarında Rəfail İbişov və Niyaməddin Məmmədov İranda elektrik cihazları satmaq istəyərkən yaxalanmış və «Ettelaat»ın

təcridxanasına salınmışdılar. Bu xəbər dərhal bütün Cəlilabada yayıldı. Rəfailin atası İmanqulu kişi özünü odaközə vurdu. Bir yandan, oğlunun həbsi, digər tərəfdən, xeyli pulun əldən getməsi ona yer eləmişdi. Heç olmasa, oğlunu xilas etmək üçün qaçaq yolla o taya keçdi. «Dollar Mişa» sərhədin qapılarını «zavallı» atanın üzünə açdı.

İmanqulu oğlunu soraqlaya-soraqlaya Germi şəhərini xeyli dolaşdı. Kimə yaxınlaşsın, dərdini kimə desin? Əli hər yerdən üzüləndə Əminnağını gördü. Əminnağı Germinin Ağahəsənbəyli kəndindən idi. Azərbaycandan İrana keçənlərin hamısının yolu bu kənddən keçirdi. Odur ki, həm o taylılar, həm bu taylılar bir-birini yaxşı tanıyır, alverdə əl tuturdular. Köhnə tanışı İmanquluya təskinlik verdi: «Darıxma, mən işi yoluna qoyaram».

Ertəsi gün sübh tezdən Əminnağı onu birbaş «Ettelaat»ın binası qarşısına gətirdi. Nigarançılıqdan bir yerdə qərar tutmayan İmanqulunu küçədə tək qoyub içəri keçdi. Kimə nə deyib, nə eşitdiyi bəlli deyil. Hətta İmanqulu binanın üst mərtəbəsindəki pəncərədən İranlı tanışı ilə bir hərbçinin ona sarı boylandığını da görmədi.

Əminnağı çox ləngimədi. Bir azdan həmin zabitlə küçəyə çıxdı. İmanqulu onları görən kimi qabaqlarına yüyürdü, zabitlə ikiəlli görüşdü. Əminnağı: «Ağayi Rəşidi, tutulan uşağın atası budur», - dedi. Rəşidi yazıq bir görkəm almış İmanqulunu diqqətlə süzüb başını buladı: «Get, sabah bu vaxtı gələrsən».

«Sabah bu vaxtı», yəni yanvarın 10-u, saat doqquz tamamda Rəşidi yerində tapılmadı. İmanqulu buraya tək gəldiyi üçün özünü çox danladı. Əlacsız qalıb içəri xəbər göndərdi. Qəflətən qapının ağzında iki zabit görünüb əlləri ilə onu yaxına çağırdılar: «Rəfailin atası sənsənmi?». Qorxusundan sarılığını udan İmanqulu başı ilə təsdiqlədi. «Rəşidi iş dalınca gedib. Səni bizə tapşırıb». İki əsgər İbişovu qabaqlarına qatıb binanın içərisinə,

həbsxanaya bənzər otağa saldılar. «Gözlə!» - dedilər. Az sonra bayaqkı zabitlər şəstlə içəri girib İmanqulunun sağ-solunda əyləşdilər: «hə, indi de görək niyə gəlmisən?» İbişov doluxsundu və Cəlilabaddan üzübəri ürəyində az qala min dəfə təkrarladığı, əzbərlədiyi «vaqeəni» danışdı. Bir gözü zabitlərdə idi. Amma, deyəsən, İmanqulunun dərdi onların tükünü də tərpətmirdi. Zabitlərdən biri İbişovun sözünü yarımçıq kəsdi, «Xub» deyib telefona yaxınlaşdı. Kiməsə zəng vurdu. İmanqulunun qulaqları bircə «Özü buradadır» kəlmələrini çaldı. Sonra qapının ağzında duran sərbazı çağırdılar. Əsgər çaş qalmış İmanqulunu binadan çıxarıb yaxınlıqdakı kazarmaya gətirdi. Darısqal, kiçik pəncərəsi dəmir barmaqlıqla örtülmüş otağa salıb qapısını arxadan bağladı. Kilidin səsini eşidəndə İbişovun nəfəsi daraldı: «Boynun sınsın, ay oğul, axır məni də tutdurdun!» Gurultu ilə yanan qaz sobasının yanındakı kətilə çökdü. Cibindən kirli yaylığını çıxarıb gözlərinin nəmini sildi. Qəflətən qulaqlarını şəklədi. Uzun dəhlizdən nallı ayaqqabıların get-gedə yaxınlaşan səsi eşidilirdi. Köhnə qapı cırıltı ilə açıldı. İçəriyə daxil olan sarışın zabit salamsız-kalamsız İmanqulunun qənşərində oturdu. Əlində dəftər-qələm tutmuşdu. Bayaqkı suallar yenidən təkrar olundu. Cavablar sarışını qane etməyəndə hədələyir, «Düzünü de, onsuz da, hər şeyi bilirik!» - deyirdi. Suallar isə bir deyil, iki deyildi. İbişovun ailə üzvlərinin sayından tutmuş, kimin nə vaxt doğulduğu, evli və ya subay olduğu, təhsili, iş yeri, maaşı, hətta «Dollar Mişa»nın açdığı keçidin tarixcəsi də dəftərə düşdü. «Oğlumun işi nə təhər olacaq?» - deyə İmanqulu qorxa-qorxa soruşdu. İbişovun pasportunu dəftərinin arasına qoyan zabit tərs-tərs ona baxdı: «Gedə bilərsən, iki gündən sonra səni gözləyirəm».

«Ettelaat» iki günlük fasilədən səmərəli istifadə etdi. Cəlilabaddakı agentura

şəbəkəsinə xəbər göndərib İbişovun dedikləri ilə həqiqəti tutuşdurdu. Hətta kiminlə oturub-durduğundan, xasiyyətindən xəbərdar oldu. Amma, bu iki gün ərzində İmanqulunun nələr çəkdiyini bir olan Allah bilir!

Vaxt tamam olanda yenidən kazarmaya gəldi. Lakin bu dəfə sərbazlar onu darısqal kameraya deyil, geniş, işıqlı otağa çəkdilər. İçəridə iki zabit əyləşmişdi. Srağa gün İbişovu məhşər ayağına çəkən sarışın da burada idi. Masanın arxasında oturmuş qarabuğdayı zabit onu mehribanlıqla salamladı. Tanış oldular. Sarışının soyadı Mahmudi, digərininki isə Hatəvi idi.



***İmanqulu İbişov İrana Qaçaq yolla aparmaq üçün gizlətdikləri minaaxtaranları MTN əməkdaşlarına təhvil verir***

Hatəvi çay gətizdirib kənddən-kəsəkdən, dolanışıqdan söz açdı. «Girişdən» sonra dəftərini açdı: «hə, indi keçək mətləbə!». İmanqulu Rəfail və Niyaməddinin əhvalatını bir də danışdı. Axırda da xahiş etdi: «Uşaqdırlar, qanmayıblar, siz Allah, buraxın, bir də bu tərəflərdə görünməzlər!» Hatəvi bu sözləri eşitcək səsini qaldırdı: «Nə danışırsan? Bilmirsən ki, qaçaqmalçılıq edəni İranda nə cəza gözləyir?» İmanqulunun dili-dodağı qurudu. Bayaqkı dilavərliyindən, cəsarətindən əsər-əlamət qalmadı. Donuq baxışlarını Hatəviyə dikdi. Zabit, deyəsən, istəyinə nail olmuşdu: «Yazıq adamsan, sənə kömək etmək istəyirəm. Mahmudiyə tapşırmışam. O nə lazımdır edəcək. Amma gərək ona qulaq asasan». İşin düzəldiyinə sevinən İmanqulu ürəkləndi: «hər nə desə, qulluğunda hazıram!» Bu sözlərdən sonra Hatəvinin dodağı qaçdı: «Elə isə get, sabah gələrsən».

Bu get-gəllər İbişovu bezdirsə də, uşaqların tezliklə azadlığa buraxılması ümidi, deyəsən, gerçəkləşirdi. Ertəsi gün söhbətə başlayan kimi Mahmudi fürsəti əldən vermədi. Dərhal İmanquludan soruşdu: «Bizə işləmərsənmi?» İbişov duruxdu. «Qorxma, heç kəs bilməyəcək, xeyrin də olacaq!» Mahmudi özünə əziyyət verib İmanqulunu çox dilə tutası olmadı. «Pul» kəlməsini eşidən ağsaqqalın eyni açılmışdı. Razılığını verdi. Ortaya «Ettelaat»ın ələalma vasitələri - Quran və kağız-qələm gəldi. İbişov əvvəlcə Qurana əl basıb and içdi. Və sonra Mahmudinin diktəsi ilə bu sözləri yazdı: ***«Mən, İbişov İmanqulu İsmayıl oğlu «Ettelaat»la əməkdaşlıq etməyə razıyam. Onun verdiyi bütün tapşırıqları yerinə yetirəcəyəm. Bu əməkdaşlıq barədə keç kəsə, hətta ailəmin üzvlərinə də heç nə deməyəcəyəm. Əgər andımı pozsam, Quran mənə qənim olsun».***

İmanqulu öz xoşu ilə «Ettelaat» adlanan əjdahanın cənginə düşdü, öz ölkəsinə, öz xalqına qarşı casusa

çevrildi. Sonralar - Vətənə xəyanət üstündə həbs olunduqdan sonra qohum-tanış içərisində deyəcəklər: «Yazıq İmanqulu, pis övlad onu yaman günə saldı!» Halbuki İbişovun İran kəşfiyyatına cəlb olunmasında «ata-oğul məhəbbətinin» elə bir əhəmiyyəti də yox idi. Məhkəmədə etirafına görə, onu belə addım atmağa vadar edən təkcə «kövrək ata qəlbi» deyil, Mahmudinin vəd verdiyi xoş güzəran olmuşdu. Hələ İranda olarkən, İbişov xəyalında imarət tikdirir, maşın alır, dükan açdırırdı. «Ettelaat» da bunu qabaqcadan bilib onun xislətindən, tamahından incəliklə istifadə etmişdi.

Əslinə qalsa, sərhədi qanunsuz keçən Rəfaili və Niyaməddini İranda həbs deyil, cərimə gözləyirdi. Onlar sərhədi pozub o taya keçən yüzlərlə, bəlkə də minlərlə adamdan biri idilər. «Ettelaat» bu toru heç də yalnız ataya görə hörməmişdi. İmanqulu onun nəzərində əhəmiyyətsiz, səviyyəsiz bir adam, daha vacib şəxsləri cəlb etmək üçün tələ yemi idi. Təsadüfi deyildir ki, Mahmudinin İmanquluya verdiyi ilk tapşırığın əsasını bu «xahiş» təşkil edirdi: «Sizdən bu tərəfə keçənlərin əksəriyyəti savadsız adamlardır. Cəlilabadda «rövşən-fikirlilərdən» - ziyalılardan birini tap. Bir bəhanə ilə aldadıb İrana gətir. Qalanı sənin işin deyil. Onu özümüz əməkdaşlığa cəlb edəcəyik». İmanqulu isə «Bəs mənim xeyrim nə olacaq?» - sualına belə cavab almışdı: «Darıxma, mükafatını alacaqsan!»...

İltizamnaməni imzaladıqdan sonra İbişov kağızı Mahmudiyə uzatdı. Zabit mənalı-mənalı qımışdı: «İndi oldun əziz adamımız!» Sonra telefonun dəstəyini qaldırıb kiminləsə danışdı: «Dünən tapşırdığım uşaqları yola salmağa hazırlayın» - dedi. Üzünü yenə İmanquluya tutdu: «Bir azdan uşaqlarının məhkəməsi olacaq. Heç narahat olma, cərimələrini özüm ödəyəcəm».

Mahmudi təzə casusunu Germinin kənarına –

Nağara kəndinin yaxınlığındakı yol ayrıcına göndərdi. Tapşırdı ki, Rəfail və Niyaməddini orada gözləsin. «Korluq çəkməməsi» üçün Mahmudi ona cibxərcliyi də verdi.

«Ettelaat» sözünün üstündə durdu. Düz iki saatdan sonra Mahmudinin avtomobili yol ayrıcında dayandı. Rəfail ilə Niyaməddin irişə-irişə maşından düşdülər. Mahmudi: «Qüdrətimi gördünmü?» - deyə



***Tofiq Mehdiyev müstəntiqlərə qanunsuz olaraq İrana keçdikləri yolu göstərir***

İmanqulunun çiyinlərini qucaqladı - «Daha buradan o yana mən gedə bilmərəm. Sərhədi özünüz keçəcək-siniz». Sonra cavanlara çımxırdı: «Bir də sizi bu yanlarda görsəm, tutub zindana salacağam. Adam da atasına bu qədər əziyyət verər?!»...

«Düz yola qayıtmış» cavanlar gecəyarı «Dollar Mişa»nın keçidi ilə Cəlilabada qayıtdılar. İmanqulu isə

tələsmədi. Gecəni Əminnağıgildə qaldi: İranda bazarlıq etməyib evə qayıtmaq «kişilikdən» deyildi...

İbişovun uşaqları «İran türməsindən» buraxdırması xəbəri bir anın içində kənd-kəsəyə yayıldı. Dəstə-dəstə gözaydınlığına gələnlərə İbişovun cavabı belə idi: «Sağ olsunlar, yaşıma hörmət etdilər». Amma bir fikir ondan əl çəkmirdi: Görəsən, kimi aldadıb Mahmudinin toruna salsın? Çox axtardı, münasib adam tapa bilmədi. Rayon məhkəməsinin iclas katibi Hüseynağa Rəsulovun da «namizədliyi» keçmədi. İmanquluya qoşulub İrana getməkdən imtina etdi: «Hələ işim çoxdur» deyib onu başından elədi.

1996-cı ilin avqustunda İmanqulu zastava rəisi Mikayıl ilə «halallaşıb» yenidən o taya keçdi. Mahmudinin tapşırdığı kənd siyahılarını və sərhəd postlarının planını aparırdı. Germidə rəisini tapdı. Siyahını verdi, sonra təzə casus cəlb edilməsinin çətinliyini dilə gətirdi. Birlikdə plan fikirləşdilər. Tora düşəsi yeni «obyekt» isə Cəlilabad rayonu icra hakimiyyəti başçısının Mikayıllı kəndi üzrə nümayəndəsi Hacıağa Ağayev oldu. Hacıağa ilə İmanqulu qohum idilər. Yəni Ağayevin qardaşı İmanqulunun qızını almışdı. Bu amil də işin xeyrinə idi. «Əməliyyat oyununa» görə Hacıağanın oğlu İrana keçəndə orada həbs edilməli və ata övladını zindandan qurtarmaq üçün Germidə peyda olanda «Ettelaat» əvvəlki üsulla onu da ələ almalıydı...

1997-ci ilin əvvəlində Mikayıllı kəndinə daha bir xəbər yayıldı: Hacıağanın oğlu Seymur «Xaraba post-dan» İrana getmiş və Germidə yaxalanmışdı. Qohum-qardaş təskinlik üçün Hacıağagilə gəldilər. Bircə İmanqu-ludan savayı! İbişov məqam gözləyirdi. Hacıağa çox vur-nuxdu. Ürəyi qana dönmüşdü. Bir yandan da İmanqu-lunun vasitəsilə yayılan, guya Seymurun kamerada ac saxlanılması, incidilməsi xəbəri onu lap sarsıtmışdı. Axırda əlacı kəsilib İmanqulunun qapısını açdı.

İbişovun Hacıağaya «ürəyi yandı». Rəfailin başına gələnləri bir də ona danışıb kövrəltdi. Axırda da dilləndi: «Qohumuq, bir-birimizə əl tutmalıyıq. Mənim orda bir tanışım var. Hazırlaş, bir yerdə İrana gedək».

Yanvarın 27-də sərhədi keçdilər. İmanqulu ilə Hacıağa yolboyu kəndlərdə ləngiməyib birbaş Germiyə gəldilər. İbişova yaxşı tanış olan «Ettelaat» binasının qarşısındakı xiyabanda əyləşdilər. İmanqulu: «Sən burada otur, bu saat gəlirəm», - deyib özünü binanın içinə saldı. Mahmudi iş yerində yox idi. Tehrana getmiş, iki gündən sonra qayıdacaqdı. «Bəlkə, sonra gələk?» - deyə, Hacıağa geri dönmək istədi: «Nə danışırsan, zorla bu taya keçmişik! Deyirsən, təzədən Mikayıla pul verək?» Kasıb güzəran sürən Hacıağanın israr etməyə dəlili olmadı. Axşamüstü Ərdəbilə üz tutdular. İmanqulunun bir qızı orada ərdə idi. İbişovun fikrincə, iki gün burada Hacıağanı ləngidib başını qatdıqdan sonra yenidən Germiyə gətirə bilərdi.

İki günün tamamında yenidən «Ettelaat»a qayıtdılar. Lakin Seymur təcridxanada yox idi! Bir gün əvvəl onu təcili həbsxanaya aparmışdılar. Hacıağanı ağlamaq tutdu. Məsələdən qabaqcadan xəbərdar olan İmanqulu qohumunu ovundurdu. «Ayıbdır, yekə kişisən, sənə söz vermişəm ki, uşağı buraxdıracağam!» - deyən İbişov içəri keçdi. Mahmudi qayıtmışdı. Cəlilabadlı casusunun onu soraqlaması xəbərini eşidəndən kabinetdə oturub yolunu gözləyirdi. İmanqulu gözaydınlığı verdi: «Həmin adamı gətirmişəm, çöldə gözləyir». Zabit İbişova «afərin» deyib sərbazları çağırdı. İndi sərhədi qanunsuz keçən Hacıağanı asanlıqla həbs etmək olardı. Amma İmanqulu canyananlıq elədi: «Qurban olum, mənim yanımda tutmayın! Sonra başqa cür başa düşər». Mahmudi razılıqla başını tərpətdi. Beləliklə, bir ay əvvəl Hacıağa Ağayev üçün qurulan tələnin qapısı bağlanmağa başladı...

İmanqulu binadan çıxan kimi Hacıağanı qucaqladı:

«Darıxma, işləri yoluna qoydum. Uşağı sabah buraxacaqlar». Xiyabanda əyləşdilər. Qəflətən küçədə sərbazlar göründülər. Qolları bağlı Seymuru qabaqlarına qatıb «Ettelaat»a gətirirdilər. Hacıağa hövlnak yerindən qalxıb oğluna sarı yüyürdü. Əli silahlı sərbaz qabağını kəsdi. Gözüyaşlı atanı çöldə qoyub Seymuru içəri saldılar. Heç on dəqiqə keçməmişdi ki, dustağı «Ettelaat»ın binasından çıxarıb geri apardılar. Hacıağa nə qədər cəhd etsə də, oğlu ilə kəlmə kəsməyə imkan vermədilər. İmanqulu dərdli atanın qoluna girib xiyabana gətirdi. Hacıağa skamyaya çöküb hönkürtü ilə ağlamağa başladı. İbişova da, Mahmudiyə də elə bu lazım idi. Casusluğa namizəd kimi seçilmiş Hacıağa Ağayev artıq mənən sınmış, yumşalmışdı. İndi onu «emal etmək» daha asan olacaqdı.

Minarədən azan səsi eşidilirdi. Günorta namazının vaxtı idi. İbişov qəm içində olan Ağayevi məscidə apardı. Namazdan sonra dərdləşə-dərdləşə xiyabana qayıdanda İbişov onlara sarı yaxınlaşan Mahmudinin maşınını gördü. Vaxt idi. Hacıağaya "Sən gözlə, əlimə su alıb gəlirəm" – deyib aradan çıxdı.

Maşından düşən sərbazlar dərhal Hacıağanın başının üstünü kəsdirdilər. Mahmudi də burada idi. Zabit onun pasportunu vərəqləyib və sonra “Düş qabağıma!” - dedi. Oğlunu xilas etmək üçün gəlmiş Hacıağa taleyinə boyun əydi.

Ağayevi oğlu ilə bir kameraya saldılar. Soyuq, rütubətli məhbəsin zəhmli divarları atanı daha da vahimələndirirdi. Artıq Hacıağanın ümidi hər yerdən üzülmüşdü. Amma bir fikir vicdanına rahatlıq vermirdi: “Yəqin, yazıq İmanqulunu da tutublar. Bədbəxt mənə kömək etmək istəyirdi”...

Sübh tezdən Hacıağanı kameradan çıxarıb küçənin o başındakı kazarmaya apardılar. Qolları arxada sərbazların qabağına düşən Hacıağa xəcalətindən başını qaldırıb yoldan keçənlərin üzünə baxa bilmirdi. Qəflətən kimsə onu

çağırdı. İmanqulu idi. Ağaca söykənib gülümsəyirdi. Hacıağa şükür içində əllərini göyə tutdu. İbişov isə baş barmağını qaldırdı: Yəni, qorxma, hər şey yaxşı olacaq.

Hacıağanı "Ettelaat"ın yüksək rütbəli zabiti dindirirdi. O səsini qaldırıb qışqıranda Ağayev qorxusundan uşaq kimi büzüşür, yumağa dönür, mehribanlıqla öyüd verəndə isə göz yaşlarını saxlaya bilmirdi. İki saatlıq "psixoloji emal" əməliyyatından sonra zabitin dediyi son söz Hacıağanı sarsıtdı, dünya-aləm başına fırlandı: "Qulağını aç və eşit İrana öz xoşunla gəlməmisən! Buraya səni biz gətizdirmişik, oğlunu da biz tutdurmuşuq!" Və sonra «Ettelaat»da İmanqulu ilə olan söhbətindən, Hacıağanı «Ettelaat»a cəlb etmək üçün hazırlanan əməliyyatdan danışdı: "İmanqulu savadsız olsa da, bizim adamdır. İstəyirik, sən də İranın xeyrinə, Azərbaycanın gələcəyi naminə (?) bizə qoşulasan. Sənin «Ettelaat»la əməkdaşlıq etməkdən başqa yolun yoxdur"...

İranın xüsusi xidmət orqanlarının övladı həbs edib atanı zorən casusluğa cəlb etmək metodu hələ boşa çıxmamışdı. Odur ki, Hacıağa da xahiş-minnət gözləməli olmadı. Sonralar məhkəmə prosesində verdiyi ifadədə bu hərəkəti barədə belə deyəcək: "...Mən əvvəlcə razı deyildim. Dedim ki, siyasət mənim işim deyil! Amma onlar fikirlərindən dönmədilər. Hədələdilər ki, əgər bu işə qol qoymasan, səni zindana salıb əzab verəcək, sonra Seymurun meyiti ilə birikdə Azərbaycana yola salacağıq. Əlacım kəsildi"...

Ağayevi mənəvi cəhətdən sındırıb təsirləri altına saldıqdan sonra zabitin barmaq işarəsi ilə sərbaz içəri Quran gətirdi. İmanqulunun başına gətirilənlər yenidən təkrar olundu: Hacıağa da əlini Qurana əl basıb and içdi və sonra da həmin zabitin diktəsi ilə iltizamnamə yazıb imzaladı: "Mən, Hacıağa Mirzəağa oğlu Ağayev İran İslam Respublikasının mənafeyi naminə «Ettelaat»ın

verdiyi bütün tapşırıqları yerinə yetirəcəyimə and içirəm. Əgər İrana və Qurana (?) xəyanət etsəm, ən ağır cəzaya layiqəm”. İmza atıb qələmi yerə qoydu. Başını qaldırdı. İçəridəkilər özlərindən razı halda gülümsəyirdilər. Elə bil Hacıağanın çiyinlərindən ağır yük götürüldü. “Xəyanət etmək nə asan imiş!” - deyə düşündü. Artıq xəyalında Seymur ilə Cəlilabada neçə qayıtmasını, orada nə deyəcəyini götür-qoy edirdi. Lakin "andiçmə" mərasimi «Ettelaat» üçün kifadət deyildi. Qonşu otağa keçdilər. Pəncərə önündəki ensiz stolun qarşısında videokamera quraşdırılmışdı. Hacıağanı masanın arxasında əyləşdirdilər. Zabit iltizamnaməni onun qabağına qoyub kameranın arxasına keçdi: “Mən əlimlə işarə verən kimi kağızdakı mətni ucadan oxuyarsan!" Hacıağa duruxdu, ayağa qalxıb obyektivin qarşısından çəkildi: "Ağa, onsuz da, dediyinizi yazıb qol çəkmişəm. Daha bu oyun nəyə gərəkdir? "Zabit bağırdı: "Oxu, deyirəm sənə! Yoxsa, oğlunun meyidini görəcəksən!” Hacıağa stola çöküb kağızı əlinə aldı...

Çəkiliş başa çatdı. İndi Hacıağa oğlunu da götürüb Cəlilabada qayıda bilərdi. Amma «Ettelaat» Seymuru azadlığa buraxmağa tələsmirdi: “Hələ bir işimiz də qalıb”. Söhbətin uzanacağını görən Ağayev bayaqdan bəri ürəyində saxladığı sualı verdi: Ağa, neçə vaxtdır məni dindirirsiniz, amma adınızı bilmirəm?” “Adımı neyləyirsən?” - deyə zabit güldü – “Sənin üçün bundan sonra mən Aydın Məmmədovam”...

Nahardan sonra “Aydın Məmmədov” Hacıağanı öz otağına gətizdirdi. Bu dəfə təzətər casusunu sorğu suala tutmadı. Tapşırığını verdi: Rayon icra hakimiyyəti başçısının nümayəndəsi kimi Mikayıllı, Qarğılı, Ağqaşlar və Cəfərli kəndlərində yaşayan bütün əhalinin evbəev siyahısını, 28 nəfər vəzifə sahibinin ünvanını və telefon nömrələrini öyrənib İrana ötürməlidir. Hədələməyi də

unutmadı: “Bizi aldatsan, özünü ölmüş bil!” Hacıağanın “Əstəğfürullah!” -deməkdən başqa yolu qalmadı.

Otaqdan çıxdılar. Hacıağa ehtiramla “Aydın Məmmədovu” qabağa buraxdı. İmanqulu dəhlizdə dayanıb qohumunu gözləyirdi. Hacıağanın üzünə baxıb irişdi. “Aydın Məmmədov” hər ikisinin qolundan tutub özünə sarı çəkdi: “Bu gündən bir yerdə işləyəcəksiniz. Hacıağa, hər nəyə ehtiyacın olsa, İmanquluya de. Məlumatı özün İrana gətirə bilməsən, yalnız onunla göndər”....

Nəhayət, Seymur da azadlığa buraxıldı və ertəsi gün “Dollar Mişa”nın keçidi ilə Cəlilabada döndü. Hacıağa ilə İmanqulu isə iki gün Ağahəsənbəylidə qonaq qaldılar. “Aydın Məmmədovun” verdiyi pullara bazarlıq edib fevralın 5-də bu taya adladılar.

Bir müddət keçdi. Hacıağa zənn edirdi ki, artıq təhlükə sovuşmuş və «Ettelaat» bir daha onu narahat etməyəcəkdir: “Bir işdir olub. Bundan sonra kimdi məni axtaran?” Lakin İmanqulu buna imkan verərdimi?! Günlərin birində Hacıağanı təklədi. “Aydın Məmmədovun” salamını çatdırıb tapşırığının nəticələrini tələb etdi. Ağayev kor-peşman dilləndi. “Məni bu işə qatma, istəyirəm hökumət yanına gedim. Deyim ki, günah iş tutmuşam. Məni məcbur ediblər”... İmanqulu qohumunun yaxasından yapışıb sözünü kəsdi: “Axmaqlıq eləmə! Özünü də məhv edərsən, məni də! Xəbər çıxsa, hər ikimizi incidəcəklər.

Nədən qorxursan? İndi çox adam belə işlə məşğul olur” (?) Hacıağa düşünüb fikrindən daşındı. Və yalnız həbs olunduqdan sonra necə böyük səhv etdiyini başa düşdü. Lakin gec idi. Məhz bu səhv onun cinayət məsuliyyətinə cəlb olunması ilə nəticələndi.

Yəqin ki, əgər Telman Əliyev saxta dollar alveri üstündə yaxalanmasaydı, "Dollar Mişa"nın komandası

## ÜZÜDÖNÜKLƏRİN



**İmanqulu İbişov**



**Hacıağa Ağayev**



***Mikayıl Quliyev***



***Rəfail İbişov***

## «şərəf» lövhəsi



***Tofiq Mehdiyev***



***Niyaməddin Məmmədov***



**Telman Əliyev**



***Mahmud Abbasov***

sərhədi satmağı hələ də davam etdirəcək, İmanqulu ilə Hacıağa isə «Ettelaat»la əlaqələrini genişləndirəcəkdilər. Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları onların xəyanətinin üstünü qısa vaxt ərzində açdılar. İstintaq zamanı hər biri törətdiyi cinayəti etiraf etdi. Beləliklə, Azərbaycan Respublikasının Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə dövlət sərhədini pozduqlarına, qaçaqmalçılığa görə Telman Əliyev, Niyaməddin Məmmədov, Tofiq Mehdiyev, Mahmud Abbasov altı il, Sabir Məmmədov və Rəfail İbişov isə yeddi il müddətinə azadlıqdan məhrum edildilər. Vətənə xəyanətdə, İranın xeyrinə casusluqda ittiham olunan İmanqulu İbişov ömrünün on ilini, Hacıağa Ağayev dörd ilini, casuslara və qaçaqmalçılara şərait yaradan Mikayıl Quliyev isə vəzifə səlahiyyətlərindən tamahkarlıq məqsədilə istifadə etdiyinə görə ömrünün səkkiz ilini həbsxana şəraitində başa vuracaqlar.

Bu da holland rəssamı Breygelin «Korlar» əsərinin azərbaycansayağı təvsiri. Gözlərini tamah pərdəsi tutan «korlarımız» hələ də var. Görəsən, bu hadisə onlar üçün də ibrət dərsi olacaqmı?

İnanmaq istəyirik.

## Kitabın içindəkilər

Ön söz ..........................................................3

«Sülhməramlı» casuslar ................................7

Səssiz müharibə ..........................................33

Casusluqda «ailə podratı» ............................77

«Cənab - 57» ...............................................93

Uçuruma doğru ...........................................107

Rəssam: **Ramiz MƏMMƏDOV**

Kompüter tərtibatçısı
**İlqar MAHMUDOV**

Fotolar **Elxan BAĞIROVUNDUR**

Korrektorlar:
**Nərgiz ƏLİYEVA,**
**Xatirə TAĞIYEVA**

Kompüter yığıcısı:
**Araz AŞUROV**

Çapa imzalanıb 01.03.1999
Format 84/108, həcmi 7.5 ç.v.
Tirajı 2500. Sifariş 27.
Kitab "Çapçı" mətbəəsində
Ofset üsulu ilə çap olunub.